**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ŞƏKİ REGİONAL ELMİ MƏRKƏZİ**

**Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu**
**M.Ə.Rəsulzadənin anadan olmasının**
**140 illiyinə ithaf olunur**

AKİF ƏLAVƏDDİN oğlu MƏMMƏDLİ

# BALAKƏN-ZAQATALA BÖLGƏSİNİN TARİXİNƏ DAİR OÇERKLƏR

**BAKI – 2024**

***Azərbaycan Milli Elmlər Akademiyası Şəki Regional Elmi Mərkəzi Elmi Şurasının 06 mart 2024-cü il tarixli 2 №-li protokoluna əsasən nəşrinə icazə verilmişdir***

Elmi redaktor: Əməkdar Elm xadimi, Dövlət mükafatı laureatı, akademik **Yaqub Mahmudov**

Ön sözün müəllifi: t.e.d. **Vaqif Şirinoğlu**

Rəyçi: t.ü.f.d. **Vüsal Baxışov**

Korrektor: Əhliman Qasımov

Dizayner: Nurlan Əhmədov

**Akif Məmmədli. Balakən-Zaqatala bölgəsinin tarixinə dair oçerklər**
Bakı, JekoPrint Çap Evi, 2024, 160 səh.

ISBN 978-9952-8483-7-3

# MÜNDƏRİCAT

**ÖN SÖZ**.......................................................................................**5**
**GİRİŞ**..........................................................................................**9**
**I FƏSİL**. TARİXİ ABİDƏLƏRİMİZDƏKİ ƏN QƏDİM YAZI - PİKTOQRAMLAR.................................................................................15
İstifadə olunmuş ədəbiyyat.................................................................19
**II FƏSİL**. XIX ƏSRİN II YARISINDA XALQ ÜSYANLARI .......20
2.1. Polyaklar Zaqatala üsyanında .....................................................20
2.2. Hacı Murtuz...................................................................................28
2.3. İşğala qarşı yeni üsyanlar dalğası...............................................33
2.4. İşğala, zorakı xristianlaşdırmaya qarşı mübarizə.........................35
İstifadə olunmuş ədəbiyyat.................................................................45
**III FƏSİL**. CAR-TALA (CAR-BALAKƏN) CAMAATLIĞININ YARANMASI VƏ FƏALİYYƏTİ ....................................................48
3.1. Car-Tala (Car-Balakən) camaatlığının yaranması .......................48
3.2. Car-Tala (sonralar Car-Balakən) Camaatlıqlarının Ağdam Yığıncağının Qərarı ...........................................................................54
İstifadə olunmuş ədəbiyyat.................................................................62
**IV FƏSİL**. İNGİLOYLAR (GELLƏR) ..............................................64
İstifadə olunmuş ədəbiyyat.................................................................73
**V FƏSİL**. ŞİMAL-QƏRBİ AZƏRBAYCANDA (Balakən-Zaqatala bölgəsində) QƏDİM YAŞAYIŞ EVLƏRİ..........................................75
İstifadə olunmuş ədəbiyyat və informatorlar......................................82
**VI FƏSİL**. ŞİMAL-QƏRBİ AZƏRBAYCANDA (Balakən-Zaqatalada bölgəsində) YENİ AŞKAR OLUNAN TARİXİ ABİDƏLƏR ..........................................................................................84
6.1. Bölgədəki tarixi abidələrin, xüsusilə məbədlərin öyrənilməsinin əhəmiyyəti ............................................................................................84
6.2. Yeni aşkar olunan Zəmbi kilsə və sövmə.....................................86
İstifadə olunmuş ədəbiyyat.................................................................88
**VII FƏSİL**. QIPÇAQ VƏ ONCALLI KƏNDLƏRİNİN ETNOQRAFİYASI VƏ TARİXİ ABİDƏLƏRİ ................................89

İstifadə olunmuş ədəbiyyat............................................................93
**VIII FƏSİL**. ŞİMAL-QƏRBİ AZƏRBAYCANIN TARİXİNƏ VƏ TARİXİ ABİDƏLƏRİNƏ YENİ BAXIŞ .........................................94
İstifadə olunmuş ədəbiyyat..........................................................100
**IX FƏSİL.** BÖLGƏDƏ "ÜRVƏTÜL-VÜSQA" TƏŞKİLATI VƏ ONUN FƏALİYYƏTİ..................................................................102
İstifadə olunmuş ədəbiyyat və informatorlar..................................107
**X FƏSİL**. TARİXİ VƏ ƏDƏBİ QAYNAQLARDA TƏNBUR .....108
10.1. Tənbur nədir ...........................................................................109
10.2. Mənbələrdə tənbur .................................................................111
10.3. Balakən-Zaqatala bölgə folklorunda tənbur aləti....................114
İstifadə olunmuş ədəbiyyat..........................................................116
**NƏTİCƏ.......................................................................................122**
**Yer və şəxs adlarının izahına dair ...............................................130**
**XÜLASƏ.......................................................................................135**
**ƏLAVƏLƏR.................................................................................142**

## ÖN SÖZ

XXI yüzilliyin 20-ci illərində müstəqillik yolu ilə inamla addımlayan Quzey Azərbaycanın tarixinin ayrı-ayrı dövrlərini real və obyektiv şəkildə araşdırmaq tarixçilərimizin ən prioritet vəzifələrindən biridir. Bu baxımdan Akif Məmmədlinin təqdim etdiyi "Balakən-Zaqatala bölgəsinə dair tarixi oçerklər" adlı monoqrafiyası mühüm tarixi-mədəni mövzuya həsr olunmaqla son dərəcə elmi əhəmiyyət kəsb edir. Çünki bu əsər Azərbaycanın Balakən-Zaqatala bölgəsinin siyasi, tarixi və mədəni həyatı haqqında yeni bilgilərin əldə olunmasına imkan verir.

Fikrimcə, müəllifin belə bir mövzuya müracaiət etməsi təqdirəlayiqdir. Azərbaycanın ayrı-ayrı regionlarının tarixinin öyrənilməsi Vətən tarixşünaslığının mühüm istiqamətlərindən biridir. Müstəqilliyimizin bərpasından sonra bu sahəyə diqqət artmışdır.

Bu gün Azərbaycanın hər bir regionun tarixinin ətraflı şəkildə öyrənilməsi həm tarixi, həm də mənəvi-vətəndaşlıq baxımından günün tələblərinə çevrilməkdədir. Bu baxımdan Akif Məmmədlinin "Balakən-Zaqatala bölgəsinə dair tarixi oçerklər" adlı əsərini dəyərli bir elmi tədqiqat işi kimi də qiymətləndirmək olar.

Akif Məmmədli tərəfindən Balakən-Zaqatala bölgəsinə məxsus tarixi, etnoloji, arxeoloji və yazılı mənbələr üzərindən aparılan elmi təhlillər, nəticə etibarı ilə bölgə tarixinin müəyyən qatlarının dərindən öyrənilməsi üçün yeni imkanlar yaradır. Çünki hər bir bölgənin tarixinin öyrənilməsi ümum-Azərbaycan tarixinin öyrənilməsinə töhvə vermiş olur.

A.Məmmədli regionun sosial-iqtisadi və siyasi vəziyyətinin ağır duruma düşməsini Rusiya imperiyasının müstəmləkəçilik siyasəti ilə əlaqələndirir. Müəllif Balakən-Zaqatala bölgəsində yaşayan əhalinin XIX əsrdə Rusiyanın müstəmləkəçilik siyasətinə qarşı apardığı mübarəzəni ümumqafqaz mübarizəsi ilə əlaqələndirir. Xüsusilə bölgəyə sürgün edilmiş polyakların

müstəmləkə rejiminə qarşı yerli xalqın apardığı azadlıq mübarizəsində, xüsusilə 1863-cü ildə Hacı Murtuzun rəhbərliyi ilə baş vermiş Zaqatala üsyanında aktiv iştirak etmələrinin şərh olunması diqqəti cəlb edir.

A.Məmmədli əsərdə, bölgədəki tarixi abidələr və qədim yazı-piktoqramlar haqqında da maraqlı məlumatlar verərək bölgənin qədim tarixə malik olduğunu qeyd edir. Müəllifin özü də bölgənin maddi-mədəni abidələrinin üzə çıxarılmasında və həmin abidələrin üzərindən tədqiqatlar aparılmasında bilavasitə yaxından iştirak edir.

A.Məmmədli Car-Tala (Car-Balakən) Camaatlığının yaranması və fəaliyyətini araşdırarkən, Camaatlığın yaranma tarixi ilə yanaşı, daha çox burada baş vermiş tarixi və siyasi hadisələrə diqqəti yönəldir. Əsərdə Camaatlığın tarixindən bəhs edən ayrı-ayrı müəlliflərin əsərlərinin qısa təhlilini verməklə yanaşı, bu İcma qurumunun Ali orqanı olan Xalq yığıncağında qəbul edilmiş "Qanunnamə" də şərh olunur.

Əsərin "Ürvətül-vüsqa" təşkilatı və onun fəaliyyəti" adlı bölməsində xalqın sovet rejiminə qarşı azadlıq mübarizəsindən bəhs olunur. Orada qeyd olunur ki, Xalq Cümhuriyyəti hökumətini yenidən bərpa etmək üçün "Müsavat"ın yerli təşkilatı olan "Ürvətül-vüsqa" adlı təşkilat yaradılmış və onun üzvləri sovet rejiminə qarşı ciddi mübarizə aparmışdı.

Müəllif tərəfindən bölgənin qədim sakinlərindən biri olan "gel" tayfaları haqqında da maraqlı təhlillər aparılıb. Əsərdə haqlı olaraq qeyd olunur ki, ingiloylar ən qədim dövrlərdən bəri Azərbaycanın şimal-qərb bölgəsində yaşamış "gel" tayfalarının varisləridir. Həmin "gel" tayfaları Azərbaycan Albaniya dövlətində mövcud olmuş tayfalardan birinin adı olmuşdur.

A.Məmmədli Şimal-Qərbi Azərbaycanın (Balakən üzərindən) tarixinin, etnoqrafiyasının öyrənilməsində yaşayış məskənlərinin, xüsusilə evlərin tədqiqinin mühüm yer tutduğunu qeyd edir. Bununla əlaqədar müəllif, problemə aydınlıq gətirmək üçün arxeoloji mənbələrə üstünlük verir. A.Məmmədli

eyni zamanda Balakən, Qax və Zaqatalanın müxtəlif yaşayış yerlərində tikilən evlər, onların tikilmə quruluşu, tikinti materialları haqqında, eləcə də vaxtı ilə bölgədə aparılan arxeoloji qazıntılar zamanı tapılmış maddi-mədəni nümunələrə istinad etməklə maraqlı təhlillər aparır.

Əsərdə Şimal-Qərbi Azərbaycanda yeni aşkar olunan tarixi abidələr haqqında da diqqət çəkən məlumatlara rast gəlmək mümkündür.

Azərbaycanın yerləşdiyi coğrafi və strateji mövqeyinə, eləcə də təbii ehtiyatlarının zənginliyinə görə tarix boyu diqqət mərkəzində olduğunu qeyd edən müəllif, Azərbaycanın Şimal-Qərb bölgəsindəki bəzi qədim abidələrin müəyyən mübahisələr obyektinə çevrildiyini göstərir. A.Məmmədli, bu mübahisələrin başlıca səbəblərindən biri kimi “bölgədəki qədim tarixi abidələrin, xüsusilə də məbədlərin araşdırılmaması və elmi ədəbiyyatda öz əksini tapmaması” ilə əlaqələndirir. Daha sonra müəllif haqlı olaraq qeyd edir ki, “Azərbaycan tarixinin və mədəniyyətinin ən dəyərli yadigarları olan bu tarixi abidələr xalqın əsrlər boyu təşəkkül tapmış böyük sərvətinin bir qismidir”.

A.Məmmədli əsəri hazırlayarkən bölgəyə aid olan hər bir abidə haqqında məlumat verməyə çalışmışdır. Həmin məlumatlardan biri də “yeni aşkar olunan Zəmbi kilsə və kiçik məbəd (sövmə)” haqqındadır. Həmin “məbəd Balakən rayonunun Mahamalar kəndində, dağın ətəyində yerləşir”. Müəllif Zəmbi kilsəsinin adı ilə əlaqədar maraqlı təhlillər aparır.

Əsərin “Qıpçaq və Oncallı kəndlərinin etnoqrafiyası və tarixi abidələri” hissəsində “Qax rayonunun cənubunda, Əyriçay vadisində münbit torpaqlı geniş düzən ərazidə yerləşən Qıpçaq kəndinin öz adında qədim tariximizin bir çox məqamlarını yaşatdığını qeyd edən A.Məmmədli, bununla bağlı ayrı-ayrı tədqiqatçıların yazmış olduqları əsərlərin üzərindən təhlillər də aparır. O, “Qax rayonunun Qıpçaq kəndində el arasında “Qıpçaq təpələri” adlanan ərazilər, bu kəndin sakinləri üçün az qala müqəddəs yer hesab edildiyini” göstərir.

Əsərin "Tarixi və ədəbi qaynaqlarda Tənbur" bölməsində qədim tənbur musiqi aləti haqqında da çox maraqlı məlumatlar verilir. Müəllif qədim tənbur alətinin Balakən-Zaqatala bölgəsində "hayla" deyildiyini qeyd edir və bunun da "haylamaq, çağırmaq sözündən" götürüldüyünü bildirir.

Əsərdə "Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, Qətran Təbrizinin və bir çox orta əsr klassiklərimizin əsərlərində tənbur haqqında maraqlı məlumatlar"ın olduğu da vurğulanır.

Müəllif tərəfindən monoqrafiyanın hər bir fəslinin sonunda istifadə etdiyi ədəbiyyat siyahısının verilməsi təqdirəlayiqdir.

İnanıram ki, Akif Məmmədlinin gərgin elmi axtarışlarının nəticəsi olaraq təqdim etdiyi "Balakən-Zaqatala bölgəsinə dair tarixi oçerklər" adlı monoqrafiyası nəinki bir bölgənin, eləcə də Bütöv Azərbaycan və Türk dünyası tədqiqatçıları və oxucuları üçün də maraqlı olacaq.

***Vaqif ŞİRİNOĞLU***
*Tarix elmləri doktoru*

# G İ R İ Ş

Tariximizin az öyrənilmiş səhifələrinin, xüsusilə, Azərbaycanın şimal-qərb bölgəsinin tarixinin qaranlıq qalmış səhifələrinin araşdırılması tədqiqatçıların qarşısında duran əsas vəzifələrdən biridir.

Sovet hakimiyyəti illərində və müstəqilliyin ilk dövrlərində bölgəmizin tarixi bilərəkdən təhrif edilmişdir. Sovet tarixşünaslığında bölgənin tarixi ilə bağlı samballı tədqiqat əsərlərindən biri İ.P.Petruşevski tərəfindən qələmə alınmışdır. Əsərin müsbət cəhətləri ilə bərabər, çox böyük qüsurları da vardır ki, bu da xalqları qarşı-qarşıya qoymaq, onların etnik mənşəyinin, gerçək tarixinin yanlış təqdim olunması idi. 1934-cü ildə Tiflisdə nəşr olunan «Джаро-Белоканские вольные общества в первой половине XIX века» əsəri, sonralar Mahaçqalada dəfələrlə nəşr edilmişdir.

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşları tərəfindən kollektiv şəkildə hazırlanmış "Şimal-Qərbi Azərbaycan tarixi" kitabı, bu sahədə tarixşünaslığımızın uğuru hesab oluna bilər. E.M.Lətifovanın, A.Ə.Məmmədovanın, Ə.F.Məmmədovun, Ş.H.Əliyevin, İ.H.Əliyevanın əsərləri də bu sahədə təqdirəlayiq əsərlərdəndir.

Bu tədqiqat zamanı Rusiyanın Cənubi Qafqazı işğal edərkən, bölgə insanlarının ciddi müqaviməti ilə rastlaşdığını və bu mübarizədə bölgəyə sürgün edilən polşalıların da çox önəmli rol oynadığını, hətta yerli üsyançılarla birlikdə "ağ kəfən geyinərək" ölümə getdiklərini görəcəyik. Maraqlı cəhətlərdən biri budur ki, polyakların Zaqataladakı kilsəsi – Kosteli də bu mübarizədə üsyançılara dəstək olmuşdur.

Doğma Azərbaycanımızın tarixində özünəməxsus yeri və rolu olmuş Şimal-Qərbi Azərbaycan ən qədim dövrlərdən bəri bu günədək zəngin tarixi inkişaf yolu keçərək, özünün milli və etnik tərkibinin rəngarəngliyi, sosial-iqtisadi vəziyyəti, idarəçiliyinin özünəməxsusluğu ilə fərqlənmişdir.

XVIII-XIX yüzilliklərdə Car-Balakən camaatlığı və İlisu sultanlığı patriarxal feodal quruluşu olmaqla bərabər, tamamilə müstəqil idarə olunan bərabər hüquqlu icmaların ittifaqından yaranmışdı. İlisu Sultanlığı və altı icmanın – Car, Katex, Balakən, Tala, Muxax və Cınıx icmalarının birləşərək təşkil etdiyi Car-Balakən camaatlığı tariximizdə önəmli rol oynamışdır. Hər bir icma bir neçə toxuma bölünürdü. Həddi-buluğa çatmış bütün kişilər toxumun bərabər hüquqlu üzvü hesab edilirdi.

Bir kənddə yaşayan iki və daha çox toxum bir kənd icmasını təşkil edirdi. Hər bir kəndin (çox zaman, tabun deyilirdi-M.A) icmasının məhkəməsi və idarə orqanı mövcud idi. Kovxa, kəndxuda, tabunbaşı, imam və qazı icmanın həyatında önəmli rol oynayan insanlar idi.

Camaatlıqdakı bütün mübahisəli məsələlər şəriət və qanun gücündə olan adət-ənənə əsasında həll olunurdu. Camaatlığın Ağdamçöl yığıncağının "Qərarı" ilə tanış olarkən, bir daha buna əmin olacağıq. Doğrudur, bəzi tədqiqatçılar Car-Balakən camaatlıqlarındakı idarəçiliyi patriarxal-demokratik idarəçilik hesab edirdilər.

XVIII yüzilliyin sonlarından etibarən Rusiyanın Cənubi Qafqaza müdaxiləsi və bölgəmizin məqsədyönlü şəkildə işğalı başlanır. Bu zaman bölgədəki xalqların işğala qarşı onillərlə davam edən mübarizəsi başlayır və bu mübarizədə İslam dininin sufi fəlsəfəsi, Nəqşbəndi təriqəti çox önəmli rol oynamışdır. Bu, sadəcə düşmənə qarşı bir ideoloji silah olmamış, həm də bölgə insanlarının savadlanmasında, dünyagörüşünün artmasında da ciddi rol oynamışdır. Çünki burada adi mədrəsələrlə yanaşı, çox yüksək elmi bilik verən mədrəsələr, xanəgahlar olmuşdur. Bunu bölgəyə gələn rusiyalı və avropalı səyyahlar, hərbi mütəxəssislər də qeyd etmişlər. Odur ki, qısa vaxtda Car-Balakən camaatlığının ərazisi çarizmin işğalçılıq siyasətindən narazı qüvvələrin toplaşdığı mərkəzə çevrilir. Rusların Gürcüstanı işğal etməsindən narazı qalan gürcü əyanları, knyazları – Adam Beburov, Nikolay Vaçnadze, Solomon Zaldantana-

şvili, Taateli, şahzadə Aleksandr və digərləri Car-Balakənə sığınaraq mübarizə aparmağa çalışırdılar. Lakin Azərbaycanın şimal-qərbindən vətənimizin ərazisinə soxulan çar Rusiyası, burada çox ciddi və uzunsürən müqavimətlə rastlaşır, yalnız uzunmüddətli mübarizədə, yerli əhalinin 27 illik müqavimətindən sonra bu bölgəni tamamilə işğal edə bilir.

Təbii ki, Car-Balakən camaatlığının Rusiya tərəfindən ləğvindən sonra, etirazların gizlin, yeni dalğası yaranmağa başlamış və 1863-cü il üsyanı da bunun nəticəsi idi. Bundan sonrakı yetmiş il ərzində də bu mübarizəni tam söndürə bilməyən imperiya qüvvələri anladılar ki, xalqı daim ayaqda tutan amillərdən biri, bölgədəki Nəqşbəndi mədrəsələri olmuşdur. Odur ki, bu, elm-irfan məktəblərinə "səlib yürüşü" başladıldı. Mədrəsələr qapadıldı, onun yaradıcıları ya güllələndi, ya da Sibirə sürgün edildi. AMEA ŞREM və AMEA Əlyazmalar İnstitutunun əməkdaşları ilə birgə aparılan tədqiqatlar zamanı Ömər ibn Məhəmməd əl-Katexiyə, Molla Məhəmməd əl-Balakəni ət Talaliyə, onun atası Molla Abdulla əl-Balakəni ibn Bayrama aid onlarla nadir əlyazmalar – elmi əsərlər, kitablar aşkar edilmişdir. Nə etsələr də, nəyə əl atsalar da, bölgə insanlarını öz tarixi kökündən, qədim adət-ənənələrindən qopara bilmədilər. Belə olduqda, imperiya qüvvələri xalqları bir-birinə qarşı qoymağa, milli-etnik münaqişələr yaratmağa cəhd göstərmişdir.

Daha sonra ingiloy kəndlərində zorakı xristianlaşdırmaya qarşı üsyanlar baş vermişdi. Çünki çar hökuməti Şimal-Qərbi Azərbaycanda xristianlığı yaymaq cəhdlərinə elə Car-Balakəni işğal edən kimi başlamaq istəmişdi, lakin çox ciddi müqavimətə rast olmuş, "ipə-sapa yatmayan" car-balakənliləri itaətə gətirmək üçün yollar aramağa başlamış və bölgənin qədim etnoslarından olan ingiloyların üzərində dayanmışdı.

Bu məqsədlə Rusiya özünü "zor gücünə müsəlmanlaşdırılmış" ingiloyların himayədarı kimi təqdim etməyə çalışaraq, ingiloyları himayə etmək adı altında bu etnosu öz tərəfinə çəkməklə bölgədəki digər etnoslara qarşı istifadə etmək niyyətində

idi. Tədqiqatlar göstərmişdir ki, ingiloylar ən qədim zamanlardan bəri burada yaşamış Alban tayfalarından biri olmuşdur. Onların məişətinin, adət-ənənələrinin, evlərinin quruluşunun öyrənilməsi bir mənalı şəkildə dediklərimizi bir daha təsdiq etdi.

Bölgədəki tarixi abidələrin öyrənilməsi zamanı Alban memarlığının maraqlı elementləri üzə çıxarılmış, guya "mübahisəli" göstərilməyə çalışılan xristian məbədlərinin Alban mənsubiyyəti qəti olaraq öz təsdiqini tapmışdır. Müəllifin öncəki monoqrafiyası və dissertasiyası məhz bu məsələyə həsr edilmiş, arxeoloq N.Alışovun son illərdə Balakəndə apardığı arxeoloji tədqiqatlar, xüsusilə Tülü məbədində aparılan arxeoloji qazıntılar da yuxarıda deyilənləri təsdiq etmişdir. Burada erkən orta əsrlərdə inşa edilmiş tək nefli, düzbucaq quruluşlu Alban xristian məbədi üzərində daha sonrakı dövrdə mehrab hissəsi nalvari şəkildə inşa edilmiş məbəd tikilmişdir.

Tarixi abidələrin araşdırılması zamanı Balakən rayonunun Katex kəndinin Godobqara məhləsindəki qədim məscidin divarlarında qədim şəkli yazılar – piktoqramlar aşkar edilmişdir. Bu, bölgədə yazı mədəniyyətinin tarixinin qədimliyini göstərməklə yanaşı, ən əski inancların, adət və ənənələrin İslamla çulğaşmış şəkildə mövcud olduğunu göstərirdi.

Çarizmə, onun müstəmləkəçi siyasətinə qarşı onillər boyu mübarizə aparmış bölgə insanlarının, ən qəddar terror fəaliyyətinə, ağır cəza metodlarına baxmayaraq, Sovet hakimiyyətinə qarşı da uzun zaman mübarizə apardığı faktları tərəfimizdən üzə çıxarılmışdır. Belə ki, 1924-cü ildə bölgədə Cümhuriyyətimizin qurucusu olan Məhəmməd Əmin Rəsulzadə və onun ən yaxın silahdaşı olmuş Mirzə Bala Məmmədzadə ilə əlaqə yaradılmış və burada "əl-Ürvətül-vüsqa" adlı gizli antisovet təşkilatı qurulmuş, 1930-cu ildə bu təşkilatın rəhbərliyi ilə böyük bir üsyan baş vermişdi. Qısa müddətə olsa da, üsyan qalib gəlmiş, sonra qəddar Topurudze-Sumbatovun başçılığı ilə Balakənə göndərilmiş "xüsusi cəza dəstəsi" tərəfindən qan içində boğulmuşdu.

Monoqrafiyada tədqiqata cəlb edilən "Qıpçaq təpələri" adlı ərazidə qədim "şəhər tipli" yaşayış yeri aşkar edilmiş, tariximizin qədim səhifələrindən daha biri qismən aydınlığa qovuşdurulmuşdur.

Əski Qıpçağa gedən yolun üzərində, Qaysarlıda, çöl ərazidə tək və qədim bir məzar vardır ki, bununla bağlı el arasında müxtəlif fikirlər səslənirdi. Tədqiqat zamanı Ə.Sultanovun köməyi sayəsində bu məzar daşı üzərindəki ərəbcə yazılan epiqrafika nümunəsini gün işığına çıxardıq.

"Bu, rəhmətlik, günahları bağışlanası Əbdüləzizin qızı, Hacı Mahmud ən-Nuxəvinin oğlu Alim Hacı Abdullah Əfəndinin zövcəsi Minə xatunun qəbridir. O, 1300-cü ildə Rəbiüssani ayının əvvəlində vəfat etmişdir. Allah ona rəhmət eləsin və onu....birlikdə həşr etsin.

Ölüm nə cəhaləti səbəbi ilə cahilə, nə də özündən elm öyrənilən alimə mərhəmət edər".

Tənha olsa da, dövrünün görkəmli məzarlarından olan bu məzar, üzərindəki yazıdan göründüyü kimi, tanınmış alimlərdən birinin həyat yoldaşına aiddir.

Əski Qıpçaqdakı "Almalıx" adlanan, hektarlarla ərazini əhatə edən məzarlıqdakı ziyarət yerindəki bəzi məzar daşlarında çox qədim motiv və naxışlara rastlanır ki, bu motivlər minillər öncə yaşayan insanların – Qıpçaq sakinlərinin dünyagörüşünü, inanc və etiqadlarını özündə əks etdirir.

Qeyd etməliyik ki, mərhum arxeoloq N.Muxtarovun Balakən rayonunun Kortala kəndinin Qaracılı obasında, "Xəncəritən Qobu" adlanan ərazidə apardığı arxeoloji qazıntı nəticəsində antik dövrə aid çox zəngin mədəni təbəqə aşkarlanmış, bükülü şəkildə dəfn edilmiş döyüşçünün boynunda zəncirlə asılmış tunc Ay tapılmışdı. Xatırladaq ki, Mesopotamiyada qazıntı aparan arxeoloq Leonard Vulli şumerlərə aid çoxlu Ay şəkilli əşyalar tapmışdır. Oğuz rayonunun Kərimli kəndindəki kurqanda da Ay təsviri, hətta Mesopotamiyadakı kimi hökmdara məxsus "qızıl öküz başlı əsa" aşkar edilmişdi.

Eramızdan əvvəl ikinci minilliyin birinci yarısına aid bu kurqan, bölgənin şumer mədəniyyəti ilə, Mesopotamiya ilə sıx bağlı olduğunu göstərməklə yanaşı, burada dövlətçilik tarixinin bu günədək bildiyimizdən daha qədim tarixə malik olduğunu göstərir. Təəssüf ki, arxeoloq N.Muxtarovun elmi ictimaiyyətə təqdim etdiyi, elmimizə verdiyi bu böyük yenilik hələ də diqqətdən kənarda qalmaqdadır.

Beləliklə, biz bu monoqrafiyada bölgə tarixinin az tədqiq olunmuş, yaxud tədqiq olunmamış problemlərini işıqlandırmağa çalışdıq.

Tarixi və ədəbi qaynaqlarda tənbur musiqi alətinə dair kifayət qədər maraqlı məlumatlar öz əksini tapmışdır. Tədqiqata cəlb etdiyimiz istər tarixi mənbələrdə, istərsə də bədii əsərlərdə sadəcə bu musiqi aləti barədə deyil, onda ifa edən şəxslər barədə də məlumatlar vardır. Xüsusilə də Səfəvilər dövrü ilə bağlı zəngin mənbələrdən biri olan, İsgəndər bəy Münşinin müəllifi olduğu "Tarixi aləmarayi Abbasi", yəni "Dünyanı bəzəyən Abbasın tarixi" əsərini qeyd edə bilərik. İki kitabda tərcümə edilərək çap olunan bu əsər həm şair, həm də tarixçi alim olan Şahin Fazil tərəfindən Azərbaycan oxucusuna təqdim edilmişdir. Bu mənbə ilə yanaşı "Dastani Əhməd Harami" əsərindəki tənbura dair məlumatları da qeyd etmək lazımdır. XIII əsr Azərbaycan poeziyasının ən gözəl nümunələrindən biri olan "Dastani-Əhməd Harami" doğma dilimizdə qələmə alınmış ilk məsnəvi kimi qiymətlidir. Müəllifi bəlli olmayan bu əsər əruz vəznində, sadə və aydın dildə yazılmışdır. Tənbur Azərbaycanın məşhur şairləri İmaddədin Nəsimi, Məhəmməd Füzuli, Nizami Gəncəvinin əsərlərində tez-tez xatırlanan musiqi alətlərimizdəndir. Azərbaycan xalqının ən qədim yazılı abidəsi olan Kitabi-Dədə Qorqud dastanında da yeri gəldikcə tənburun adına təsadüf edirik. Bütövlükdə, xalqımızın milli-mədəni sərvəti olan bu musiqi alətinin müxtəlif növ mənbələr əsasında tədqiqi onun Azərbaycan xalqının soykökü ilə nə qədər sıx bağlı olmasını sübut etməyə imkan verəcəkdir.

I FƏSİL

# TARİXİ ABİDƏLƏRDƏKİ ƏN QƏDİM YAZI-PİKTOQRAMLAR

Biz daha sonra 1863-cü il üsyanının rəhbəri olmuş Hacı Murtuzun qala divarları ilə əhatələnmiş təpədəki qaya üzərində tikilmiş evinin divarında olan, ərəbcə yazılmış kitabədən bəhs edəcəyik. Bununla yanaşı, başqa, daha maraqlı, ilk baxışda bəlkə də qarışıq xətlər yığınına bənzəyən, getdikcə mərkəzə doğru sıxlaşan dairəyə bənzər cizgilərin çəkildiyi daha bir daşın da olduğu barədə məlumat verəcəyik.

Bölgəmizdəki qəbirüstü yazıları, epiqrafik abidələri araşdıran tədqiqatçı alim Ə.Niyazov və tədqiqatçı, ikonoqrafiya (qədim simvollar haqqında elm - M.A) və xəttatlığın, qədim əlyazmaların bilicilərindən Z.Orucov bu təsvirin ən qədim inanclarla bağlı "həyat ağacı"nın təsviri olduğunu bildirirlər.

Daha öncələr, bölgənin tarixi abidələrinin tədqiqatı zamanı Balakən rayonunda, Katex kəndinin Godobqara adlanan obasında, qədim məscidin divarındakı künc daşlarında elmdə "piktoqram" adlanan qədim şəkli yazı nümunələrinə rast olmuş və onlarla mütəxəssislə məsləhətləşərək, bu yazıların gerçəkdən qədim piktoqramlar olduğuna əmin olmuşduq [1].

Piktoqramlardan biri məhz "həyat ağacı"nın təsviri idi.

Ağac kultunun (ağaca, onun müqəddəsliyinə inam) minillər öncəyə aid olduğunu bilirik. Burdakı məscidin divarında, ən görkəmli yerində künc daşları olaraq qoyulan "piktoqram daşları" çox qədim tariximizdən, o zamankı həyat tərzimizdən, inanclarımızdan, göy cisimləri haqqındakı astronomik bilgilə-

[1] Məmmədli A. Şimal-Qərbi Azərbaycanın arxeologiyası və etnoqrafiyası, Bakı, 2009, s.32-34

rimizdən, əski inanclara görə dünyanı dəngədə saxlayan enerjilərin qarşılıqlı əlaqə və nisbətindən bizə xəbər verir [2].

Bizim tədqiqata cəlb etdiyimiz qədim şəkli yazılar-piktoqramlar möhkəm çay daşı üzərində "cızma" üsülundan istifadə edilməklə daşa həkk edilib [3].

İlk şəkli yazı növü olan **piktoqram** təxminən 12 min il əvvəl, orta daş dövründə – Mezolit dövründə meydana gəlmiş və ilk dəmir dövrünədək istifadə olunmuşdur. Yəni, ən son piktoqramların ən azı 3 min il tarixi vardır.

Arxeoloq İ.Cəfərzadə Qobustanda qayaüstü təsvirləri-piktoqramları aşkar edərək dünyaya tanıtmışdır. Naxçıvan və Kəlbəcərdə də çoxsaylı piktoqramlar aşkar edilmişdir.

Balakən rayonunun Katex kəndi ərazisində, "Baş axı" və "Sarı qaya" (Dəli çayın sağ sahilində) adlanan ərazidə arxeoloq X.Alməmmədovla birgə "arxeoloji kəşfiyyat" zamanı ibtidai insanlara aid qədim yaşayış yerində xeyli miqdarda saxsı materialı və daş çapacaq (Sarı qayada - M.A) tapmışdıq [4].

Kənd sakinlərinin verdiyi məlumata görə, Dəli çayın sahilində, Sarı qaya istiqamətindəki qayalar üzərində "şəkilli yazılar" – piktoqramlar olmuş və cahillik üzündən (bəlkə də bilərəkdən?), bu qədim yazılı qaya parçaları çayın sahilinə bənd çəkilən zaman betonun içərisinə qoyulmuşdur [5].

Haqqında bəhs edilən Godobqara məscidindəki "künc daşlarının" yuxarıda adı çəkilən qədim yaşayış yerlərindən gətirildiyini ehtimal etmək olar. Yaxınlıqda əsrlərlə yaşı olan tut ağacları buranın çox qədimdən bir tapınaq, ibadət yeri olduğunu deməyə əsas verir. Tədqiqatlar göstərir ki, minillər

---

[2] Məmmədli A. Azərbaycanın Şimal-Qərb bölgəsinin tarixi abidələri, Bakı, 2013, s.168.

[3] Rzayev N. Möcüzəli qərinələr, Bakı, 1984, s.11.

[4] Məmmədov X. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Balakən rayonunda 2010-cu ildə aparılmış arxeoloji kəşfiyyat işlərinə dair hesabat.

[5] Məmmədli A. Arxeoloqlar. Kurqan və nekropollarda tarixin xəzinələri, Bakı, 2010, s.9.

boyu əcdadlarımız öz ibadət yerlərini, tapınaqlarını daha öncəkinin üzərində inşa etmişlər. Bütün bunları nəzərə alaraq, biz burada daha qədim dövrə aid tapınaq yerinin olduğunu düşünürük. Buradakı məscid özü də daha öncəki məscidin yerində tikilmiş və hətta təmir edilmişdir. Bu fikir məscidin üzərindəki kitabədə də öz əksini tapmışdır. Kitabədəki mətnin tərcüməsi: "Godobqara əhalisi 1315-ci (hicri tarixi ilə - M.A) il tarixində bu məscidi təmir elədi" [6]. (şəkil 17)

Çay daşları üzərində "döymə" üsulu ilə çəkilmiş Ayın, Günəşin, at üzərində qolları yana açılmış ovçunun, keçinin və çox sayda həndəsi fiqurun, o cümlədən "həyat ağacının" təsvirləri vardır. Həndəsi fiqurlar içərisində çoxsaylı üçbucaq təsvirləri, 6 ləçəkli ulduz, 6 və 8 guşəli, kvadrata alınmış ulduz fiqurları özündə **çox böyük tarixi bilgiləri**, əski inanclar sistemini ehtiva edir.

Əski inanclar sistemini, qədim şəkli yazıları-piktoqramları araşdıran tədqiqatçı İ.Avşarova qayaüstü təsvirlər, piktoqramlar, xüsusilə üçbucaq təsviri barədə yazır: "Üçbucaq əsas həndəsi naxışlardan biri kimi geniş tətbiq olunan motivdir. Bu naxış torpağı, bərəkəti, torpağın artım gücünü, baş allahı, dağı, odu, dünyaya gəlməyi, həyatı, ölümü, üç kosmik məkanı (Göy, Yer, yeraltı dünya) simvollaşdırır [7].

İti bucağı aşağıya yönəlmiş üçbucaq – qadın əlamətini, suyu, yeraltı hakimiyyət qüvvələrini, Ayı (qadın cinsi - M.A) bildirir.

İti bucağı yuxarıya yönəlmiş üçbucaqın isə kişi əlamətini, odu, göy qüvvələrini simvollaşdırdığı düşünülür.

Atın belində, əlləri yana açılmış insan təsviri – bir ovsun mərasimini, ovun uğurlu olmasını ifadə edirdi. Ən çox maraq doğuran piktoqramlardan biri keçi təsviridir ki, bu təsvirə

---

[6] Məmmədli A. Azərbaycanın Şimal-Qərb bölgəsinin tarixi abidələri, Baki, 2013, s.165.

[7] Avşarova İ. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e.ə. XIV-VII əsrlər), Bakı, 2007, s.80.

Azərbaycanın müxtəlif bölgələrində, Kəlbəcərdə, Naxçıvanda, Sibirdə, Altaylarda, hətta Anadoluda çox rastlanır və qədim türklərdə gücün, qüvvətin, liderliyin, var-dövlətin simvolu hesab edilirdi. ( şəkil18-21)

Bölgədəki qədim məzar daşlarında müxtəlif cür ilan təsvirlərinə də rast oluruq. Hətta bölgədəki ustaların hazırladığı metal qablarda da bu cür təsvirlərə rastlanır. Haqqında bəhs edilən piktoqramlar arasında da ilan təsviri vardır.

"İlan və ya əjdaha yalnız türklərdə əcdad rəmzi deyil, o, ümumiyyətlə, xeyirxah ruhdur, ocağın qoruyucusudur. İlanı öldürmək günah sayılıb, İlan obraz kimi çoxdan yaradılıb...

Şərqin çox xalqlarında bu işıqlı obraz keçmişin və gələcəyin birliyinin rəmzi olub" [8].

Altaylardan Türküstana, Qafqazdan Mesopotamiyayadək böyük bir coğrafi arenada ən çox rastlanan təsvirlərdən biri qurd (canavar) və keçi təsviridir. Bu təsvirlər həmin ərazidə yaşayan qədim tayfaların, nəslin qoruyucusu hesab edilən totemlərin təsviri, onların inancının simvolları idi.

Tədqiqatlar göstərir ki, bəzən vəhşi heyvanlar əsilzadə nəsillərin rəmzləri olublar. Odur ki, onların təsvirlərini bayraqlarda, gerblərində əks etdirmişlər.

Yuxarıda qeyd etmişdik ki, aşkar etdiyimiz piktoqramlardan biri də at təsviridir. Son tunc və ilk dəmir dövründə atçılığın heyvandarlığın əsas sahələrindən birinə çevrildiyini bilirik.

Azərbaycan atın ilk əhliləşdirildiyi, atçılığın ilk təşəkkül tapdığı ən qədim ölkələrdən biridir.

"Atçılığın inkişafı ilə at totemi, ata sitayiş kimi yeni ünsürlər meydana çıxmışdır" [9].

Qarabağda, Gəncə və Naxçıvanda, Mingəçevir və Talış kurqanlarında təmtəraqlı at dəfn mərasimlərinin həyata keçi-

---

[8]Murad Adcı. Türk və Dünya: munis tariximiz, Bakı, 2006, s.12.

[9] Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək) Z. Bünyadov və Y. Yusifovun redaktəsilə, Bakı, 1994, s.49.

rildiyi müəyyən edilmişdir. Dünyada ilk atın əhliləşdirilməsi ilə bağlı faktı sübut edən ən qədim arxeoloji abidələrdən birinin Cəlilabaddakı Əlikömək təpə olduğunu nəzərə alsaq, ata bu qədər önəm verilməsinin, atın totemlərdən birinə çevrilməsinin səbəbi aydın olur. Həmin dövrdə artıq, "atdan təkcə minik vasitəsi kimi deyil, habelə yük daşınması və qoşqu vasitəsi kimi də istifadə olunurdu" [10].

**İstifadə olunmuş ədəbiyyat:**


1. Məmmədli A. Şimal-Qərbi Azərbaycanın arxeologiyası və etnoqrafiyası, Bakı, "Oka-Ofset", 2009, s. 32-34, 160 s.
2. Məmmədli A. Azərbaycanın Şimal-Qərb bölgəsinin tarixi abidələri, Bakı, "Nurlan", 2013, s. 168, 228 s.
3. Rzayev N. Möcüzəli qərinələr, Bakı, 1984, s. 11.
4. Alməmmədov X. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Balakən rayonunda 2010-cu ildə aparılmış arxeoloji kəşfiyyat işlərinə dair hesabat.
5. Məmmədli A. Arxeoloqlar. Kurqan və nekropollarda tarixin xəzinələri, Bakı, "Adiloğlu", 2010, s. 9, 112 s.
6. Məmmədli A. Azərbaycanın Şimal-Qərb bölgəsinin tarixi abidələri. Bakı, 2013, s. 165.
7. Avşarova İ. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e.ə. XIV-VII əsrlər), Bakı,"Nurlan", 2007, s. 80, 190 s.
8. Murad Adcı, Türk və dünya: munis tariximiz, Bakı, 2006, s.12, 256 s.
9. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək) Z.Bünyadov və Y.Yusifovun redaktəsilə, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994, s.49, 688 s.
10. Azərbaycan tarixi... yenə orada.


[10] Azərbaycan tarixi, yenə orada.

II FƏSİL

# XIX ƏSRİN İKİNCİ YARISINDA XALQ ÜSYANLARI

## 2.1. Polyaklar Zaqatala üsyanında

Tədqiqata cəlb edilən bölgənin müxtəlif tarixi dövrlərində buraya gəlmiş səyyahlar, tacirlər və hərbçilər bölgənin əsrarəngiz təbiətindən, qürurlu və sadə insanlarından bəhs etmişlər.

Əslində bölgəyə maraq hələ eramızdan əvvəl beşinci minillikdən etibarən – ibtidai insanlar burada zəngin mis filiz yataqlarının olduğunu bildiyi zamandan etibarən başlayıb.

Bu tədqiqat işində sonralar Qafqazın, o cümlədən Şimal-Qərbi Azərbaycanın (Zaqatala dairəsi) tarixində önəmli rolu olmuş polyaklardan, onların bura sürgün edilməsinin səbəblərindən bəhs edəcəyik. Əslində polşalıların Qafqazla əlaqəsi hələ XV-XVI əsrlərdən başlamışdı. Bayandurlar (Ağqoyunlular - M.A.) və Səfəvilər dövründə polşalı tacirlər Qafqaza gələrək, buradan da Təbrizə və digər Şərq şəhərlərinə getmişlər.

XVIII əsrin sonlarında isə, Yan Potoski adlı polşalının Qafqazda müəyyən araşdırmalar apardığı barədə məlumatlar vardır. Həmin dövrə aid tarixi qeyd və əsərlərdə Tadeuş Kasinskinin adı tez-tez xatırlanır [11].

XIX əsrin 70-ci illərinin əvvəlində fransız qadın səyyah Karla Serena Polşada, Baltikyanı bölgələrdə, Qafqazda, həmçinin Zaqatalada olmuş və “Mənim səyahətim” adlı əsərində bu səfərlərindən ətraflı bəhs etmişdir. Məşhur fransız yazıçısı Viktor Hüqonun yüksək qiymət verərək rəy yazdığı bu kitab Parisdə nəşr olunmuş və çox böyük marağa səbəb olmuşdu.

Bildiyimiz kimi, Polşa XVIII əsrin sonlarında dəfələrlə Rusiya və digər Avropa imperiyaları arasında bölüşdürülmüş

[11] Солтанов Дж. Миллион Роз из Закаталы или история героев, Киев, 2014, с.32.

və polyak xalqı uzun illər bu ədalətsizliyə qarşı mübarizə aparmalı olmuşdu.

Karla Serena “Polşa – qəhrəmanlar və qisasçılar yurdudur” ifadəsini polşalıların uzun illər vətənlərinin azadlığı uğrunda apardığı mübarizəni nəzərdə tutaraq işlətmişdir.

Mübariz insanlara xüsusi ehtiramla yanaşan K.Serena Zaqatalada olduğu günlərdə “Qalanın içərisindəki zindanda həbsdə saxlanan yerli insanları rus əsgərlərinin mühasirəsində zəncirlənmiş şəkildə” gördüyünü qeyd edirdi. Həbs edilənlər içərisində bir qadının da olduğunu yazır.

O, bildirirdi ki, “qaladakılar hər gün qalaya hücum ediləcəyini həyəcanla gözləyirdilər. Şəhərdə həyəcan hiss olunurdu. Odur ki, zabitlərin ailələri qala divarından çölə çıxmağa cəsarət etmirdilər. Mən isə rus əsgərlərinin müşayiəti olmadan tək çıxırdım şəhərə”.

Nədənsə, bu qadın səyyah Polşa ilə Zaqatalanı, oradakı və buradakı insanların mübarizə ruhunu, onların Vətəninə, el-obasına bağlılığını yüksək qiymətləndirirdi.

Təəssüf ki, bu məşhur səyyah qadının – Karla Serenanın əsəri tam şəkildə dilimizə tərcümə olunmayıb. Yalnız əsərdən bir hissəsi “Qobustan” jurnalının 1985-ci il buraxılışının 3-cü (67-ci) sayında tərcümə edilərək, nəşr edilmişdir.

Qeyd etmək yerinə düşər ki, o dövrdə Qafqazda, xüsusilə Zaqatalada olan səyyahlar buradakı əhalinin başqa dindən olan insanlara hörmətlə yanaşdığını, qonaqpərvərlik göstərdiyini yazırdılar. K.Serenanın “Mənim səyahətim” əsərində isə bu, daha qabarıq hiss olunur. O, öz azadlığı üçün uzun illər boyu Rusiya işğalına qarşı mübarizə aparan polşalılarla Qafqazın bu bölgəsindəki insanların oxşar ruha sahib olduğunu bildirirdi.

İndi bu suala cavab tapmağa çalışaq ki, niyə üsyankar, Rusiyanın işğalı ilə barışmayan polyaklar Qafqaza, xüsusilə də Zaqatalaya sürgün edilirdilər?

1794 və 1807-ci illərdə Polşada üsyanlar baş vermişdi və bu zaman Polşadakı üsyanı amansızlıqla yatıran rus işğal ordu-

suna komandanlıq A.P.Yermolova tapşırılmışdı. Buradakı insanların yenilməz iradəsini, əyilməz ruhunu görən bu qəddar rus generalı bütün azadlıqsevər insanlara nifrət edirdi. 1816-cı ildə rusların Gürcüstandakı Xüsusi Qafqaz Korpusuna komandir təyin edilən A.P.Yermolov hər yerdə qalalar tikdirir, “Qafqazı qalalarla mühasirəyə” almağa çalışırdı.

Çarizmin ideoloqları və bu antibəşəri ideologiyanı həyata keçirən qəddar rus generalları Polşada və Rusiyanın müxtəlif yerlərində baş verən üsyanları qan içində boğur, üsyanın fəallarını Qafqaza sürgün edərək, burada qalaların tikilməsində onların ucuz əməyindən istifadə edirdilər.

A.P.Yermolov Zaqatala qalasının tikintisində bura sürgün edilən polşalı üsyançılardan daha çox istifadə edir, onlara daha çox zülm etməyə, əzab verməyə çalışırdı.

Qafqaza sürgün edilmiş dekabristlərdən A.A.Bestujev-Marlinski də “Zaqatala qalasının tikintisi çox qan və zəhmət bahasına başa gəldi” deyə qeyd edirdi [12].

A.P.Yermolovun məsləhəti ilə üsyankar – əslində azadlıq sevər polşalıların bir qismi Dağıstan və Gürcüstana, böyük bir qismi isə Zaqatalaya sürgün edilirdi.

Polşalıların Cənubi Qafqaza daha böyük köçü Varşavada (Polşada) rus işğalına, yeridilən müstəmləkəçilik siyasətinə qarşı 1830-1831-ci illərdə baş vermiş üsyanın amansızcasına yatırılmasından sonra olmuşdu. Bu dəfə üsyankar polşalıların Zaqatalaya köçürülməsinin təşəbbüskarı Rus çarının Polşadakı canişini İ.F.Paskeviç oldu.

Qəddar canişin İ.F.Paskeviç öz azadlığı uğrunda üsyana qalxanları “qiyamçı” – qanuni hökumətə qarşı çıxanlar adlandırır və “cəzalandırmaq üçün” Qafqaza sürgün etdirirdi. Çünki, Qafqaz “ipə-sapa yatmayan vəhşi təbiətli” insanların yaşadığı qəliz bir yer idi. Adətən, bura sürgün edilənlərə “gedər-gəlməzə gedənlər” kimi baxırdılar.

---

[12] Солтанов Дж. Миллион Роз из Закаталы или история героев, Киев, 2014, с.37.

General İ.F.Paskeviçin adı bizə Qərbi Azərbaycanın – İrəvanın ruslar tərəfindən işğalından tanışdır... Bu qəddar rus generalı polşalıların azadlıq mübarizəsini – 1831-ci ildə baş verən üsyanını qan içində boğdu və bu qəddarlığının mükafatı olaraq ona çar tərəfindən “Varşavskiy” titulu verildi. Daha əvvəl İrəvanı da belə amansızlıqla işğal etdiyinə görə “İravanskiy” titulu verilmişdi.

Varşavada mübariz, azadlıq ruhlu əhaliyə amansız divan tutan İ.F.Paskeviç Rusiya çarı tərəfindən Polşada Rusiyanın Canişini vəzifəsinə təyin olunmuş və 1856-cı ilə – vəfatına qədər bu vəzifədə qalmışdır.

Maraqlı cəhət budur ki, Polşada üsyan başlayanda, çarizmin müstəmləkəçi siyasətinə qarşı Car-Balakəndə də üsyan baş vermişdi.

Digər oxşar cəhət bu idi ki, Polşada da, Car-Balakəndə də üsyanın ideoloqları və əsas liderləri xalqa daha yaxın olan yerli din xadimləri idilər.

Bu dövrdə Şimal-Qərbi Azərbaycanda Nəqşbəndilik çox geniş yayılmışdı və Nəqşbəndi şeyxləri əhali arasında çox böyük nüfuza malik idilər. Bölgədə bu nüfuzun təsiri ilə yerli kənd icması rəhbəri, starşinası da üsyanın fəal iştirakçılarından, hətta təşkilatçılarından biri olurdular. Həmin dövrə aid rəsmi sənədlərdə, bölgədə xidmət edən çar zabitlərinin yazdığı hesabat və raportlarda[13] Zaqatalanın Zilban kəndində olan Can Vəli və Katexdən Zodor İbrahim işğalçı rus əsgərlərinin “qorxulu röyasına” çevrilib, onlara rahatlıq vermirdilər. Bölgəyə sürgün edilən polşalı üsyançılar da qısa bir zamanda bu cür antirus əhvallı yerlilərlə “dil tapır”, əlaqə qurur, bəzən birgə hərəkət edirdilər.

---

[13] Архивные материалы МВД Груз. ССР. Шамиль - ставленник султанской Турции и английских колонизаторов (Сборник документальных материалов), Тбилиси, 1953.

Feldmarşal İ.F.Paskeviç Avropa monarxlarına məsləhət görürdü ki, "qiyamçı polyakları" Cənubi Qafqaza sürgün etsinlər[14].

Artıq XIX yüzilliyin ortalarında Zaqatala və onun ətrafında üç yüzdən çox sürgün edilmiş polşalı var idi. Əsrin sonlarında Qafqaza sürgün edilən polyakların sayı minlərlə olmuşdu. Hətta Qafqaza sürgün edilən polyakların sayının iyirmi mindən çox olduğu bildirilirdi. Burada öz icmalarını yaradan polyaklar Zaqatalada ibadət üçün öz məbədlərini – Kosteli (öz kilsələrini) inşa etdilər. Zaqatala qalasına yaxın yerdə inşa edilən bu polyak kosteli (kilsəsi) buradakı polşalılar üçün sanki "gedəcəkləri yeri, yolu müəyyən edən kompas idi". Çünki polyaklar öz milli, dini dəyərlərinə son dərəcə bağlı insanlar idi.

Ötən əsrin yetmişinci illərində polşalı jurnalistlər Anjey və Qrajen Miloş qardaşları Zaqatalada olmuş və Polşadan bura sürgün edilənlərin taleyini araşdıraraq "Qafqaz" adlı əsərlərində bu barədə ətraflı yazmışlar[15].

Maraqlı cəhətlərdən biri budur ki, XIX əsrin birinci yarısında Zaqatalaya sürgün edilən polyaklar qısa bir zamanda yerli əhali ilə qaynayıb-qarışır, hətta dostlaşırdı.

XIX əsrin ortalarında Zaqatala hərbi dairəsində xidmət etmiş rus zabitləri, idarə rəhbərləri "yuxarı dairələrə" və çara yazdıqları raportlarda Zaqatalaya sürgün edilmiş polşalıların arasında tez-tez qaladan qaçaraq Şamilin dəstəsinə qoşulanların olduğu qeyd edilirdi.

O dövrün rus mənbələri bura sürgün edilən hər on polyakdan birinin elə ilk cəhdindəcə qaçaraq dağlılara və digər üsyançılara qoşulduğu göstərilirdi.

XIX yüzilliyin ikinci yarısına aid rus müəllifi B.M.Antonov, Jeyvaronski familiyalı sürgün edilmiş polşalı sərrast atıcı ovçudan bəhs edir və göstərirdi ki, Jeyvaronski çox qısa bir zamanda yerlilərin dilini öyrənmiş, onlarla dostlaşmışdı. Hətta

---

[14] Солтанов Дж.,göstərilən əsəri, s.44-45

[15] Солтанов Дж., göstərilən əsəri, s.44-45

bu “Avropalı Məcnun” Atta adlı bir qıza vurulmuş, dillərə dastan olmuşdu. O zamankı adətə görə, başqa dindən olan şəxslə sevgi yaşayan qadın “daş-qalaq edilərək” cəzalandırılırdı – öldürülürdü [16].

Sevgilisinin bu cür ölümünə dözməyən bu sədaqətli polşalı, həmin daş-qalaq prosesini təşkil və ona rəhbərlik edənlərin hamısını Katexdə bir gecədə öldürmüşdü. O zaman dillər əzbəri olan bu polşalı 1830-1831-ci illərdə Polşada çarizmin ağır müstəmləkəçi siyasətinə qarşı baş verən üsyanın fəallarından olmuş, öz dürüstlüyünə, cəsurluğuna, son dərəcə sərrast atıcılığına görə məşhur olmuşdu. Bir rus olsa da, B.M.Antonov öz əsərində bu cəsur polşalı haqqında rəğbətlə bəhs etmişdir.

Ötən əsrin sonlarında Zaqatala Tarix-Diyarşünaslıq muzeyinin direktoru olmuş C.Soltanov özünün Varşavada tanınmış jurnallardan birində çap olunan məqaləsində də bu məsələyə toxunmuşdur[17].

XIX yüzilliyin ortalarında Zaqatala qalasındakı rus qarnizonunda xidmət etmiş B.M.Antonov sonralar yazdığı “Dəhşətli məhkəmə. Qafqaz müharibəsindən epizod” adı ilə çap etdirdiyi memuarında Zaqatala qalasında, Katex və Masex kəndlərində baş verən hadisələrdən, polşalı sürgünlərin çox həvəslə yerlilərin azadlıq hərəkatına qoşulmasından bəhs etmişdir.

Ən təsirli olan və maraq doğuran bu idi ki, XIX yüzilliyin 60-cı illərinin əvvəllərində çarizmin bölgədə apardığı zorakı xristianlaşdırma siyasətinə qarşı üsyana çevrilən prosesdə bölgəyə sürgün edilmiş polyaklar çox yaxından iştirak edir, “ölümə meydan oxuyurmuş kimi” vuruşurdular. Hətta 1863-cü il üsyanı başlayanda polyaklardan bəziləri üsyana rəhbərlik edən imam Hacı Murtuz kimi sadə ağ paltar – kəfən geyinmişdilər.

---

[16] Məmmədli A. Balakən-Zaqatala bölgəsi: tarixi, etnoqrafiyası, Bakı, 2001, s.127.

[17] Soltanov C. “Leechici Kaukazu” , “Nove Panstvo”, №12 (354), 2004 rok, Varşava.

Bu, azadlığı, müstəqilliyi üçün ölümü belə qəbul edərək, kəfən geyinmək idi...

Bölgəyə öz ölkəsində apardığı azadlıq mübarizəsinə görə sürgün edilmiş polşalılar burada da Rusiyanın apardığı vəhşi müstəmləkəçilik siyasətindən o qədər cana doymuşdular ki, buradakı insanları öz doğmaları qədər sevmiş və onların azadlığını öz azadlıqları hesab etmiş, bu ölüm-dirim savaşında ən ön cərgədə mövqe tutmuşdular. Bu, tarixdə oxşarına az rastlana biləcək bir hadisədir.

"Qafqazın bütün tarixi qisas və amansızlıqla zəngin olub. Bu iki amil XIX əsrin birinci yarısında, rus ordusunun Asiya və Yaxın Şərqə doğru yürüşlərinin başladığı vaxtda zirvə nöqtəsinə çatıb və Qafqaz dağlarında rusların qarşılaşdığı ilk ciddi maneə olub"[18].

Rusiya çox böyük hərbi-strateji əhəmiyyəti olan Zaqatala dairəsini ələ keçirmək üçün heç bir qeyri-insani davranışdan, qan tökməkdən çəkinmirdi ki, bu da yerli əhali tərəfindən adekvat cavablanır, intiqamçılıq hissini daha da gücləndirirdi. Lesli Blanş da 566 səhifəlik "Cənnətin qılıncları" adlı əsərində qürurlu, azadlıqsevər qafqazlıların, o cümlədən Şimal-Qərbi Azərbaycan əhalisinin mübarizəsindən böyük sevgi ilə bəhs etmişdir.

Araşdırmalar göstərir ki, Balakən-Zaqatala bölgəsində tarixən yaranan maraqlı bir adət formalaşmışdı: Əhali arasında böyük nüfuzu olan şəxslərə hörmət və sevgi mənasında "ikinci ad" verilirdi. Məsələn, əhali arasında böyük nüfuzu olan Əsəd Məhəmməd Əliyə "Zəngi Əfəndi" adı verilmişdi.

Zəngi Əfəndi İslam fəlsəfəsinin, sufizmin böyük bilicilərindən idi. Nəqşbəndi təriqətinin Qafqazda, daha doğrusu, Balakən-Zaqatalada intişar tapan "Zikrçilik" adlanan ("Cazbə" də deyilirdi) cərəyanının ideoloqlarından olan Zəngi Əfəndi 1863-cü il üsyanının liderlərindən biri olmuşdu. Bu təriqətin liderlərindən biri də Katexli Tintin Mahama idi.

---

[18] Lesli Blanş. Cənnətin qılıncları, Bakı, 2016, s.12

Öncə ayrı-ayrı evlərdə, üzvlərinin sayı artdıqca məscid və meydanlarda "Zikrçilik" təlimləri getdikcə güclənir, yayda Carda, qışda isə Danaçı meşələrində keçirilirdi.

O dövr mənbələrinin verdiyi məlumata görə, Danaçı meşəsi bir müddət Rusiyanın hakim dairələri və bölgədəki məmurları üçün "qorxunc və sirli yer" olmuşdu...

Rus tarixçisi R.A.Fadeyev yazırdı ki, buralar Rusiya əleyhinə olan qaçaqların məskəninə, ruslar üçün "müəmmalı yer"ə çevrilmişdi.

Balakəndə isə, gələcəkdə bölgənin bütün həddi-buluğa çatan kişilərin imam seçəcəyi Hacı Murtuzun qala divarları içərisindəki təpədə tikilmiş evi zikrçilik ("cazbə") təriqəti ilə bağlı insanların toplaşıb, birgə zikr etdiyi, bölgədəki vəziyyətin daim müzakirə edildiyi bir yerə çevrilmişdi.

1861-ci ildə Qafqaz canişini knyaz A.İ.Baryatinskinin əmrinə əsasən, Telav uezdinə rəis təyin edilmiş K.A.Borodzin öz xatirələrində yazırdı ki, Zaqatala dairəsinin rəisi knyaz Tarxanov rüşvətxor və əhali arasında sevilməyən, nüfuzsuz bir adam idi [19].

Həmin dövrdə dağlı hərəkatının lideri Şamil əsir götürülmüş, dağlı hərəkatı məğlubiyyətə uğramışdır. Odur ki, Rusiyanın hakim dairələri əhalidən alınan vergini artırmış, zorla rekrut toplayır (əsgər aparır), hətta əhalini xristianlaşdırmağa çalışırdı.

Bütün bunlar əhalinin nifrətini ən yüksək həddə çatdırmışdı. Belə bir məqamda "Cazbə" ideyasının tərəfdarları Rusiyanın işğalına qarşı barışmaz mövqe tutan döyüşçülərə – müridlərə çevrilir, bu təriqətin ideoloqları olan Hacı Murtuz, Zəngi Əfəndi və Tintin Mahama üsyan rəhbərlərinə çevrilirdilər. Xüsusilə zorakı xristianlaşdırma siyasəti bölgənin bütün xalqları olan muğal, ingiloy, avar, saxurları bir ideologiya ətrafında

---

[19] Фадеев Р. А. Шестьдесят лет Кавказской войны. Письмо с Кавказа., Записки о кавказских делах. О Закатальском востании 1861-1862 гг. Москва, 2007

birləşdirdi. Artıq bütün təbəqədən olan insanlar din və iman uğrunda, vətən uğrunda müqəddəs savaşa ruhən hazır idi.

Onsuz da torpaq komissiyasının bölgəyə gəlişi xalqı həyəcanlandırmışdı. "Xristianlığı qəbul etmiş Qalacovların Balakəndə kilsə tikmək cəhdləri isə ümumi narazılığın üsyana çevrilməsinə səbəb olur"[20].

Üsyanın əsas rəhbərləri balakənli Hacı Murtuz, Yunker Əli, Arux İsmayıl, Ağalaroğlu, Əli İsmayıl, carlı Zəngi Əfəndi və Burca Əli idilər.

Üsyançılar rusların əlaqə qüvvələrinin köməyə gələ bilməməsi üçün Qanıx (Alazan) çayı üzərindəki körpüləri dağıtmış, Laqodexi-Balakən yolunu bağlamaq üçün hazırlıq görmüşdülər.

Zaqatalanın üç verstliyində – Xurma obada toplanan üsyançılar qalaya hücuma hazırlaşırdılar. Rusiyanın hökumət dairələri Zaqatala qalasına hücumun dəqiq vaxtını Balakən sahə rəisinin köməkçisi Aleksandr Qalacov, Zaqatala dairəsinin rəisi knyaz Tarxan Mauravova çatdırmışdı.

Qorxuya düşən Tarxan Mauravov həmin vaxt qalaya sığınan iki yüz əlliyədək şəhər varlısına və bura ticarətə gələn altı fransız tacirinə də silah vermişdi.

Balakəndən Zaqatala qalasına köməyə gedən knyaz Şalikovun əsgərləri ilə Beşbulaq adlı yerin yaxınlığındakı keçiddə döyüşə girən Hacı Murtuz knyaz Şalikovu və bir neçə rus əsgərini öldürdü.

## 2.2. Hacı Murtuz

Dövrün bütün tarixi mənbələrində adı dönə-dönə hallanan Hacı Murtuz 1822-23-cü ildə Balakəndə anadan olmuş, 1873-cü ildə Yenisey quberniyasında sürgün edildiyi yerdə vəfat etmişdir. Dini idealına, el-obasına çox bağlı olan bu şəxs səmimi olduğu qədər də sərt və qətiyyətli, qorxmaz biri idi. Müqəddəs Həcc ziyarətində olması, daha öncə hərbçi olub

[20] Şimal-Qərbi Azərbaycan tarixi, Bakı, 2011, s.292.

istefaya çıxması, dəmir iradəsi, tükənməz enerjisi və camaat qarşısında qətiyyətli, aydın, təsirli çıxışları onun bölgənin həyatında önəmli rol oynayacaq İmam seçilməsində ciddi rol oynamışdı.

Burada qeyd etmək yerinə düşər ki, Azərbaycanın şimal-qərb bölgəsində, xüsusilə Balakən və Zaqatalada dini rəhbər olan İmam xalq səsverməsi ilə seçilir və onun şəriət qanunlarından çıxış edərək "fitva vermək", müqəddəs savaşa – qazavata çağırmaq hüququ var idi. Hacı Murtuzun hündür qala divarları içində, təpənin üstündə tikilən evi üsyan baş verən günədək onların təriqət məclisi (zikr məclisi) keçirilən, həm də üsyan planının hazırlandığı, hərbi təlim və məşvərətlərin keçirildiyi yerə çevrilmişdi. Bu evin divarlarında müxtəlif epiqrafika nümunələri vardır ki, onlardan biri dərviş həyatını, asketizmi təbliğ edən ərəb dilində şeir parçasıdır. Digəri isə, ilk baxışda labirintə bənzər bir sxemdir ki, qədim Krımda, Altaylarda və digər yerlərdə buna bənzər təsvirə rastlanmışdır.

Tədqiqatımız zamanı Hacı Murtuzun evinin divarında olan bu təsvirin bəzən qədim məbədlərin divarlarında da rastlandığı məlumdur. Xəttatlığın, gözəl sənətlərin birincisi və islamşünas alim Əhməd Niyazov bu simvolun ən əski türklərdə "həyat ağacı"nın təsviri olduğunu bildirdi.

AMEA Əlyazmalar İnstitutunun şöbə müdiri, xəttat Zaur Orucov illər öncə Katex kəndi ərazisində apardığımız araşdırma zamanı qədim məscidlərin birində "həyat ağacı"nın başqa bir təsvirinə rastladığımı xatırlatdı[21] .

Görkəmli mifoloq Mirəli Seyidov apardığı tədqiqatlarında "həyat ağacı" və onun müxtəlif təsvirlərindən bəhs etmişdir[22].

---

[21] https//vvv.sanatkarnavali, Com/türk-mitolojisinde ağac-kultu/

[22] Mirəli Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən, Bakı, 1989, s.283-292.

Mifoloq “Azərbaycan mifik təfəkkürünün qaynaqları” əsərində də qədim türklərin ağac kultundan, “Dünya ağacı”n-dan ətraflı bəhs etmişdir[23].

Hacı Murtuzun həyatını, keçirdiyi həyat tərzini nəzərdən keçirəndə anlamaq olur ki, gənc yaşlarında Balakənin sərt dağlarını qarış-qarış gəzmiş, sonra Rusiyada hərbi təhsil almış, hərbi xidməti başa vurduqdan sonra Balakənə qayıdaraq islam fəlsəfəsini, sufizmin qayəsini dərindən öyrənməyə çalışmış, bu yolda uğur qazanmağa çalışmış, əsl natiqə çevrilmişdir. Müasirləri bildirirdi ki, çıxış edərkən çox təsirli, insanın daxilinə nüfuz edən, onu valeh edən bir nitqə sahib idi. Həcc ziyarətindən qayıtdıqdan sonra onsuz da yüksək olan nüfuzu daha da artmış, gerçək bir liderə çevrilmişdir. Başına Həccdə olduğunu göstərən yaşıl zolaqlı ağ papaq qoyan Hacı Murtuz tükənməz enerjisi, dəmir iradəsi, hüdudsuz cəsarəti və qorxmazlığı ilə hamını heyran edirdi.

Beləliklə, ətraf kəndlərdə də böyük nüfuz sahibi olan bu şəxsin keçmişdə hərbçi olması, hərbi işi yaxşı bilməsi bölgəyə sürgün olunan polyaklar arasında da sevilib, sayılıb-seçilməsinə səbəb olmuşdur. Odur ki, Sığnax və Laqodexiyə sürgün edilmiş istefada olan polyak zabitləri və Zaqataladakı polyaklar da Hacı Murtuzla əlaqə saxlayır, rus ordusunun bölgədəki hərəkəti, təchizatı ilə bağlı məlumatları ona çatdırırdılar.

Şamilin rəhbərlik etdiyi hərəkat məğlubiyyətə uğradıqdan sonra bütün Qafqazda 1863-cü ildə Hacı Murtuzun rəhbərliyi ilə baş vermiş üsyan ən böyük üsyan oldu. Üsyanın başlanacağı ərəfədə Hacı Murtuz müqəddəs savaşda şəhidliyin, ölümə hazır olmanın simgəsi kimi ağ paltar – kəfən geyinmişdir. Ən təsirli məqamlardan biri bu idi ki, üsyana qoşulan polyaklardan bəziləri də yerlilərlə həmrəyliyini göstərmək, azadlıq üçün ölümə hazır olduğunu bildirmək üçün “Polşanın və Qafqazın azadlığı naminə” deyərək, ağ kəfən geyinərək döyüşə atılmışdılar.

---

[23] Mirəli Seyidov. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 1983, s.36-37.

Qalaya hücum zamanı və qızğın döyüşlərin getdiyi vaxt qala rəhbərliyinin əmri ilə qala ətrafındakı evlərin bayır qapıları bərk-bərk bağlanmışdı.

Qalaya hücum edənlər qaladan atılan top atəşləri nəticəsində geri çəkilir, müdafiə mövqeyi qurmaq istəyən zaman yalnız yaxınlıqdakı polyak kilsəsinin – kostelin dini rəhbəri kilsənin qapılarını açır, çardaqda və binanın pəncərələrində atəş nöqtəsi quraraq, ruslara qarşı vuruşmağa şərait yaradır...

Son anda bölgənin azadlıq qəhrəmanlarına qucaq açan polyak kilsəsi olmuşdu. Hərbçisi ilə, din xadimi ilə polyaklar azadlıqsevər idilər və Zaqataladakı üsyanda, ölüm-dirim savaşında bizimlə bərabər öndə durdular. Həmin dövrdə Polşada da yeni üsyan dalğası başlamışdı. Bu səbədən Qafqaz canişini də R.A.Fadeyevə Zaqatalada "polyak izi" axtarmağı tapşırmışdı. Rusiyanın Cənubi Qafqazdakı hökumət nümayəndələri duyuq düşmüşdülər ki, Gürcüstanın Sığnax və Laqodexi ərzisindəki polyakların da 1863-cü ildə Zaqatalada baş verən üsyanla sıx əlaqəsi olub.

Laqodexiyə sürgün olunmuş polşalı Lüdviq Mokoseviç rus ordusu barədə əldə etdiyi bütün məlumatları Hacı Murtuza çatdırdı və üsyançılar buna uyğun plan qurdu: Gürcüstandan Zaqatala qalasındakı ruslara köməyə gələcək əsgərləri ləngitmək üçün Qanıx çayı üzərindəki körpü dağıdılmış, köməyə gələn əsgərlərin bir çoxu döyüşdə öldürülmüşdü.

Polkovnik F.A.Romanov həyəcanla "yuxarılara" bildirirdi ki, Zaqatalaya sürgün edilmiş polyaklar üsyançıların qalib gələcəyi, qalanı tutacağı anı böyük səbrsizliklə gözləyirdilər. Yuxarıda adı qeyd edilən F.A.Romanovun tapşırığına əsasən şəhərdəki bir çox ailələr, o cümlədən ermənilər öz evlərinin qapılarını möhkəm palıd taxta ilə bərkidib bağlayaraq, qalanın içində yerləşdirilmişdilər. Buradan və daha öncə sadaladığımız faktlardan görünür ki, bu mübarizədə Cənubi Qafqaza sürgün edilmiş polyaklar yerli üsyançıların ən yaxın və sədaqətli dostu, müttəfiqi olmuşdur.

Qeyd etmək yerinə düşərdi ki, Çar Rusiyası Şamili ələ keçirdikdən sonra bütün Qafqazın işğal edildiyini düşünürdü. Lakin Zaqatalada baş verən və bütün bölgəyə yayılan üsyan bütün Rusiyanı vəlvələyə salmışdı. Qaladakılar ələ keçirdikləri, əhalidən taladıqları hər şeyi, xüsusilə Zaqatala qalası kimi vacib strateji mövqeyi qorumaq üçün hər cür vəhşiliyə əl atırdılar. 1863-cü ilin iyunun 5-də səhər tezdən Hacı Murtuzun rəhbərlik etdiyi üsyançılar Zaqatala qalasına hücumə başlamışdı. Tintin Mahamanın dəstəsi isə Qanıx çayını keçərək qalaya barıt və digər hərbi sursat gətirən rus əsgərlərinin qarşısını almalıydı. Təəssüf ki, üsyançılar arasında ələ alınmış xainin olması üsyana çöx böyük zərbə vurdu: qaladakı rus əsgərləri qarşılayıcı tədbirlər gördü. Üsyançılar amansızcasına top atəşi ilə qırğına verildi, qan su yerinə axıdıldı...

Üsyanı yatırmaq üçün Zaqatala dairəsinə yeddi general səfərbər edilmişdi. Müasirlərinin qeyd etdiyinə görə tarix boyu bu vaxtadək Qafqazda belə kiçik bir əraziyə bu qədər general toplanmamışdı. Generallar R.A.Fadayev, A.P.Kartsev, N.N.Karmalin, F.F.Radetskoy, knyaz Andronikov, knyas Orbeliani və knyaz L.İ.Məlikov Zaqatalaya səfərbər edilmişdilər. İmperator II Aleksandrın əmri ilə general-leytenant Rostislav Andreyeviç Fadeyevin rəhbərlik etdiyi komissiya Zaqatala dairəsində xüsusi cəza tədbirləri görürdü. Çar hökuməti tərəfindən bura göndərilən Dağıstan milis dəstəsinə Levon Məlikov komandanlıq edirdi. Bu milis dəstəsinin burada həyata keçirdiyi qarət və talanlar hətta rusları belə təəccübləndirmişdi. R.A.Fadeyev kimi qəddar bir rus generalı Balakənin kiçik bir kəndində əhalidən mindən çox öküzün zorla alındığını, Levon Məlikovun komandanı olduğu Dağıstan milisinin törətdiyi vəhşiliyinin həddi-hüdudu, əndazəsi olmadığını yazırdı.

Nəhayət, üsyan yatırılır və üsyanın ən fəal iştirakçılarından on doqquz nəfəri dar ağacından asılır, iştirakçılardan mindən çoxu ailəsi ilə birlikdə sürgün edilir.

“Əhalinin bir hissəsi isə təqibdən yaxa qurtarmaq üçün Dağıstan və Osmanlı İmperiyasına mühacirət etmyə məcbur olur” [24].

Bölgəni nəzarətdə saxlamaq üçün Zaqatala dairəsi birbaşa Qafqaz canişininə tabe etdirilmiş, dairə rəisinə çox böyük səlahiyyətlər verilmişdi. O, iğtişaşlar zamanı hətta ölüm hökmü verə bilərdi. Bütün bunlara baxmayaraq, çarizm zorakı xristianlaşdırma siyasətindən imtina etməyə məcbur oldu. Hətta 1863-1865-ci illər geri, müsəlmanlığa qayıtmaq istəyən xristianlar üçün “sərbəst illər” elan edilir, zorakılıq üzündən xristianlığı qəbul edən bir çox ailələr geri, İslam dininə qayıdırlar.

## 2.3. İşğala qarşı yeni üsyanlar dalğası

Bölgədə yenidən iğtişaş və üsyanın baş verməsindən qorxan hökumət Zaqatala dairəsindəki kilsə məktəblərini bağlayır və Balakəndə tikilməsi nəzərdə tutulan kilsənin tikintisi dayandırılır [25].

Bütün bu görülən tədbirlərə baxmayaraq, Zaqatala-Balakən bölgəsində hökumətdən narazılıqlar, üsyanlar davam edirdi. Bu dövrdə baş verən etiraz və üsyanlar içərisində 1877-ci ildə baş verən üsyan daha geniş əraziyə yayılmışdı. İlisu, Sarıbaş, Qaşqaçay, Ləkit-Kötüklü, Muxax, Katex, Balakən, Yuxarı Göynük tam üsyan ab-havasında idi.

Artıq XX yüzilliyin əvvəllərində bölgədə üsyanın əsas mərkəzlərindən biri Qabaqçöl kəndi idi.

Burada Çar hökumətinə qarşı çıxış edən silahlı dəstə üzvlərindən Osman Osman oğlu və Qaçaq Yusif həbs edilərək Sibirə sürgün edilir. Hətta onun qardaşları və digər yaxınları da 5 il müddətinə Sibirə sürgün olunmuşdu.

Öz kəndindən sürgün edilməsi barədə hökumətin qərarı Qaçaq Yusifi daha da qəzəbləndirmiş, daha üsyankar etmişdi.

---

[24] Şimal-Qərbi Azərbaycan tarixi, Bakı, 2011, s.295.

[25] Azərbaycan Respublikasının Dövlət Tarix Arxivi (ARDTA), fond 579, s.1, iş 3, v.16.

Şambullu İmammirzə, Şeyx Məhəmməd, Əziz Molla İbrahim oğlu da Yusifə qoşulur və üsyan daha da alovlanır [26].

1904-cü ildə Qaçaq Yusif və İmammirzə o zaman Osmanlı dövlətinə (Türkiyəyə) köçən köçkünlər dəstəsinin tərkibində Türkiyəyə keçir, oradan da Məkkəyə Həcc ziyarətinə gedirlər. Həcc ziyarətində olması dinə çox bağlı olan bölgə insanları arasında Qaçaq Yusifin nüfuzunu daha da artırdı. Bundan narahat olan yerli hökumət vəziyyət barədə canişinə məlumat verir. Qafqaz canişini Yusifin başına min rubl pul qoyur ki, ona qarşı göndərilən hökumət əsgərləri daha da həvəslənib, o dövr üçün yetərincə böyük pul olan min rublu əldə etmək üçün Yusifi öldürməyə çalışsınlar. Bununla da yetinməyən bölgədəki rus hökumət dairələri Qaçaq Yusifin yaxın qohumlarını həbs edir, kəndlilər üzərinə ağır vergilər qoyur, cərimələr ödədirdilər.

Rus hökumət dairələri İmammirzə, Məhəmməd Əli oğlu və Əzizin hərəsinin başı üçün min rubl, qaçaqlardan başqa birisi – Kartuli Qurbanın başı üçün isə dörd yüz rubl mükafat vəd etmişdilər [27].

1907-ci il avqustun 12-də Balakənin Kasbinə kəndində baş verən döyüşdə Kartuli Qurban, sentyabrın 16-da Qabaqçöldə baş verən döyüşdə isə İmammirzə öldürüldü [28].

Beləliklə, Car-Balakənin işğalından yüz il keçməsinə baxmayaraq, çarizmin bölgədəki hakimiyyət orqanları hələ də bölgəni (Şimal-Qərbi Azərbaycanı) istədikləri kimi idarə etməkdə çətinlik çəkir, bölgə insanlarının öz dininə, doğma el-obasına, minilliklərdən süzülüb gələn adət-ənənəsinə bağlılığını azalda, onların inancını, imanını öldürə bilmədi.

---

[26] ARDTA f.125, s.1, iş 216, v.90.

[27] Асланов А.Х. Из истории крестьянского движения в Азербайджане в начале XX века. Известия АН Аз. ССР, серия истории, философии и права, 1985, № 1, с.50.

[28] ARDTA f.125, s.1, iş 218, v.233

## 2.4. İşğala, zorakı xristianlaşdırmaya qarşı mübarizə

Şimal-Qərbi Azərbaycan tarixi, təbiəti və əhalisinin zəngin etnik tərkibi ilə, adət-ənənəsi və öz yaşam tərzi ilə təkrarsız bir bölgə, açıq təbiət muzeyidir. Yüzilliklər boyu öz yaşam tərzini, adət-ənənəsini qoruyan bu insanları bir arada tutan, onların birliyini qoruyan amil, onların İslam dininə, xüsusilə də bölgədə geniş yayılmış Nəqşbəndi təriqətinə bağlılıqları olmuşdur. Bununla bağlı görkəmli tədqiqatçı Vəli Xuluflu qeyd etmişdi: "Caru-Talada İslam dini çox nəhəng rol oynayır. Burada İslam məişətin, əxlaqın, adət-ənənənin bütün sahələrinə nüfuz etmişdir. İslam Caru-Talada əhalini səfərbər edən əsas amildir [29].

Biz irəlidə Car-Tala, sonralar car-Balakən camaatlığının həyatında önəmli rol oynayan "Qanunnamə" ilə tanış olacağıq. Bu "Qanunnamə" 1752-ci ildə Zaqatalanın Tala kəndində yerləşən "Ağdamçöl" adlanan ərazidə, bölgə əhalisinin Ali qanunverici orqanı hesab edilən "Xalq yığıncağı"nda qəbul edilmişdi.

İslamın şəriət qayda-qanunlarına uyğun tərtib edilən bu "Qanunnamə", İslam dininin bölgə insanlarının həyatında nə qədər önəmli rol oynadığını göstərirdi. Burada insanların həyat tərzinə çevrilmiş İslam, yeri gələndə bölgədəki müxtəlif xalqları düşmənə qarşı vahid cəbhədə birləşdirən ideologiyaya çevrilirdi. Bölgədə XIX yüzilliyin ortalarından etibarən Rusiyanın apardığı zorakı xristianlaşdırmaya qarşı mübarizədə İslam dininin burada formalaşıb, geniş yayılmış sufi məktəbləri bir ideoloji sistem yaratmış, ən qısa zaman kəsiyində bu məktəb və mədrəsələrin tələbələri düşmənə qarşı hərbi intizamlı fədailərə çevrilirdilər. Şimal-Qərbi Azərbaycanda sufiliyin Nəqşbəndi qolu daha geniş yayılmış, əhali arasında çox böyük rəğbət qazanmışdı. Çünki bu ideyanın təmsilçiləri olan Şeyxlər öz davranışları, sərgilədikləri nümunəvi, gözəl əməlləri, xeyirxahlıq-

---

[29] Xuluflu V. Car döyüşləri salnamələri, (Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu nəşri) Bakı, 1934, s.3.

ları ilə sadə camaatın qəlbinə yol tapa bilmişdilər. Bu təriqətin gücü nədə idi?

Nəqşbəndilik XIV yüzillikdə Buxarada Nəqşbəndi Bahəddin tərəfindən yaradılıb, sufiliyin cərəyanlarından biridir. 1318-1383-cü illərdə yaşamış Nəqşbəndi Bahəddin Səid Məhəmməd ibn Cəlaləddin islamı saflaşdırmaq, yəni Məhəmməd Peyğəmbərin dediklərinə və hərəkətlərinə, yalnız Quranda buyrulanlara əməl etməklə İslamı ilkin-saf vəziyyətinə qaytarmaq ideyasını irəli sürüb [30].

Nəqşbəndiliyin digər sufilərdən ciddi fərqi bu idi ki, o, ehsan, sədəqə hesabına deyil, yalnız öz halal zəhməti hesabına yaşamağı təbliğ edirdi və bu cür sadə həyat tərzi isə sadə əhali tərəfindən böyük sevgi və rəğbətlə qarşılanırdı. O özü əvvəlcə əkinçiliklə məşğul olmuş, sonralar isə ipək parçalara, metal qablara naxış vurmaqla məşğul olduğu üçün "Nəqşbəndi" ləqəbini almışdı. Nəqşbəndilər bütün varlığa, xüsusilə "insana məhəbbət" ideyasını, İslamın "sülh dini" olduğunu təbliğ edirdilər.

Tədqiqatçı Məşədixanım Nemətova "Azərbaycan pirləri" adlı əsərində qismən də olsa Şimal-Qərbi Azərbaycanda Nəqşbəndi Şeyx və müridlərinin məzar daşlarını tədqiq etmiş, bir çoxunu ilk dəfə aşkar etmişdir [31].

Təkcə tədqiqata cəlb edilən bölgədə deyil, bütün "Qafqazda geniş yayılmış nəqşbəndilik rus işğalına qarşı mübarizədə ideya silahına – hərbi dini ordenə çevrilmişdi" [32].

İslam-şərq fəlsəfəsində şəriət və təriqət İslamın ayrılmaz hissələri, təriqət isə həqiqətə gedən yol hesab edilir. Burada ən qədim dövrlərdən bəri Şərq fəlsəfəsindəki "təmizlənmək, paklanmaq" üçün dünyanın maddi nemətlərindən könüllü imtina etmək fikri önəmli yer tutur.

---

[30] Məmmədli A, Balakən-Zaqatala bölgəsi: tarixi, etnoqrafiyası, Bakı, 2001, s.18.

[31] Nemətova M. Azərbaycan pirləri, Bakı, 1992, s.99.

[32] ASE, VII cild, Bakı, 1983, s.220.

Bölgənin XIX yüzillikdəki tarixində önəmli rol oynayan mədrəsələrini, dini və elmi mühitini araşdıran görkəmli islamşünas alim Ə.Niyazov özünün "XIX əsr Azərbaycanın Şimal-Qərbində (Qanıx-Həftəran vadisi) dini həyat, elm və mədrəsələr" adlı əsərində bu məsələyə xüsusi diqqət yetirmişdir [33].

Qeyd etmək yerinə düşər ki, hətta Sovet hakimiyyətinin tüğyan etdiyi illərdə belə, bölgə insanlarını dindən və dini təhsildən ayıra bilməmişlər. Gənc tədqiqatçı E.Zamanov belə bir faktı tədqiqat zamanı üzə çıxarmışdır ki, "...1933-cü ildə Zaqatala və Balkən rayonlarında bir neçə gizli mədrəsə fəaliyyət göstərmişdir" [34].

Bölgədə sufiliyin Nəqşbəndi qolu İsmail Şirvani Kürdəmiri ilə başlamış və Almalı Mahmud Əfəndinin simasınada özünün ən yüksək inkişaf mərhələsinə çatmışdı.

Şimal-Qərbi Azərbaycanın sosial-siyasi, elmi-mədəni həyatının XIX əsr mərhələsini araşdıran Ə.Niyazov bölgədə fəaliyyət göstərsə də, öz fəlsəfi görüşlərini bütün Qafqaza, hətta Şərq ölkələrinə yaya bilmiş Nəqşbəndi Şeyxlərinin şəcərəsini açaraq, elmi ictimaiyyətə təqdim etmişdir. Qandaxlı (Zaqatalanın kəndi - M.A) Hafiz Şueyb Əfəndi Baqinin "Nəqşbəndiyyə silsiləsinin bəyanı" adlı qəsidəsində açıqlanan şəcərəni tədqiqatçı alim Ə.Niyazov tam açıqlığa qovuşdurmuşdur [35].

İsmail Siracəddin Şirvani Kürdəmiri, Yəhya bəy Qutqaşeni, Lələli Yunus Əfəndi, Almalı Mahmud Əfəndi, Talalı Əhməd Əfəndi; Mahmud Əfəndi və Talalı Əhməd Əfəndi ilə şaxələnən xəlifələr Şirvanidən sonra sufiliyin ən geniş yayılan qolunu ərsəyə gətirmişlər.

Sovet hakimiyyətinin amansız cəza tədbirlərinə, kütləvi terrorlarına baxmayaraq, Talalı Əhməd Əfəndidən sonra Qan-

---

[33] Niyazov Ə. XIX əsr Azərbaycanın Şimal-Qərbində (Qanıx-Həftəran vadisi) dini həyat, elm və mədrəsələr, Bakı, 2016, s.

[34] Zamanov E. Sovet Sosialist Respublikaları dövründə təhsil və din, Bakı İslam Universiteti Elmi Məcmuəsi, №12-2017, s.268.

[35] Niyazov Ə. Gösrərilən əsəri, s.16.

daxlı Hafiz Şueyb Əfəndi Baqi, Cəlisullah Hacyov Əfəndi və Nasuh Əfəndi Muxaxlının simasında bu sufi cərəyanı, onun elm və irfan məktəbləri öz fəaliyyətlərini davam etdirmişlər.

Ə.Niyazovun gərgin əməyi nəticəsində uzun zaman məqsədli şəkildə diqqətdən kənarda "saxlanılmış" daha bir məsələ aydınlığa qovuşmuşdur. Bu, 1863-cü il Rusiyanın zorakı xristianlaşdırma siyasətinə qarşı baş vermiş üsyanın ideoloji əsasını təşkil edən "zikrçilik" ("cazbə") hərəkatı idi.

"Zikrçilik" yerli əhali arasında "cazba", "cazbə" adlanırdı və öz tarixi, milli-mənəvi dəyərlərini, öz adət-ənənəsini qorumaq üçün bölgə insanlarını vahid ideya ətrafında birləşdirmiş, düşmənə qarşı mübarizədə səfərbər etmiş, insanlar arasında ruhi, əxlaqi və dini birlik yaratmışdır.

Zaqatala dairəsində Şeyx Zəngi Əfəndi və Şeyx Burca Əlinin, İmam Hacı Murtuzun rəhbərliyi altında "zikrçilik" hərəkatı Rusiya işğalına qarşı çox güclü ideoloji silaha çevrilmişdi. Bu hərəkatın nə qədər böyük təsirə malik olduğunu 1863-cü il üsyanı zamanı görmüş və bundan ətraflı bəhs etmişdik.

Burada, digər sufi cərəyanlarında olduğu kimi, mürid-mürşid münasibətləri ən yüksək səviyyədə idi. Ustadına, müəlliminə-mürşidinə, dini rəhbəri olan imamına bağlılıq "Yaradana bağlılıq üçün bir vəsilə" hesab olunurdu. Odur ki, bu münasibət çox ciddi qorunur, intizam və mürşidə hörmət, Allaha qovuşmaq üçün zikr etmək çox vacib şərtlərdən idi. Haqq olan Allahı dərk etmək üçün qəlbindəki bütün fikirlərdən, bütün maddi olan "dünya malından xilas olmalı", özünü buna hazırlamaq üçün daxilən toparlanmalı, bütün varlığını yalnız hər şeyin yaradanı və sahibi olan Allahı düşünməyə yönəldilməli idi [36].

Beləliklə, bölgədə Nəqşbəndi Şeyxləri, dini başçı olan İmam çox böyük ictimai nüfuza malik şəxs idi. Odur ki, hətta

---

[36] Məmmədli A. Balakən-Zaqatala bölgəsi: tarixi, etnoqrafiyası, Bakı, 2001, s.20-21.

yerli hakimiyyət nümayəndələri də onunla hesablaşmalı olur, bəzən bu təriqət liderlərinin, Nəqşbəndi Şeyxlərinin yaratdığı Dərgaha, Mədrəsəyə böyük torpaq sahələri, mülklər bağışlayırdılar. Bu isə həm təriqət lideri olan Şeyxin, həm də onun Dərgahının, Mədrəsəsinin nüfuzunu daha da artırırdı. Nüfuzu ətraf bölgələrə, hətta başqa ölkələrə yayılan Dərgah və Mədrəsələrə hər yerdən gələnlər olur, burada dövrünün dini-fəlsəfi, elmi bilgilərinə sahib olan alimlərin müzakirə və mübahisələri olurdu.

XVIII-XIX yüzilliklərdə Qoloda, Car və Katexdəki, Almalı Mahmud Əfəndinin Nəqşbəndilərə liderlik etdiyi dövrdə Qaxın Almalı, İlisu, Ləkit, Zaqatalanın Qandax, Balakənin Katex, Talalar kəndlərində (o zaman kənd deyil, “tabun” ifadəsi işlədilirdi - M.A) belə mədrəsələr mövcud olmuşdur[37].

Bu məsələ ilə bağlı bəzi tədqiqatçıların əsərlərində müəyyən epizodlar işıqlandırılsa da, fundamental tədqiqat mərhum M.Nemətovaya, hazırkı dövrdə isə Ə.Niyazova məxsusdur [38;39].

Haşiyəyə çıxaraq qeyd etmək yerinə düşərdi ki, XIII-XIV yüzillikdən etibarən Şimal-Qərbi Azərbaycan sufi dərviş və təriqət adamlarının bir araya gəldiyi mübarək məkanlardan birinə çevrilmişdi. Böyük Sufi şairi Yunis Əmrənin və mürşidi Tapdıq Əmrənin, onların bir çox davamçılarının məzarlarının da bu bölgədə olması, Yunis Əmrənin ilahələrinin bölgə insanları tərəfindən çox sevilərək, “Mövlud” məclislərində oxunması da dediyimizin bir sübutudur.

Gənc tədqiqatçı Z.Orucov Mirzəxan bin Məlik Bünyad Salbaninin məktub və yazışmalarında Balakənin Salban mədrəsəsində ərəb əlifbası ilə türkcə yazılmış “Nəsimi divanı”ndan istifadə edildiyi barədə məlumat verir. AMEA Əlyazmalar

---

[37] Məmmədli A. Azərbaycanın Şimal-Qərb bölgəsinin tarixi abidələri, Bakı, 2013, s.146-156.

[38] Nemətova M. Azərbaycan pirləri, Bakı, 1992,

[39] Niyazov Ə. Göstərilən əsəri.

İnstitutunun şöbə rəhbəri olan Z.Orucov, burada bütün mədrəsələrdə məşhur "İsaqoçi" kitabından da geniş istifadə edildiyini qeyd edir. Bu əsər məntiq elminə həsr olunub və yunan Furfuriyus bu əsəri Aristotelin məntiqə dair "Kateqoriyalar" əsərinə izah üçün yazmışdır. Əsər 1292-ci ildə Əhməd Fuad tərəfindən türkcəyə tərcümə edilmişdir [40].

Son dərəcə diqqət çəkən məqamlardan biri budur ki, XIX yüzilliyin birinci yarısında bölgəyə gələn Avropa səyyahları, hətta rus səyyah və tədqiqatçıları da Zaqatala dairəsindəki müsəlman əhalinin dövrünə görə daha savadlı olduğunu yazırdılar.

Həmin dövrdə Rusiya hökumət dairələrinin tapşırığı ilə bölgənin coğrafi, təbii mövqeyini, əhalisini araşdırmağa çalışan Fon Plotto qeyd edirdi ki, onlar (bölgənin müsəlman əhalisi) Kaxetiya kəndlilərindən daha yüksək mənəvi və əqli səviyyəyə malik idilər [41].

Bu, bölgəni işğal etmiş Rusiya imperiyasının bölgədə olmuş təhsilli, ziyalı insanlarının etirafı idi. Bununla da onilliklər boyu Rusiyanın guya Qafqaza "mədəniyyət, elm və təhsil gətirdiyi" barədə aparılan Sovet təbliğatının yalan olduğunu ortaya çıxmış oldu.

Kaxetiyanın (Gürcüstanın) tədqiq olunan Zaqatala dairəsindən daha iyirmi il əvvəl Rusiyaya qatıldığını bilirik (1783-cü ildə Georgiyevsk müqaviləsi ilə). Əgər doğrudan da Rusiya getdiyi-tutduğu yerə mədəniyyət, elm və təhsil gətirirdisə, bəs Kaxetiyaya niyə gətirməmişdi ki, Fonn Plotto onillər sonra yazırdı ki, "Zaqatala dairəsinin əhalisi Kaxetiya kəndlilərindən daha yüksək mənəvi və əqli səviyyəyə malik idilər..."

Əgər Balakənin bölgədə tədqiqata ən az cəlb edilən yer olduğunu nəzərə alsaq, bununla belə, tədqiqatçı Z.Orucov, görkəmli ilahiyyatçı alim Ə.Niyazov, tədqiqatçı jurnalist M.Şa-

---

[40] Porphyrios, Isaqoji (trc. Hamdi Ragip Atademir, Konya, 1948, ISAGOCI – TDV Islam Ansiklopedisi. https://islamansiklopedisi.orq.tr/Isaguci.

[41] Фон Плотто А. И. Природа и люди Закатальского округа, Сборник сведений о кавказских горцах. Тифлис, 1869, вып.IV, с.67.

banoğlu və gənc ərəbşünas alimlər Ə.Sultanov və E.Zamanov tərəfindən gün işığına çıxarılan əlyazmalar, epiqrafik nümunələr XVIII-XIX yüzilliklərdə və XX yüzilliyin ortalarınadək Balakəndə bir neçə məktəb və mədrəsənin olduğunu, çoxlu böyük elm-irfan sahibi olan alimin yetişdiyini deməyə əsas verir.

Yuxarıda adları qeyd olunan aydınlarımızla birlikdə Katex kəndində Ömər ibn Məhəmməd Əl Kaxetiyə aid bir neçə elmi-fəlsəfi, məntiq, hüquq, qrammatika, şəriət elmlərinə aid əlyazma kitablar aşkar etmiş və onların kataloqunu hazırlamışdıq. (şəkil 39)

Balakəndə yaşlı nəslin nümayəndələri Molla Məhəmməd əl-Balakəni və onun atası Molla Abdulla əl-Balakəni və onun da atası Hacı Molla Bayram dövrünün çox böyük nüfuz sahibi, əxlaqi keyfiyyətləri ilə hər kəsə nümunə olan böyük alimlər, sadə möminlər olmuşdur. Təəssüf ki, "araşdırmaq", "istifadə edib qaytarmaq" adı ilə bu ailədən aparılan onlarla (bəlkə də yüzlərlə - M.A) nadir əlyazma kitablar qaytarılmamışdır [42].

1930-cu ildə Sibirə sürgün edilən Molla Məhəmməd ibn Abdulla əl-Balakəni (1885-1967-ci illərdə yaşamışdır) sürgündən qayıtdıqdan sonra el arasında "Qaltan Məscid" adlanan məsciddə məktəb açmış, "suxtalara" dərs demişdir [32].

Tədqiqatçılarla aparılan müzakirələrdən belə məlum oldu ki, mədrəsədən daha üst səviyyədə təhsil alanlara bölgəmizdə "suxta" deyilirdi. Burada təhsil alanlar, aldıqları şəhadətnamə ilə daha məşhur universitetlərdə oxuya bilirdilər. Mustafa Alkan adlı türkiyəli tədqiqatçı "Suhta maddesi" adlı əsərində yazır: "Suhte ve ya Softalar "mukaddimat-ı ulum"(mebani-i ulum) denilen Arapca sarf, nahiv, mantık ve adabu-l-bahs gibi muhtasarat derslerini okuduktan sonra müderristen aldıkları başarı belgesiyle bir üst medreseye devam ederdiler. Bundan sonra sırasıyla haşiye-i Tecrid, miftah, kırklı ve ellili (haric ve dahil) medreselerdeki ögrenimlerini üç yıl gibi bir sürede ta-

---

[42] İnformator: Abdullayev Yəhya Məhəmməd oğlu, 1936-ci ildə anadan olub.

mamlayınca Sahn-ı Seman Medresesine girerek danişmend olurlardı. Tecrübe sahibi danişmendler (muid) aynı zamanda softalara ders okuturdu [43].

Fateh Sultan Məhəmməd dövründə suxtaların təhsil aldığı mədrəsələr Osmanlı coğrafiyasında ən geniş yayılmış mədrəsələr idi. Görkəmli tədqiqatçı Ə.Niyazova görə Osmanlıda orta dərəcəli bu cür mədrəsələr Qafqazda "üst dərəcəli" idi.

Katexdə, Tülü və Talalarda bir neçə mədrəsə var idisə və bu mədrəsələrdə onlarla tələbə vardırsa, bölgə insanları elmi və əqli cəhətdən savadlı, elmli hesab edilə bilər. Təsadüfi deyil ki, bölgədəki yaşlı sakinlərin sandığından, köhnə evlərin və məscidlərin çardağından onlarla, hətta yüzlərlə dini, elmi əsərlər – əlyazma kitablar tapılır.

Təbii ki, savadlı, elmli insanlar, xüsusilə İslamın, sufi fəlsəfəsinin bilicisi olan insanlar öz el-obasına, Vətəninə, qədim örf-adətinə çox bağlanır, Allahın insana bəxş etdiyi azadlığın aşiqi olur və bunun qorunması üçün yenilməz iradə nümayiş etdirirdi.

Rusiya imperiyası bölgəni işğal etmək üçün onillər boyu qansız* müharibələr aparmalı olmuş və bu savaşda bölgə insanının əsas silahı sahib olduğu elmi, dini-fəlsəfi bilgilər, minilliklər boyu mövcud olmuş milli-mənəvi, əxlaqi dəyərlər olmuşdu.

Buradakı insanların yenilməz iradəsinin, cəsarətinin qaynağının mədrəsələrdə olduğunu öyrənən hökumət dairələri hər yerdə gizli casuslar yerləşdirir, elm-irfan sahiblərini izlədir, bu mədrəsələri bağlamaq üçün "fakt" toplayırdılar.

Daha öncə adını zikr etdiyimiz Molla Məhəmməd ibn Abdulla əl-Balakəninin babası, XIX yüzilliyin ortalarında bölgənin nüfuzlu şəxslərindən biri olan Molla Bayram Şeyx Şa-

---

[43] Mustafa Alkan. Suhta maddesi, TDV İslam Ansiklopedisi, İstanbul, 2009, cilt 37, s.342-343.

millə əlaqə yaratmış, onun müridləri ilə birləşib "Balakəndəki camaata zülm edən, rus əsgərlərini bir gecədə qırmışdı" [44].

Balakəndə yerləşdirilmiş rus əsgərləri özbaşınalıq edir, camaatın mal-qarasını talayır, qız-gəlinə sataşırdılar... Ona görə də camaat Molla Bayrama dərdini danışmış, ondan məsləhət, kömək istəmişdi. Molla Bayram isə Şamillə əlaqə yaratmış, onunla birləşərək, buradakı rusların çoxunu məhv etmişdi.

1885-ci ildə anadan olmuş, 1967-ci ildə vəfat etmiş Molla Məhəmməd Abdulla oğlunun yetişdirdiyi alimlərdən, onun tələbəsi olanlardan bir qisminin adlarını müəyyən edə bildik:

Məmməd Camaldin, Hacı Murtuzəli, Kazım Nəcməddin, Cerçi Nurullah (uzun müddət İordaniyada yaşamışdır - M.A), Ocaqverdi Bahaddin, Gözbaraxlı Osman Əfəndi, Balay Abakər, Hədis Əli, Ramazan Hacıyov, Hasan Abdulməcid, Murtuzəli Musayev və Xəmməd İsmixan ...

1863-cü il üsyanı bu proseslərin ən yüksək nöqtəsi olmuşdu. Üsyanı qan içində boğsa da, üsyançıları və üsyanla əlaqəsi olan hər kəsi uzaq Sibirə sürgün etsə də, Rusiyanın hakim dairələri güzəştə getməli olmuş, bir növ bölgə insanlarının dini azadlığını tanımağa məcbur olmuşdu. Hətta yeni məscidlərin tikilməsinə mane olmaqdan çəkinmişdi. Nəticədə, bölgənin ən hündür və ən nadir minarələrindən olan Balakən Cümə məscidi, Zaqatalada oxşar minarəsi olan Mosul məscidi tikildi. (şəkil 10, 12)

Əliabadda, Qaracılıda, Qayvalıda, İtitalada və Talada da dövrünün mükəmməl İslam memarlıq abidəsi olan məscidlər inşa edildi. (şəkil 9, 11, 13, 15)

Bu dövrdə bölgəyə xas olan, başqa yerlərdə rastlanmayan bir İslam memarlıq nümunəsi olan "namazqılan"lar inşa edilməyə başlanmışdı. Gözəl bir çeşmənin yanında, yaxud təmiz sulu bir arx üzərində, kiçik çay kənarında dörd dairəvi sütun üzərində kirəmitli çardağı olan namazqılanlar adətən yolların

---

[44] Məlumat Molla Bayramın nəticəsi Abdullayev Yəhya Molla Məhəmməd oğlundan alınmışdır.

kəsişdiyi yerlərdə, el arasında deyildiyi kimi “dömbələrdə” inşa edilir, bura yolçular üçün namaz qılınan, həm günəşdən, yağışdan daldalanan yer, həm də yaşlıların, sufilərin görüşüb həmsöhbət olduğu yer idi. Belə namazqılanların son nümunələri Katex, Püştətala-Kortala, Beret-Uzuntala yolunda, çay sahilində, Qazma (Bedeğar) kəndində yaxın illərədək qalmaqda idi. Hər birinin öz kitabəsi – epiqrafika nümunəsi olurdu. Təəssüf ki, bu cür qiymətli tarixi abidələrin çoxu (o cümlədən Püştətala və Hənifə kəndlərindəki tarixi məscidlər də (Hənifədəki məscid binası M.N adlı şəxs tərəfindən dağıtdırılıb)) cahil, yaxud ucuz şöhrət axtaran soydaşlarımız tərəfindən dağıdılmışdır...

Bedeğar namazqılanının kitabəsi: “Bu namazqılanı Hacı Xəlil oğlu Lələ tikmişdir”.

Qədim kitabların bərpaçı və cildçisi, xəttat Z.Orucovla Molla Məhəmməd əl-Balakəniyə aid əlyazmaları araşdırarkən kitablardan birinin içərisində yazılmış qeydlər:

1. “Bu kitab tələbə Molla Şərifdən tələbə Abdullah oğlu Məhəmməd əl-Balakəni ət-Talaliyə hədiyyədir. Hicri 1332-ci il, Məhərrəm ayı”.
2. Başqa bir kitabdakı qeyd: “Allah Təalanın rəhmətinə möhtac olan tələbə Əhməddən Məhəmməd ibn Abdullah ət-Talalı əl-Balakəniyə”.
3. “Hicri 1326-cı ildə Məhəmməd ibn Molla Abdullah əl-Balakəninin müəllimi İsrafil əl-Kələvinin yanında köçürdüyü” əlyazma kitabdır. Kitab ərəb dilinin qrammatikasına aiddir.

Yuxarıda, birinci əlyazma kitabı Molla Məhəmmədə bağışlayan tələbə Molla Şərif 1920-1930-cu illərdə bölgədə baş verən ictimai-siyasi proseslərdə ciddi rolu olan Qazıyev Molla Şərifdir ki, bu şəxs öz elmi biliyi, zəhmətkeşliyi, ağıllı məsləhət və ədalətli davranışı ilə Hənifə kəndində, Balakəndə və bütün ətraf kəndlərdə çox böyük nüfuz qazanmışdı [45].

---

[45] Məmmədli A. Tarixin yaddaşı: “Qırmızı bataqlıqda yaşıl ruhlar”, Bakı, 1994, s.27-33.

Kolxozlaşma dövründə (1927-1933) sadə camaatı müdafiə etdiyinə, NKVD işçilərinə tərs cavab verdiyi üçün təqib edilərək, 1930-cu ildə Zaqatalanın Paşan meşəsində vurulmuş və aldığı güllə yarasından vəfat etmişdir. Bu cür xəyanətkar davranışlar dinsiz və Allahsız bolşeviklərin iç üzü idi.

Yuxarıda göstərilən ikinci kitabı Molla Məhəmməd əl-Balakəniyə bağışlayan tələbə Əhməd isə, sonralar camaat arasında "dərviş Əhməd" kimi tanınan böyük elm-irfan sahibi olan şəxs idi. Ötən əsrin yetmişinci illərinədək Balakən-Zaqatala avtobusunda maraqlı tarixi rəvayətlər söyləyib, uşaqlara gülümsəyən nurani bir insana tez-tez rast olmaq olardı. Bu, dərviş Əhməd idi...

**İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:**


11. Солтанов Д. Миллион Роз из Закаталы или история героев…, Киев, «Новый друк» 2014, с. 32, 304 с.
12. Солтанов Д…göstərilən əsəri, s. 37.
13. Архивные материалы МВД Груз. ССР. Шамиль – ставленник султанской Турции и английских колонизаторов (Сборник документалъных материалов). Тбилиси: Госиздат Груз.ССР, сектор политической литературы, 1953, 560 с.
14. Солтанов Д…göstərilən əsəri, s. 44-45.
15. Yenə orada.
16. Məmmədli A. Balakən-Zaqatala bölgəsi: tarixi, etnoqrafiyası. Bakı, "Adiloğlu", 2001, s. 127.
17. Soltanov C. "Lechici Kaukazu". "Nove Panstvo", №12 (354), 2004 rok, Varşava.
18. Lesli Blanş, Cənnətin qılıncları. Bakı, 2016, s. 12, 566 s.
19. Фадеев Р.А. Шестьдесят лет Кавказской войны. Письма с Кавказа.. Записки о кавказских делах. О Закатальском восстании 1861-1862 гг. Москва, 2007 г.
20. Şimal-Qərbi Azərbaycan tarixi, Bakı, "Şərq-Qərb", 2011, s. 292, 424 s.

21. https://vvv.sanatkarnavali. Com/türk-mitolojisində ağac-kultu/
22. Mirəli Seyidov, Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, “Yazıçı”, 1989, s. 283-292, 496 s.
23. Mirəli Seyidov, Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, “Yazıçı”, 1983, s. 36-37, 326 s.
24. Şimal-Qərbi Azərbaycan tarixi... s. 295.
25. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), fond 579, s. 1, iş 3, v. 16.
26. ARDTA f.125, s. 1, iş 216, v. 90.
27. Асланов А.Х. Из истории крестьянского движения в Азербайджане в начале XX века. Известия АН Аз.ССР, серия истории, философии и права, 1985, №1, с. 50.
28. ARDTA f.125, s. 1, iş 218, v.233.
29. Xuluflu V. Car döyüşləri salnamələri, (Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu nəşri) Bakı, 1934, s. 3.
30. Məmmədli A. Balakən-Zaqatala bölgəsi:…s. 18.
31. Nemətova M. Azərbaycan pirləri. Bakı, 1992, s. 99.
32. ASE, VII cild, Bakı, 1983, s. 220.
33. Niyazov Ə. XIX əsr Azərbaycanın Şimal-Qərbində (Qanıx-Həftəran vadisi) dini həyat, elm və mədrəsələr. Bakı, 2016, 328 s.
34. Zamanov E. Sovet Sosialist Respublikaları dövründə təhsil və din. Bakı İslam Universiteti Elmi məcmuəsi №12-2017, s. 268.
35. Niyazov Ə. …göstərilən əsəri, s. 16.
36. Məmmədli A. …göstərilən əsəri, s. 20-21.
37. Məmmədli A. Azərbaycanın Şimal-Qərb bölgəsinin tarixi abidələri. Bakı, “Turxan”, 2013, s. 146-156, 228 s.
38. Nemətova M… göstərilən əsəri.
39. Niyazov Ə. …Göstərilən əsəri.
40. Porphyrios, İsagoji (trc.Hamdi Ragip Atademir, Konya 1948. İSAGOCİ - TDV İslam Ansiklopedisi. https://islamansiklopedisi.orq.tr/İsaguci

41. Фонн Плотто А.И. Природа и люди Закатальского округа, Сборник сведений о кавказских горцах. Тифлис, 1869, вып.IV, с. 67.
42. İnformator Abdullayev Yəhya Məhəmməd oğlu, 1936-cı il doğumlu.
43. Mustafa Alkan, Suhta maddesi, TDV İslam Ansiklopedisi, İstanbul 2009, cilt 37, s. 342-343.
44. Məlumat Molla Bayramın nəticəsi Abdullayev Yəhya Molla Məhəmməd oğlundan 2008-ci ildə alınmışdır.
45. Məmmədli A. Tarixin yaddaşı: "Qırmızı bataqlıqda yaşıl ruhlar". Bakı, "Sabah" 1994, s. 27-33.
46. Косвен М.О. Этнография и история Кавказа. Москва, 1961, с. 213.
47. Əliyeva İradə. İngiloylar zorakı xristianlaşdırmaya və gürcüləşdirməyə qarşı mübarizə tarixindən, Bakı, 2020, s. 47, 368 s.

III FƏSİL

# CAR-TALA (CAR-BALAKƏN) CAMAATLIĞININ YARANMASI VƏ FƏALİYYƏTİ

## 3.1.Car-Tala (Car-Balakən) camaatlığının yaranması

Bildiyimiz kimi, Səfəvi dövlətinin yaranması Şərqdə, o cümlədən Qafqazda yeni siyasi vəziyyət yaratmışdı. Şah İsmayılın, ardınca da oğlu Təhmasibin Gürcüstana dörd dəfə yürüş etməsi nəticəsində Şərqi Gürcüstan Səfəvi dövlətinin təsir dairəsinə keçdi [46].

Sonralar, XVII yüzilliyin əvvəllərində I Şah Abbasın Gürcüstana yürüşü bölgədəki müsəlman feodal hakimlərinin mövqeyini gücləndirmiş, əvvəllər Səfəvilərin şimal sərhədlərinin qoruyucusu olan dağlı tayfalarının dağətəyi ərazilərə köçünü sürətləndirmişdi [47].

Bu prosesesə təsir edən amillərdən biri və başlıcası 1616-cı ildə Zəyəm çayı sahilində Səfəvi qoşunları ilə gürcülər arasında baş verən döyüşdə gürcülərin darmadağın olunması idi. Bu dövrdə Şimali Qafqazdan Nuhlu və Çömçəli toxumları (nəsilləri) Car dərəsini əhatə edən Qunduz dağda Qoloda adlanan yaşayış yerində məskunlaşmışdı. Təbəli, Ərəbli, Curmut, Boyaklı və Osoberal toxumları isə Tala dərəsində məskunlaşdı.

1695-ci ildə gürcü knyaz və zadəganları xeyli qüvvə toplayaraq Qanıx çayını keçərək Yeniseldə düşərgə salmışdılar. Mənbələrin verdiyi məlumata görə carlılar (müsəlmanlar) kaxetinlərin düşərgəsinə gələrək əhv dilədilər və vergi ödəməyə boyun oldular [48].

Əslində, bölgənin (Car-Balakənin - M.A) ağsaqqalları – elçiləri düşmənin gücünü dəqiqləşdirmək üçün hiylə ilə onların düşərgəsinə getmişdilər. Vəziyyəti nəzərə alaraq, car-balakən-

---

[46] Şimal-Qərbi Azərbaycan tarixi, Bakı, 2011, s.57.

[47] Yenə orada, s.61.

[48] АКАК, т.2, д.1395, с.162.

lilər Carı tərk edərək, daha yuxarı – Qolodaya çəkilmişdilər. Cara daxil olan gürcülər üç gün Carı talan edərək çox böyük qənimət ələ keçirmişdi. 1695-ci ilin yazında gürcü hərbi dəstələri Qolodaya daxil olanda, orada birləşmiş müsəlman qüvvələrin güclü atəşi altına düşdülər. Başçıları olan Duşianın da öldüyünü görən gürcülər qorxu içində döyüş meydanından qaçdılar. Müxtəlif məlumatlara görə, Qoloda döyüşündə 500, hətta 900 nəfər gürcü öldürülmüş və döyüş birləşmiş müsəlman qüvvələrinin parlaq qələbəsi ilə başa çatmışdı. Bölgədəki müsəlman əhalinin bu qələbəsi göstərdi ki, el-obasını, doğma yurdunu qorumaq üçün, düşmənin dağıdıcı hücumlarından qorunmaq üçün obaları, nəsilləri (toxumları) birləşdirmək və birgə qorunmaq lazımdır. Beləliklə, Azərbaycanın şimal-qərb sərhədlərini xarici müdaxiləçilərdən qoruyan mühüm hərbi-siyasi qurum – Car-Balakən camaatlığı yarandı [49].

Car-Balakən camaatlığının, ümumiyyətlə, bölgənin tarixini öyrənmək üçün qiymətli mənbələrdən biri, müəllifinin Molla Məhəmməd əl-Cari olduğu bildirilən "Car salnamələri"dir [50].

"Car salnamələri"ndə bölgədə baş verən ictimai-siyasi proseslər, Car-Tala (Car-Balakən...) camaatlığının fəaliyyəti barədə, o cümlədən bölgədə baş verən müharibələr barədə ətraflı məlumat verilir.

Bölgədə hələ 886-cı ildə yaranan Şəki hakimliyi burada dövlətçilik ənənəsinin yetərincə qədim olduğunu deməyə əsas verir.

XVII yüzilliyin əvvəllərində İlisu Sultanlığının yaranması da dövlətçilik tariximizdə yeni bir səhifə idi.

Sultanlıq, dörd camaatlığın ittifaqından və bir neçə azad camaatlığın birləşməsindən ibarət idi. Burada əhalinin ümumi yığıncağı idarəetmənin ali pilləsi idi. Bütün məsələlər bu yığıncaqlarda həll edilirdi. Yığıncaqlararası dövrlərdə isə vacib mə-

---

[49] Şimal-Qərbi Azərbaycan tarixi, c.65.
[50] Molla Məhəmməd əl-Cari. Car salnamələri, Bakı, 1997, 146 s.

sələlər **məsləhət şurasında** həll edilirdi. Bu məclisdə kəndin yüzbaşısı, qazısı, İmamı, tabun başıları və nüfuzlu şəxslər iştirak edirdilər. Qəbul edilən qərarlar hamı üçün məcburi idi. O zaman İlisuda **yeddi tabun** var idi: Səngər tabun, Aşağı tabun, Qaradolaq tabunu, Bucaq tabun, Tovlatala [51].

Hər tabunun öz məscidi var idi. Adətən hər tabun bir, yaxud bir neçə toxumdan (nəsildən) ibarət olurdu.

İlisu Sultanlığının və Car-Balakən camaatlığının Azərbaycan dövlətçiliyi tarixində özünəməxsus yeri olduğunu qeyd etmək yerinə düşərdi. İlisu Sultanlığının tarixində isə, Daniyal sultanın xüsusi yeri vardır. XIX əsrin 40-ci illərinin ortalarında Rusiyanın Qafqazda apardığı müstəmləkəçilik siyasətinə qarşı mübarizədə dağlı hərəkatına başçılıq edən Şeyx Şamillə Daniyal bəyin birləşməsi, Rusiyanın hakim dairələrini möhkəm narahat etmişdi. Odur ki, həmin dövrün mənbələri, bölgədə xidmət edən məmurların çara yazılan raportları bu həyəcan və narahatlıqları açıq-aydın göstərir, mətbuatda bu barədə yazılırdı. "Qafqaz" qəzetinin 1846-cı ildə çıxan 2, 3, 4 və 17-ci nömrələrində bölgədə baş verən hadisələrə geniş yer ayrılmışdı. Qəzetin "Qafqazın daxili xəbərləri" sərlövhəli hissəsində İlisu sultanı Daniyal bəyin Car-Balakəndəki rus hərbi mövqelərinə böyük qüvvə ilə hücum edəcəyi barədə məlumat dərc edilmişdi. Burada, iyulun 25-də knyaz Dolqorukiy-Arqutinskinin rəhbərlik etdiyi rus əsgəri bölüklərinin Daniyal bəyə qarşı göndərildiyi yazılırdı [52].

Bölgənin tarixinin tədqiqi zamanı Tağı Musəvinin orta əsr mənbələri əsasında yazdığı, tədqiqatçı R.Həsənov və A.Məmmədov tərəfindən nəşr etdirilən "Şəkinin orta əsrlər tarixi" əsəri qiymətli mənbələrdən hesab edilə bilər [53].

---

[51] Murtuzayev S. İlisu, Bakı, 2012, s.18, 416 s.

[52] «Кавказ» qəzeti, 1846-cı il nəşri, № 2, 3, 4, 17.

[53] Şəkinin orta əsrlər tarixi (Tağı Musəvinin tədqiqatları üzrə), Bakı, 2023, 148 s.

Əsərdə Səfəvi hökmdarlarının, həmçinin Nadir şahın bölgə ilə bağlı fərmanları dərc edilmişdir (orjinaldan istifadə edilərək). Bu qiymətli mənbədə Nadir şahın Hindistana yürüşü zamanı Azərbaycana hakim təyin etdiyi qardaşı İbrahim xanın 1738-ci ildə Car-Balakəndə baş vermiş üsyanı yatırmaq üçün bölgəyə yürüşü, Hacı Çələbinin Şəki xanlığını yaratdığı dövrdə baş verən hadisələr, bununla bağlı Nadir şahın verdiyi fərmanlar da öz əksini tapmışdır [54].

Doğrudur, bu dövrdə həm Səfəvilər, həm də Osmanlı sultanları bölgəni öz nüfuz dairəsi altına almağa çalışırdı.

Son dövrlərdə Azərbaycan dövlətçilik tarixində önəmli yeri olan İlisu Sultanlığı haqqında E.Lətifovanın, Car-Balakən camatlığı haqqında A.Əşrəfqızının sanballı elmi monoqrafiyaları çap olunmuşdur [55]; [56].

A.A.Bakıxanovun "Gülüstani İrəm" əsəri də bu mövzu ilə bağlı zəngin məlumatları özündə ehtiva edir [57].

Bəzi qüsurlu cəhətlərinə, Rusiyanın imperiya mənafeyinə uyğun yazılmasına baxmayaraq, A.Fonn-Plotto və M.A.Koseba tərəfindən yazılan qeydlər, tərtib olunan və əhalinin sayını, sosial tərkibini əks etdirən məlumatlar da çox qiymətlidir. Qərəzli mövqeyinə, Sovet ideologiyasına uyğun yazılmasına baxmayaraq İ.Petruşevskinin "Car-Balakən azad icmaları XIX əsrin birinci yarısında" əsəri də bölgədəki sosial-iqtisadi, ictimai-siyasi münasibətləri, icma daxilindəki torpaq və mülkiyyət məsələlərini öyrənmək baxımından maraqlıdır [58].

Mirzə Adıgözəl bəy və Əhməd bəy Cavanşir Qarabağ xanlığının tarixinə həsr etdikləri əsərlərində Car-Balakən azad

---

[54] Şəkinin orta əsrlər tarixi (Tağı Musəvinin tədqiqatı üzrə), Bakı, 2023, s.133, 148 s.

[55] Летифова Э. Илисуйское Султанство, Баку, 2010, 400 с.

[56] Arzu Əşrəfqızı. Car-Balakən camaatlığı, Bakı, 2009, 256 s.

[57] Бакиханов А. А. Гюлистан-и Ирам, Баку, 1991, 304 с.

[58] Петрушевский И. П. Джаро-Белоканские вольные общества в первой половине XIX века, 2-е изд. Махачкала, 1993, 166 с.

icmalarının daxili quruluşundan, o zamana görə xeyli demokratik görünən idarəçilik üsulundan bəhs etmiş, buradakı azad icmaları İsveçrədəki kontonlara bənzətmişlər[59]; [60].

Əhməd bəy Cavanşir Car-Balakən camaatlığının güclü bir quruma çevrilməsini, Qafqazın həyatında önəmli rol oynaya bilməsini, onların İsveçrədəki kontonlara bənzər federativ cəmiyyət qurmaları, bərabərlik əsasında birləşərək güclü hərbi-siyasi birlik yaratmalarında görürdü.

Təbii ki, bərabər şərtlərlə birləşmə icmalar arasında bir-birinə etimadı, güvəni daha da artırırdı. Bura, bölgə insanlarının həyatında mühüm rol oynayan, yaşadıqları təbii-coğrafi şəraitə görə formalaşan mübarizliyi, azadlıq ruhunu da əlavə etsək, bu gücün, bu yenilməzliyin səbəbləri aydın olur.

Nəzərə alaq ki, nə Sasanilər, nə də ərəblər öz zamanında bölgədə öz hakimiyyətini tam bərqərar edə bilməmişdi. Bu səbəbdəndir ki, Sasani hökmdarı Qubad və oğlu Xosrov Ənuşirəvan Şəkidən Telava qədər uzanan "Böyük Qafqaz səddi"ni inşa etdirmiş, dağ keçidlərinin önündə əzəmətli qalalar tikdirmişdi [61].

X əsr ərəb tarixçisi Əl-Bəlazuri özünün "Ölkələrin fəthi" adlı əsərində məhz bu Sədd barədə ətraflı məlumat vermişdir[62].

Tədqiqat zamanı nəzərə alınacaq maraqlı faktlardan biri də budur ki, hələ ərəb işğalları dövründə ərəblər ram edə bilmədikləri üçün buradakı kəndlilər Aran bölgəsindəki kimi tam asılı kəndlilərə – "uluclar"a çevrilməmişdi.

XIV əsrin ikinci yarısı və XV əsrin əvvəlində yaşayıb yaratmış ərəb tarixçisi ibn Xəldun da bu barədə məlumat vermişdi [63].

---

[59] Mirzə Adıgözəl bəy. "Qarabağnamə", Bakı, 1991.

[60] Əhməd bəy Cavanşir. "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair", Bakı, 1989.

[61] Пахомов Е. А. Закатальская стена, Труды Азербайджанского Университета. Серия историческая. Вып.I, Баку, 1950, с.68-90.

[62] Qədirov F. Azərbaycanın şimal müdafiə istehkamları, Bakı, 1982, 152 s.

Car-Balakən camaatlığı altı azad icmanın birliyindən yaranmışdı. Hər icma bir neçə nəslin – "toxumun" birləşməsindən yaranmışdı və seçilən baş kovxa tərəfindən idarə olunurdu. Toxum və icma ağsaqqallarının, qazı və imamın bu idarəçilikdə ciddi rolu var idi.

İcmaların ümumi yığıncaqlarında qəbul edilmiş qərarlar qanun qüvvəsinə malik idi.

Belə birgə yığıncaqlar camaatlıqda birləşən altı azad icmanın – Balakən, Car, Tala, Muxax və Cənik – azad icmalarının baş kovxalarının razılığı ilə çağırılır və həmişə eyni yerdə – Ağdamçöldə (Zaqatalanın Tala kəndində yer) keçirilirdi. Yığıncaqlarda hər bir icmanın baş kovxaları, qazıları və toxum ağsaqqalları iştirak edirdilər. Həmin yığıncaqlarda qərarların qəbul edilməsi, daxili idarəçilik və xarici məsələlərin müzakirəsi ilə yanaşı, camaatlığın baş kovxası və qazısı da seçilirdi.

Baş kovxa qazıdan və bir neçə nəsil (toxum) ağsaqqallarından ibarət olan icraedici orqanı idarə edirdi. Onlar əsasən adlı-sanlı, köklü (nüfuzlu) nəsillərdən seçilirdilər. Bu hakimiyyət gücləndikcə, icma münasibətləri də pozulur və bütün məsələlərin həllini onlar həyata keçirirdilər. Bu icraedici orqan bəzən hətta məhkəmə məsələlərini də həll edirdi [64].

XVIII yüzillikdə artıq Car-Balakən azad icmaları Cənubi Qafqazda güclü siyasi nüfuza malik olan dövlət qurumu idi. Doğrudur, müəyyən dövrlərdə o, şərti olaraq, gah Osmanlıdan, gah da Səfəvilərdən, sonra Qacarlardan asılı vəziyyətə düşürdü (bəzən bu asılılıq nominal xarakter daşıyırdı). Çünki Cənubi Qafqaz Şərqin bu iki dövləti arasında nüfuz dairəsinə bölünmüş olurdu. Nüfuz dairəsi uğrunda gedən bu mübarizədə Car-Balakən camaatlığı daha çox Osmanlı Türkiyəsinin tərəfində olurdu.

Bildiyimiz kimi, dağlıların Rus İmperiyasının işğalına qarşı mübarizəsi zamanı da dağlılar daim Türkiyə ilə əlaqə

---

[63] Azərbaycan tarixi, Yeddi cilddə, II cild, Bakı, 2007, s.206.

[64] Arzu Əşrəfqızı. Car-Balakən camaatlığı, Bakı, 2009, s.74-76.

yaratmış, Türkiyəyə müttəfiq kimi baxmışlar. Bunun bir çox səbəbləri vardır ki, onları bir-birinə bağlayırdı. Birincisi, qədim tarixi köklər onları yaxınlaşdırırdı. Buradakı xalqların çoxunun türksoylu olması;

İkincisi, Car-Balakən camaatlığının əhalisinin də, Osmanlının çoxunun da İslamın sünni təriqətinə bağlı olması;

Üçüncüsü, ən qədim zamanlardan bəri bölgə insanlarının həyatında həlledici rol oynayan örf-adətlər vardır ki, osmanlılarla onları yaxınlaşdırırdı. Təsadüfi deyil ki, Rusiyanın Cənubi Qafqazda zorla xristianlaşdırma siyasəti yürütdüyü 1852-1892-ci illərdə Car-Balakən camaatlığından onlarla ailə hətta nəsillikcə Türkiyəyə köçmək üçün çara müraciət etmiş və Türkiyəyə köçmüşdülər [65].

Bu yaxınlığın başqa bir səbəbi də Rusiyanın Cənubi Qafqazdan sonra şərqə, eləcə də Osmanlıya qarşı çevriləcəyinin bəlli olması idi. Odur ki, Osmanlı sultanları Rusiyaya qarşı olan hər bir dövləti müttəfiqi qismində görürdü.

Azərbaycan tarixşünaslığında "Car-Balakən camaatlığı" mövzusu müəyyən qədər araşdırılmışdır. Bu tədqiqat zamanı bizim məqsədimiz elmi ictimaiyyətin diqqətini, bu dövlət qurumunun Ali orqanı olan Xalq yığıncağında qəbul edilmiş "Qanunnamə" ilə tanış etməkdir. Yerli adətlərlə şəriət qanunları əsasında tərtib edilən bu "Qanunnamə" tarixçilər, hüquqşünaslar, regionşünaslar üçün də maraqlı tədqiqat mövzusudur...

## 3.2.Car-Tala (sonralar Car-Balakən) Camaatlıqlarının Ağdam Yığıncağının Qərarı

Ən mərhəmətli şəfqətlinin xatiri üçün. Allaha ehsan, aləmlərin sahibinə və onun ən ali məxluqu olan Məhəmmədə xeyir-dua, əmin-amanlıq.

---

[65] Şimal-Qərbi Azərbaycan tarixi, Bakı, 2011, s.295.

İslamın əvvəlindən və qüdrətli şah Abbasın gəlişinədək qəbul edilmiş müqavilələrin, qanun və qərarların xülasəsi budur ki, bizim adətlərimizlə, atalarımızın və hakimlərimizin əcdadlarının, Car və Tala vilayətlərinin nümayəndələrinin, ağalarının və rəislərinin ali hüquqları ilə hesablaşan bu qərarlar səfər əl-müzəffərin sonunda 1165-ci il Ağdam yığıncağında Vilayətin böyük və kiçik nümayəndələrinin razılığı ilə qəbul edilmişdir. Bu qərarlar müsəlman şəriətinə kömək və onun möhkəmlənməsi üçün, əhalinin firəvanlığı və xoşbəxtliyi naminə verilmişdir.

İlk növbədə qətlə aidiyyətidən başlayaq:

Vilayətin nümayəndələri aşağıdakıları qət etmiş, qərara almışlar:

1. O şəxs ki, qərəzlə və qərəzsiz dindar (mömin) müsəlmanı öldürərsə, onun yurdu yandırılacaq, onun ağacları və tənəkləri (üzümlüyü) məhv ediləcək. O, doğma diyardan sürgün ediləcək və qürbətdə o vaxtadək olacaq ki, ona geri dönməyə icazə veriləcək, həm də vilayətdə qəbul edilmiş adətə və urfaya görə barışdırılacaq. Əgər qatil *vira* <u>ödənilməsinə</u> və *radiyənin* tamamlanmasınadək ölərsə, onda cərimənı onun uşaqları və qohumları ödəməlidirlər, hansılar ki, *radiyəni* verməsələr, vətənə qayıtmasına icazə ala bilmirlər. Əgər ölənin qohumları və yaxud intiqam (qisas) almağa ixtiyarı olan cərimənin verilməsinədək qatil öləcəksə, onda ölənin qanı artıq qisas tələb etmir və qatilin qohumları istədikləri vaxt *radununu* tamamlamamış vətənə qayıda bilərlər.
2. Əgər öldürülənin qatili tapılmazsa, ölənin qohumlarına öz düşmənlərindən hər hansına işarə edərək, onu (ölənin qohumları ilə), daha doğrusu, o, 12 tümən miqdarında *vira* (pul cəriməsi) verilənədək qatil adlandırmağa arzu edə bilərlər. Bundan sonra öldürülənin qohumları şübhə altına düşmüşün qohumlarından

*təzkiyyə* və *təthirənin* yerinə yetirilməsini tələb edir, yəni on iki nəfər görkəmli kişilərin; altısı ata, altısı ana tərəfindən şübhə altına düşmüş üçün and içsinlər. Bu 12 and vermiş qohumlardan başqa 28 adam, fərqi olmadan and verməlidirlər ki, onların ümumi sayı 40 adam olmalıdır. Əgər şəxslər andı mövcud qaydalara əsasən elan edərlərsə, yəni onlardan on ikisi əvvəlcə müqəddəs Qurana and verirlər, sonra isə üç dəfə talakanı xatırladırlar, başqaları (28 nəfəri) Qurana and verdikdə isə şübhə altına düşmüş şəxsin üzərindən şübhə götürülür.

3. Əgər savaşma (döyüş) zamanı daşla, ağacla (dəyənəklə) bir, iki və yaxud üç nəfər öldürülərsə, həm də qatillər müəyyəndirsə, onda qətl haqqında qərar qüvvəyə minir. Lakin, qatillər naməlum qalarsa və onların iştirakı *urfaya* əsasən sübuta yetirilməzsə, onda ölənin ən yaxın qohumu kimi arzu edirsə qatil elan edər və ona qarşı vuruşmada səhvən və qərəzsiz ölərsə, həm də qatil özü etiraf edərsə və yaxud kimsə ona işarə edərək adını, atasının adını bildirərsə, onda o olmuş hadisəyə görə məsuliyyət daşımır.
4. Əgər qatillə birgə qohumları və qardaşları yaşayırsa, yəni onunla bir daşınar və daşınmaz əmlakı varsa, onda qətl üçün onlar da cavabdehdirlər; onların da evləri yandırılır və vətəndən sürgün edilirlər. Qohum-qardaşlardan qatillə əmlakı ayrı olub, lakin bir yerdə yaşayıb ocaqları eynidirsə, belə halda onlar bir il müddətinə sürgün edilirlər, amma onun evi isə dağılmağa məruz qalmır. İşdir, onun evi yandırılıb, ağacları və tənəkləri kəsilibsə, qatilin əmlakı ilə birgə, onu edən şəxs zərəri ödəməlidir.
5. Əgər kimsə başqasının arvadını və qızını qaçırdarsa, yaxud başqasının arvadını əlindən alarsa və ya xaincəsinə onun başqa əşyalarını oğurlayarsa, onda ona

qarşı qətlə tətbiq edildiyi qərar işlədilir, yəni o, cəzasını çəkməlidir – qamçılanar, üzünə qara boya çəkilərək bir il müddətinə sürgün edilməlidir: bununla yanaşı qaçırılmış arvadı və qızı yaxın qohumlarına qaytarırlar. İşdir, oğru vuruşma zamanı öldürülərsə, onda ona qarşı qan intiqamı tətbiq edilmir. Əgər ona qarşı girov almaq qərara alınıbsa, bu, Vilayət nümayəndələrinin qərarına və oğrunun mənşəyinə, onun və qohumlarının əmlak vəziyyətinə görə yerinə yetirilir, həm də başqalarının vəziyyəti nəzərə alınmaqla, bununla belə onlardan hər biri 3 tümən ödəməlidir.

6. Əgər zinakar zinakarlığı namuslu qadınla edərsə və yaxud zinakar qadın zinakarlığı namuslu kişi ilə edərsə, onda qadın cümə günü, ibadətdən sonra Carda məscid və Vilayət Məclisi qarşısında daş-qalaq edilərək ölümə məhkum edilməlidir; Əgər zinakarlardan biri evli deyilsə, o birisi isə evlidirsə, onda daş-qalaq edilərək həm evli, həm də ərə getmiş öldürüləcəklər; evlənməmiş (və yaxud ərə getməmiş) yüz zərbə ilə cəzalanacaq, üzünə isə (qadının da) qara boya çəkiləcəkdir, bundan başqa eşşəyə tərsinə qoyularaq bir neçə dəfə camaat qarşısından keçirilməlidir.
7. Kəbin dörd məzhəbə əsasən kənd qazısı tərəfindən bağlanmalıdır; Əgər kəbin yad məzhəbə əsasən bağlansa, şikayət nifaq (ixtilaf) yaratsa, onda kəbin ləğv edilməli və ədavətə səbəb olacağından qadağan hesab edilməlidir, lakin yad məzhəblə kəbin kəsilmiş qızı və yaxud başqası 3 tümən şikayət haqqı verməlidir.
8. Öz ağasını (sahibini) öldürmüş şəxsi gizlədən kəs 12 tümən ödəməlidir.
9. İtirilmiş əşyanı tapmış, oğurluq etmiş və kiminsə üstünə hücum etmiş şəxs 3 tümən cərimə verməlidir; həmin məbləğdəki cəriməni oğrunu gizlədən, ona qo-

naqpərvərlik edən, yemək verən və yol göstərən şəxslər də ödəməlidirlər.

10. Öz itirilmiş əmlakını geri götürməyə gəlmiş iddiaçıdan işkili (iddiaçının hüququ) tələb edən şəxs 2 tümən cərimə verməlidir və əmlakını qaytarmalıdır. Hər bir kənd əmlakın sahibinə qaytarılmasına müqavimət göstərərsə, onun əmlak dalınca təyin edilmiş vaxtda gəlməyinə baxmayraq, 12 tümən cərimə ödəməlidir.
11. Kim öz itmiş əmlakını (malını) və yaxud yolunu azmış mal-qarasını başqasından, müxtəlif yolla və oğurluqla keçibsə, tapsa, həmin şəxsin ixtiyarı vardır ki, onu şəriət qanununa və adi yazılmış qanuna əsasən geri alsın. Malı tapan şəxs onu qaytarmadıqda isə, ilk sahibi yalnız əmlakın və yaxud mal-qaranın dəyərini ala bilər.
12. Böyüklüyündən və kiçikliyindən asılı olmayaraq, hər kəs ki oğurluq etsə, yaxud ki, onda itirilmiş əmlak tapılsa, gizlədildikdən sonra muştuluq vasitəsiylə tapılsa, həmin şəxs adi oğru kimi nəzərə alınacaq, həm də əmlakını itirmiş sahibə üçqat qiymətini ödəməlidir. Yaxud qarəti carçı vasitəsilə oğurlanmış əmlakın aşkar edilməsi bilinincəyədək etiraf etsə ki, onu lazım olduğundan, ehtiyacı olub götürüb, onda onun üzərinə səhvini boynuna aldığına görə, şəriətdə nəzərdə tutulmuş cərimə tətbiq edilir. Əgər kimdəsə oğurlanmış əmlakın bir hissəsi tapılarsa, köynək, xələt, kəmər və sairə kimi tikilmiş əşyalar, hansına ki, türk dilində nişan deyilir və yaxud silah, yunlu qoyunların dərisi, həm də sübut ediləcək ki, bunlar oğurluqdur, onda mülkiyyətçi əşyaları geri götürə bilər, bununla yanaşı qarətçidən "muştuluq" və əşyaların üç qat qiyməti alına bilər. İşdir, tapılmış əmlak köhnəlmiş və yaxud geyilmiş parçadan, dəri parçadan və yaxud

ətdən; həm də sübut edilməyəcək, onda, mənimsəyici şəriət adətində nəzərdə tutulmuş cəriməni ödəməlidir. *Divanın* qarşısında oğrunu ifşa edərək əmlakı geri qaytarmağa məcbur etdiyindən, həmin anda oğru həm 3 tümən cərimə, həm də yuxarıda qeyd edilmiş cəzanı çəkməli, əks təqdirdə isə, yuxarıda qeyd edilmiş adətdə hakim olan cərimənin verilməsinə borcludur.

13. O şəxsdə ki, itirilmiş və oğurlanmış əşyalar tapılarsa, bildirsə, özü ilə iştirak edənin adını, atasının adını, həm də həmin iştirakçı Qurana andla onunla birgə üç dəfə bəyan edərsə (talak qaydasına görə), həm də o şəxs şübhəli qarət iştirakçısı adlandırılarsa, onda işarə olunmuş şəxs qarət iştirakçısı hesab edilməlidir. Lakin şübhəyə məruz qalmışın iştirakı oğurluqda sübut edilməzsə, həm də həmin şəxs əzəldən etibarlı, ədalətli adam kimi tanınarsa, və heç bir xəyanəti, oğurluğu yoxdursa, onda o şəxs yalnız (taxar və təzkiyyə adəti) Quran üstündə son ayrılma kəlmələri ilə and içməlidir, çünki Vilayətdəki adi adətə görə günahı sübut etməyənlər *təzkiyyəni* icra etməlidirlər.
14. Vilayətdə adət edilmiş qaydaya görə, əgər hansısa kənddə oğurluq edilərsə və oğrular həmin əmlakı başqa kəndə göndərərlərsə, həm də onların arxasınca təqib edənlər yolda oğrular tərəfindən atılmış əmlakı götürsələr, onda qarətçilər yalnız *təharət* və *təzkiyyə* vasitəsilə and icməlidirlər. Lakin oğurlanmış əşyalar üçün məsuliyyət daşıyır, üstəlik cərimə qismində bir baş qoyun (yunlu heyvan) verirlər. Həmin qayda üzrə tam cavab verirlər o halda ki, əgər oğurlanmış əşyalar onlar tərəfindən hasardan ev tərəfə və yaxud bağa atılarsa.
15. Əgər kiminsə yaşadığı evdə, otağında, yaxud damında oğurlanmış əşya tapılarsa, onda onun sahibinin ixtiyarı çatır ki, həm onları geri götürsün, həm də çatış-

mayan əşyaların üç qat qiymətini tələb etsin. Belə olduğu halda, iddiaçı dediyini sübut etmək üçün bir nəfər şahidlə birgə *Divanın* və *urfa məhkəməsinin* qarşısında and içməlidir.

16. Əgər kiminsə həddi-buluğa çatmış və kamil qulu vardırsa, hansının ki, sahiblərinin (qeyri-müsəlman) girov pulu aldıqdan sonra azad edib vətəninə buraxıb və yaxud həmin qul ikinci dəfə başqasının əlinə keçərsə, onda o, ikinci sahibinə məxsusdur. Həm də onun üçün girov almış birinci sahibi tam hüquqsuz sayılır.
17. Əgər hər bir mübahisə edən tərəf şəriət hakimindən şikayət etdikdə hakimiyyət nümayəndəsi iddiaçıdan doğruluq sübutu, cavabdehdən isə and verməyini tələb etsə, onda iddiaçı yerinə yetirməyə (bir aydan artıq işi) əsası olmadan gecikdirməyə ixtiyarı yoxdur, yəni şahidlərlə birgə. Bir ay keçdikdən sonra təqdim edilən sübut, şeyx və yaxud alim (hüquqşünas) olduğundan asılı olmayaraq qəbul edilmir. Həmin qayda üzrə iddiaçıya da ixtiyar verilir ki, bir aydan artıq müddətdə andın verilməsini uzatsın.
18. Mərhumun vəfatından 40 (qırx) il keçdikdən sonra, ondan qalmış əmlak üçün qaldırılan iddia qəbuledilməz və eşidilməzdir. Əgər nəzərdə tutulmuş müddət keçibsə, əmlakın bölünməsi üçün bütün şikayətlər, xahişlər, ərizələr həmin qaydaya görə qəbuledilməzdir. Daşınmaz əmlaka iddiaya gəldikdə isə altmış il (varisin ölümündən sonra) keçdikdən sonra qəbul edilmir. Əgər yeni yaranmış əmlakın varislər tərəfindən bölünməsi tələb edilərsə, onda Vilayətdə qəbul edilmiş şəriət qaydasına riayət edilir.
19. Əgər bu və ya başqa bir işdə təqsirləndirilən şəxsin qohumları adi qanuna (urfa adətinə) və Vilayət adətinə görə, şahidlərə bir ay keçdikdən sonra məsələnin

həllini tələb etsələr, onların da xahişinə diqqət yetirilmir.

20. Əgər məsələ rəsmi sənədlər, möhür və imza əsasında əmlakın qalması və mübahisə edən tərəflərin hər bir iddialarının, narazılığını dəlillərlə göstərməklə, hakimlərin mülahizələrinə istinad edərək həmin vaxtın kənd qazısı tərəfindən artıq həll edilmiş hesab edilir, əgər qazının qərarı şəriət qanununa və qədim (köhnə) urfa adətinə zidd deyilsə və yaxud onun qərarı qadağan edilmiş yollarla, yəni pulla ələ alınma, dostluq, ya da uzaqgörənliklə qəbul edilməyibsə, tərəflərin iddiasına yenidən baxılır. Belə hallarda qazının qətnaməsi ləğv edilir, rəsmi sənədlər isə qüvvəsini itirdiyindən yandırılır; qazı və həmin sənədləri tərtib edənlər isə etdikləri cinayətə görə üç tümən cərimə ödəməlidirlər.
21. Naməlum şəxs tərəfindən kiminsə evi yandırılarsa, lakin yandıran şəxs tapılarsa, onda ona ölümə aid edilən qərar tətbiq edilir, həm də həmin şəxs bütün itkini ödəməlidir; bununla bərabər günahkar beş tümən cərimə keçirməlidir. Əgər günahkar müəyyən deyilsə və kimsə şübhə altına düşərsə, onda yandırılmış evin sahibi təxmini müəyyən ediləndən *təzkiyə* və *təthir* tələb etməyə ixtiyar verilir.
22. Əgər hər kimsə yad evə yol qazsa, qapı, divarı sındırsa və yaxud onu dağıtsa, onda həmin şəxsə ölümə aid qərar tətbiq edilir; hadisə yerində günahkar öldükdə isə onun qanı intiqama, qisasa layiq görülmür.
23. Dinsizlərlə və müsəlmanların düşmənlərilə aparılan müharibə zamanı hər kimsə rəqib tərəfə keçərək ordunun və yığma qoşun dəstələrinin yürüşü haqqında xəbər verərsə, həmin şəxs tutulduğu zaman ölümə məhkumdur və ölümü cəzasız qalmalıdır. Əgər o, ələ

keçməyərək evə qayıdarsa, onda on iki tümən cərimə vermәlidir.

24. Əgər kimsə kolluq, əkin, biçənək arasında ocaq qalayaraq başqa şəxsin mülkünə və yaxud evinin həyətində od düşərsə, onda səbəbkar mülkün yaxında və uzaqda olmasından asılı olmayaraq, yanmış sahənin pulunu ödəməli və bərpa etməlidir. Əgər ocağı toplananlardan birisi qalayıbsa, başqaları isə odun gətirərək odu saxlayaraq ocağın ətrafında söhbət edərək oturarlarsa, baxmayaraq ki, onda onların hamısı Vilayətdə mövcud *urfa qaydasına* müvafiq olaraq, dəymiş zərərin ödənilməsində iştirak etməlidirlər.

**Mövzuya dair izahlar:**

1. Təthirə – Qurandan qəti ayrılmanı elan edən əhdlər.
2. Talaka – həmişəlik (əbədi) ayrılma.
3. Urfa – adi hüquqa əsasən.
4. Divan – nümayəndələr məclisinin hakimiyyətidir.

**İstifadə olunmuş ədəbiyyat:**


46. Şimal-Qərbi Azərbaycan tarixi, Bakı, “Şərq-Qərb”, 2011, s. 57.
47. Yenə orada...s. 61.
48. АКАК, т.2, д.1395, с. 162.
49. Şimal-Qərbi Azərbaycan tarixi,... s. 65.
50. Molla Məhəmməd əl-Cari. Car salnaməsi. Bakı, “Səda”, 1997, 146 s.
51. Murtuzayev S. İlisu. Bakı, “Vətən”, 2012, s.18, 416 s.
52. «Кавказ» qəzeti, 1946-cı il nəşri.
53. Şəkinin orta əsrlər tarixi (Tağı Musəvinin tədqiqatları üzrə). Bakı, “Elm və təhsil”, 2023, 148 s.
54. Şəkinin orta əsrlər tarixi, s.133.

55. Летифова Э. Илисуйское Султанство, Баку, “Şərq-Qərb”, 2010, 400 с.
56. Arzu Əşrəfqızı. Car-Balakən camaatlığı, Bakı, “Uni-Print”, 2009, 256 s.
57. Бакиханов А. А. Гюлистан-и Ирам, Баку, «Элм» 1991, 304 с.
58. Петрушевский И. П. Джаро-Белоканские вольные общества в первой половине XIX века, 2-е изд. Махачкала, 1993.
59. Mirzə Adıgözəl bəy, “Qarabağnamə”, Bakı, 1991.
60. Əhməd bəy Cavanşir, “Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair”, Bakı, 1989.
61. Пахомов Е.А., Закатальская стена. Труды Азербайджанского Университета. Серия историческая. Выпуск I, Баку, 1950, с. 68-90.
62. Qədirov F. Azərbaycanın şimal müdafiə istehkamları, Bakı, “Elm”, 1982, 152 s.
63. Azərbaycan tarixi, Yeddi cilddə, II cild, Bakı, “Elm”, 2007, s. 206, 608 s.
64. Arzu Əşrəfqızı... göstərilən əsəri, s. 74-76.
65. Şimal-Qərbi Azərbaycan tarixi, Bakı, 2011, s. 295.

IV FƏSİL

# İNGİLOYLAR

İngiloyların mənşəyi barədə uzun müddət yanlış fikirlər hakim olmuşdur. Yunan, Bizans, alban, gürcü və ərəb mənbələrində oxşar, bəzən isə fərqli adlarla xatırlanan ingiloylar barədə yaxın zamanlaradək belə bir fikir hakim idi ki, onlar gürcüdilli, gürcüləşmiş müsəlmanlar, müsəlmanlaşmış gürcülərdir. Lakin son tədqiqat əsərlərində göstərilir ki, ingiloylar ən qədim dövrlərdən bəri Azərbaycanın şimal-qərb bölgəsində yaşamış "gellər"in varisləridir.

İngiloyların mənşəyi barədə yanlış fikirlərin yaranma səbəblərindən biri də bu ərazinin müxtəlif mənbələrdə fərqli adlarla (Yenisey, Hereti, Ereti, Filanşahlıq və s.) xatırladılmasıdır. Ş.Əliyev bu məsələyə daha çox diqqət yetirmiş gürcü müəlliflərinin əsərlərini araşdıraraq belə bir nəticəyə gəlmişdir: "Tarixi Hereti ərazilərini müəyyənləşdirdikdən sonra gürcü mənbələrinə yekun vuraraq, bu mənbələrdə qeyd olunmuş herlərin (gellərin) elə gellərin özü olmasını sübut edən faktları belə sıralamaq olar:

1. Herlərin – gerlərin – gellərin eyni bir etnosun daşıyıcıları olması;
2. Herlərin-gellərin eyni ərazidə məskunlaşması: Herlərin ölkəsi Hereti çarlığının və gellərin ölkəsi Filanşahlığın eyni ərazidə yerləşməsi ilə üst-üstə düşməsi;
3. İran şahı Qubadın (VI əsr) tikdirdiyi səddin herlərin-gellərin ərazisindən keşməsi;
4. Herlərin-gellərin müasir ingiloyların əcdadı olması" [66].

Məlumdur ki, bu məsələnin uzun müddət ərzində mübahisəli qalması Azərbaycana qarşı məqsədli şəkildə ərazi iddia-

---

[66] Əliyev Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar, Bakı, 2007, 280 s.

larının irəli sürülməsinə səbəb olan amillərdən biri olmuşdur [67]. Təəssüf ki, bölgənin antik və orta əsrlər tarixinə dair elmi əsərlərdə uzun illər boyu gürcü konsepsiyası hakim mövqe tutmuşdur. N.A.Berdzenişvilinin Azərbaycanın şimal-qərb bölgəsinin "erkən orta əsrlərdən etibarən Gürcüstanın ayrılmaz hissəsi olması" haqqındakı fikirləri həmin əsərlərdə əsas kimi qəbul olunurdu. O, bu iddiaların təsiri ilə formalaşmış gürcü tarixçilərinin yeni nəslini yetişdirirdi. T.Q.Papuaşvili, D.Musxelişvili bu nəsilin ən fəal nümayəndələrindən olmuşlar [68].

XXI əsrin əvvəllərinədək gürcü tarixçilərinin bu cür fəallığı ilə müqayisədə Azərbaycan tarix elmi xeyli passiv görünürdü. Son dövrdə Azərbaycan tarix elmində bu sahədə ciddi irəliləyiş müşahidə olunur. Belə ki, Azərbaycan tədqiqatçıları Ş.Əliyev, F.Məmmədova, E.Lətifova, Ş.Rəhmanzadə öz əsərlərində bölgənin tarixini və orada baş vermiş etnik proseslərin obyektiv mənzərəsini yaratmağa müvəffəq olmuşlar. Onların əsərlərində Azərbaycanın şimal-qərb bölgəsinin "əzəli gürcü torpaqları, ilkin sakinlərinin isə gürcü olması", "türklərin, avarların və saxurların bu əraziyə sonralar gəlməsi", "ingiloyların müsəlmanlaşmış gürcülər olması" haqqında gürcü və rus tarix elmində hakim olan əski konsepsiya xeyli sarsılmışdır. Ş.Rəhmanzadənin[69] və Ş.Əliyevin[70] bu sahədəki araşdırmalarını xüsusilə qeyd etmək lazımdır. Ş.Əliyev subut etdi ki, tarixi Hereti ərazisi Albaniyanın (Azərbaycanın) ərazisidir və "Hereti" toponimi Albaniya çarlığı anlamında işlədilmişdir.

Bəzi mənbələr (Vaxuşti Baqrationi) XV əsrin II yarısında Gürcüstanda mərkəzləşmiş dövlətin parçalanması və ayrıca Kaxeti çarlığının yaranması ilə "Hereti" sözünün tarix səhnəsin-

---

[67] Rəhmanzadə Ş. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri, Bakı, 2008, 376 s.

[68] Мусхелищвили Д. Л. Из исторической географии восточной Грузии, Тбилиси, 1982.

[69] Rəhmanzadə Ş. Göstərilən əsəri, s.377.

[70] Əliyev Ş. Göstərilən əsəri, s.277.

dən çıxdığını qeyd edir. Təbiidir ki, "Hereti" sözü bir-iki il ərzində unudula bilməzdi. Bu məqamda monqol yürüşləri də nəzərə alınmalıdır. Unutmamalıyıq ki, məhz həmin yürüşlərdən və dağıntılardan sonra siyasi qurum kimi Heretinin varlığına son qoyulmuşdu.

XIV yüzillikdə müstəqil Şəki hakimliyinin yaranması ilə Heretinin bir qismi (Şəki mərkəz olmaqla) onun Gürcüstan tərkibində qalmış digər hissəsindən ayrıldı və fərqli inkişaf yoluna qədəm qoydu. Bu proseslərdən, xüsusilə də Kaxetiyada inzibati islahatlar keçirilərək "Yenisey" və s. kimi adlar işlədiləndən sonra "Hereti" sözü siyasi-coğrafi ad kimi tədricən unuduldu.

Bu proses, yəni Heretinin unudulması prosesi herlərin (gellərin) bir qisminin gürcüləşməsi prosesi ilə eyni zamanda baş vermişdi. Bundan sonrakı dövrdə XVI-XVII əsrlərdə Səfəvi hökmdarlarının Kaxeti çarlığına qarşı sərt siyasət yeritməsi və dağlı tayfaların işğalları herlərin / gellərin digər qisminin (Yenisey ərazisindəki) assimilyasiya olunmasının (gürcüləşməsi XVII əsrdə avarlardan və saxur sultanlarından asılı vəziyyətə düşmüş Yenisey gelləri "yengiloy"/"ingiloy") adlanmağa başladılar [71].

Ş.Əliyev mənbələr arasında gellərin və herlərin eyni bir etnos olduğunu, bu etnosun etnik ərazilərinin hal-hazırda əsasən ingiloyların yaşadığı Alazan çayının vadisini əhatə etdiyini və Yenisey/İnisey gellərinin XVII əsrdən etibarən "ingiloy" adlandırıldığını sübut etdi.

"İngiloy" etnoniminin etimologiyasına nəzər salsaq, bu etnonimin kökündə "giloy" tərkibinin "gel" etnonimi ilə bağlılığına bir daha əmin olarıq.

Bəzi tədqiqatçılar "ingiloy" etnonimindəki "in" hissəsinin "yeni" mənasında işlədildiyini bildirmişdilər. Yəni, "yenidən dönmələr", "yeni yola gələnlər", yeni yol" [72]. Gellərin

---

[71] Əliyev Ş. Göstərilən əsəri, s.56.

[72] Гейбуллаев Г.А. К этногенезу азербайджанцев, Т. 1, Баку, 1991, 552 с.

yalnız bir qismi (Yenisey – İnisey gelləri) “ingiloy”, “yengiloy” adlandırılmışdır.

Ş.Əliyevin fikrincə, XVII əsrin əvvəllərində islamı qəbul etmiş Yenisey/İnisey gellərinin adı qarşısına coğrafi məkan göstəricisi kimi “yen” (Yenisey) və ya “in” (İnisel) artırılması nəticəsində “yengiloy”/“ingiloy” şəklində yeni etnonim yaranmışdır [73]. Buna görə də “ingiloy” etnoniminin “İnisel – Yenisel gelləri” kimi izahı daha doğrudur. Beləliklə, ingiloyların mənşəyi ilə bağlı olan məsələyə yekun vuraraq belə nəticəyə gəlmək olar ki, ingiloylar heç də “gürcüdən dönmə” və ya “törəmə” əhali deyildir. Onlar Qafqaz Albaniyasının – Azərbaycanın qədim “gel” tayfalarının varisləridir.

Son dövrdə ingiloylar daim tarixçilərin və etnoqrafların elmi maraq dairəsində olmuşdur. Etnogenetik baxımdan türk-alban tayfaları ilə dərin tarixi bağlılığı olan bu əhali Azərbaycan xalqının tərkib hissələrindən biridir. İngiloyların etnik tarixində yüzilliklər boyu baş vermiş dəyişikliklər məcmusu XIX-XX əsrlərin real tarixi ilə zənginləşdi.

İngiloyların bölgədə ictimai statusuna və vəziyyətinə Azərbaycan Respublikasının şimal-qərb bölgəsində yaşayan digər xalqların da təsiri olmuşdur. XIX yüzillikdə bu təsir özünü daha qabarıq göstərirdi. 1803-cü ildə bu bölgə Rusiyanın nəzarəti altına keçmişdi. 1830-cu və 1860-ci illərdə baş vermiş ərazi-inzibati dəyişiklikləri də bölgənin etnik vəziyyətinə mənfi təsir edirdi. XIX yüzilliyin ortalarına doğru ruslar bölgənin xristianlaşdırılma cəhdlərini davam etdirirdilər. Bu tədbirlərdə Gürcüstanın və Rusiyanın yüksək rütbəli din və dövlət xadimləri çox maraqlı idilər. XIX yüzillikdə Tiflisdə Qafqaz Arxeoqrafiya Komissiyası tərəfindən nəşr olunmuş “Aktların” səhifələrində maraqlı məlumatlara təsadüf olunur.

1827-1830-cu illərdə Qafqazın canişini olmuş qraf İ.F.Paskeviç 1830-cu ilin aprel ayının 15-də mitropolit İona məxfi məktub yazmış, ingiloyları xristianlaşdırmaq üçün bölgəyə “bir

---

[73] Əliyev Ş. Göstərilən əsəri, s.58.

neçə yaxşı gürcü keşişinin göndərilməsini" və bu məsələnin yerli müsəlman xalqlarından gizli surətdə aparılmasını məsləhət görmüşdü. Çarizm Azərbaycanda şovinist və millətçi siyasət yeridirdi. İ.F.Paskeviçin "Car və Balakən cəmiyyətlərinə müraciətinin layihəsi" bunu bir daha sübut edir. Sənəddə qeyd olunur ki, Car camaatının nüfuz dairəsində olan "ingiloylar" və yaxud "əliabadlılar" adları ilə məlum olan "gürcü" kəndləri carlılara Rusiya hökumətinin müəyyən etdiyi miqdarda rüsum ödəməlidir". İ.F.Paskeviç qeyd edirdi ki, ingiloylara istədikləri zaman öz kəndlərini tərk emək və başqa yerə köçmək hüququ verilir. Sənəddə gürcü pravosları xristianlığını yaymaq məqsədilə missionerlərin çağırılması zərurəti də xüsusi qeyd olunur. "Qafqazda Pravoslav Xristianlığın Bərpası" cəmiyyəti də XIX yüzillikdə bölgənin xristianlaşdırılması sahəsində xüsusi canfəşanlıq edirdi.

Araşdırmalar göstərir ki, artıq XIX yüzilliyin 60-cı illərində Rusiya və gürcü rəsmilərinin səyləri nəticəsində bölgədə müsəlman-xristian qarşıdurması zirvə nöqtəsinə çatmışdı. 1863-cü ildə xristianlığın burada zorla qəbul etdirilməsinə qarşı üsyan baş verdi. Xristianlaşdırma siyasəti çar Rusiyasının toptüfəng gülləəri altında aparılırdı. Lakin bu siyasət real nəticələrə gətirib çıxarmadı.

Qeyd etmək lazımdır ki, XIX yüzillikdə yaşamış bir sıra gürcü müəllifləri ingiloyların mənşəyi haqqında kifayət qədər obyektiv fikir söyləmişlər. Məsələn, D.Bakradze yazmışdı: "İngiloylar uzaq keçmişdə Albaniyanın tərkibində olmuşlar, onlar Zaqatala dairəsinin qədim sakinləridirlər". Bu müəllif bölgədə yaşayan muğalları azərbaycanlıların tərkib hissəsi hesab edirdi. M.Canaşvili və Musxelişvili də onların alban mənşəli olduğunu təsdiq edirdi [74].

XX əsrin məşhur iqtisadçısı və demoqrafı M.N.Avdeyevin fikrincə, ingiloylar zaman keçdikcə özlərini "müsəlman milləti"nə mənsub olan əhali kimi təqdim edirlər.

---

[74] Мусхелищвили Д.Л. Göstərilən əsəri.

Bu fakt bir daha sübut edir ki, əski dövrdə bir sıra xalqların etnik mənsubiyyətinin müəyyənləşdirilməsində din amili aparıcı rol oynamışdır. Əslində "etnik mənsubiyyət"lə "dini mənsubiyyət" anlayışları arasında fərqlər vardır. Əlbəttə, ingiloyların etnik mənsubiyyətinin inkişafında və daha da təkmilləşməsində islama mənsubluq böyük rol oynamışdır. Bununla yanaşı xalqların etnik mənsubiyyəti məsələsində etnik və yaxud milli özünüdərketmə həlledici rol oynayır. Yaxın illərədək bölgədə yaşayan ingiloyların hamısı özlərini "ingiloylar" adlandırırdılar. Bunu bölgəyə təşkil olunmuş etnoqrafik səfərlər də bir daha sübut edir. İngiloylar mənşəcə qədim türk-alban tayfalarının varisləridirlər. Müxtəlif dövrlərdə ingiloyların sayının inkişaf dinamikasında baş vermiş dəyişikliklərə əhalinin təbii hərəkətinin, miqrasiyaların, milli-qarışıq nikahların, milli özünüdərketmənin ikili səciyyə daşımasının və qeyri-sabit olmasının da güclü təsiri olmuşdur.

Şübhəsiz ki, ingiloyların bir qisminin öz tarixi etnonimini dəyişərək özlərini "gürcü" hesab etməsi qonşu Gürcüstan tərəfindən aparılan geniş miqyaslı, ardıcıl, planauyğun təbliğatın nəticəsidir.

Bölgədə yaşayan müxtəlif xalqlar arasında əsrlər boyu davam edən intensiv ticarət-iqtisadi və mədəni əlaqələr, həmin xalqların məişətində və mədəniyyətində ümumi cəhətlərin təşəkkülünə şərait yaratmışdır. Din və dil mənsubiyyətindən asılı olmayaraq, bölgədə yaşayan bütün ingiloyların mənşəcə bir kökdən olduğunu, onların Azərbaycan türkləri ilə sıx bağlı olduqlarını etnoqrafik, toponimik faktlar da sübut edir. Bölgədəki yaşayış evləri, milli geyimlər və yeməklər, əkinçilik və maldarlıq təsərrüfatı, ailə-məişət münasibətləri, mənəvi mədəniyyət nümunələri ümumi cəhətlərə, eyniyyətə malikdir. Milli geyimlərin və yeməklərin tarixi-müqayisəli tədqiqi xalqın etnogenezinin özünəməxsusluğunun öyrənilməsi üçün də mühüm əhəmiyyət kəsb edir. Konkret faktlar da bunu sübut edir.

Həm müsəlman, həm də xristian ingiloylarla Azərbaycan türklərinin qadın geyimləri arasında fərqlər azdır. Bununla yanaşı, ingiloy qadınlarına xas olan bir sıra milli geyimlər də mövcuddur (çığıla, meysər, mukasar, nipxari).

İngiloyların kişi geyimləri də Azərbaycan türklərinin geyimlərindən çox az fərqlənir (çuxa, büzməli-ətəkli arxalıq). Kişi geyimlərində də bəzi fərqlər nəzərə çarpır. Məsələn, keçmişdə ingiloy kişiləri arasında "çopuz" adlanan qış geyimi yayılmışdı. Baş geyimlərində də lokal (məhəlli) fərqlər vardı. Milli geyimlərə nisbətən yeməklər mühafizəkarlığı ilə daha çox fərqlənir. Təsadüfi deyildir ki, ingiloy evlərində həm bütün türklər (çilov, plov, dovğa, bozbaş) və həm də bölgə üçün səciyyəvi olan, xəmir və düyü xörəkləri hazırlanır.

İngiloylara xas olan bir sıra yeməklər və xörəklər və onlara əlavələr də mövcuddur (usrum, jijinax, çıqnaqu). Lakin ingiloy xörəklərinin hazırlanması texnologiyasında bəzi xüsusiyyətlər müşahidə olunur. Bölgənin mətbəxində düyü xörəklərinin geniş yayılması keçmişdə burada çəltikçiliyin inkişafı ilə bağlıdır.

İngiloyların ənənəvi yaşayış evləri də Azərbaycan türklərinin evlərindən fərqlənmir. Keçmişdə ingiloylar üçün səciyyəvi olan ikiotaqlı çatma evlər yayılmışdı. Evlərin daxili tərtibatı da Azərbaycan türklərinin tərtibat işindən fərqlənmir. Burada qazma tipli evlər də mövcud idi.

Çarizm bölgədə pravoslavlığı yaymaq cəhdlərinə 1803-cü ildə Car-Balakən camaatlığının işğalı zamanı başladı. Özünü "gürcü əsilli, rus ürəkli" adlandırmış çar generalı Sisianovun təşəbbüsü ilə rusların Car-Balakən camaatlığı ərazisinə yürüşünün nəticəsində meydana çıxmış "Car-Balakənin Rusiyanın itaəti altına keçməsi haqqında"kı andlı öhdəliyə əsasən qədim albanların xələfləri olan müsəlman ingiloyların yaşadığı Əliabad kəndinə "xüsusi status" verildi. Həmin kənd burada yaşayan ingiloyların gələcəkdə "xristian dininə etiqad etməsi üçün maneələr törədilməməsi" şərtilə carlıların itaətində saxlanıldı.

Lakin bu tədbir ingiloyların islamdan üz döndərib xristianlığı qəbul etməsilə nəticələndi. Gürcü kilsəsinin "**zorla müsəlmanlaşdırılmış gürcülər**" kimi qələmə verdiyi ingiloyların guya "**xristianlığı qəbul etmək arzusunda olduqlarına**" dair Rusiyanın hərbi və siyasi dairələrində formalaşdırılmış yanlış fikirlər özünü doğrultmadı.

1830-cu ildə çarizm Car-Balakən camaatlığını tamamilə itaət altına saldıqdan sonra bölgədə yaşayan ingiloyların xristianlaşdırılması məsələsi yenidən gündəmə gətirildi. Lakin Car-Balakən camaatlığının ləğvindən sonra burada yaradılmış Car-Balakən vilayətinin rəisi, general-mayor, knyaz Bekoviç-Çerkasski Paskeviçin 15 aprel 1830-cu il qərarının müsbət nəticə verəcəyinə inanmırdı. O yazmışdı: "Bizim keşişlərin birdənbirə bu tayfalar arasında görünməsinin onlarda bizim hökumətə qarşı pis fikir yaradacağı şübhəsizdir. İslam dininə etiqad edən ingiloyların bizim keşişləri yaxşı qarşılayacaqlarına inanmaq mümkün deyildir" [75].

Y.M.Mahmudov, E.M.Lətifova və A.Ə.Məmmədovanın birgə ərsəyə gətirdiyi "XIX əsrdə çarizmin Şimal-Qərbi Azərbaycanda pravoslavlaşdırma siyasəti və pravoslav kilsələrinin tikilməsi tarixindən" adlı əsərdə göstərirlər ki, Gürcüstan ekzarxı mitropolit İonun özü də "dinindən zorla ayrılmışlar" adlandırdığı ingiloyların "könüllü" şəkildə xristianlığa qayıdacaqlarina inanmırdı. Buna görə də baş komandan qraf Paskeviçə yazdığı məktubda Car-Balakən vilayətinin rəisinin öz missiyalarını yerinə yetirmək üçün ora göndəriləcək keşişlərə "hərtərəfli imkan yaratmasının", başqa sözlə, zor tətbiq edilməsinin vacib olduğunu qeyd edirdi [76].

Rusiyanın müstəmləkəçilik siyasəti nəticəsində pravoslavlaşdırılmış ilk ingiloy kəndləri vaxtilə İlisu sultanlığının ərazisinə daxil olmuş Qax, Qorağan, Meşəbaş, Kötüklü, Əlibəyli kəndləri oldu. Yuxarıda adı qeyd edilən müəlliflərin təd-

---

[75] AMEA Tarix İnstitutunun Elmi əsərləri, 20-ci cild, Bakı, 2007, 180 s.
[76] AMEA Tarix İnstitutunun Elmi əsərləri, 20-ci cild, Bakı, 2007, s.5.

qiqatı çox maraqlı bir faktı da aşkara çıxarır ki, Qaxın əsl türk adı "Torağay" idi. "Torağay" sözü, ifadəsi qıpçaq türkcəsində "dağlar arasında sığınacaq" deməkdir .

Şotavar kəndində isə rus təzyiqi nəticəsində bir neçə ailə xristianlığı qəbul etdi. Bu kəndlərin xristianlaşdırılmış əhalisinə xidmət göstərmək üçün iki prixod (səcdəgah) yaradıldı.

Azacıq da olsa "uğur" qazandığını görən Rusiya rəsmi dairələri pravoslavlığın yayılmasını sürətləndirmək məqsədilə güzəştləri daha da artırdılar. Rusiya senatının 6 dekabr 1859-cu il tarixli fərmanına əsasən 1844-cü ildə çarizmin amansız müstəmləkə zülmünə qarşı üsyan qaldırmış və imperiya generallarını dəfələrlə rüsvayçı məğlubiyyətlərə uğratmış xalq qəhrəmanı, keçmiş İlisu sultanı Daniyal bəyin və digər bəylərin müsadirə edilmiş münbit torpaqları pulsuz olaraq pravoslavlığı qəbul etmiş ingiloylara paylandı. Pravoslavlığı qəbul etmiş ingiloylar, həmçinin, ömürlük olaraq dövlət vergilərindən və altı illiyə zemstvo mükəlləfiyyətlərindən də azad edilirdilər [77].

1855-ci ildə bu bölgədə bir neçə pravoslav kilsəsinin tikintisinə başlanıldı. Lakin bu siyasət uğursuzluğa düçar oldu. Qısa bir zamanda şirnikləndirilərək, yaxud zorla xristianlaşdırılan ingiloylar islam dininə qayıtdılar. Bu prosesi dayandıra bilməyən çar məmurları daha sərt tədbirlər görməyə başladılar. İslam dininə qayıdan ingiloylar xristianlığı qəbul edərkən əldə etdikləri bütün imtiyazlardan dərhal məhrum edilirdilər. Çar hökumətinin ingiloyları zorla xristianlaşdırmaqla yanaşı həm də onların etnik mənşəyini də süni şəkildə dəyişmək cəhdi daha böyük etirazla qarşılanmışdı. Belə ki, yaranmış dözülməz şəraitdə Car-Balakən dairəsinin əhalisi bu qəddar müstəmləkəçilik siyasətinə etiraz əlaməti olaraq hamılıqla Osmanlı Türkiyəsinə köçürülmələri barədə ərizə ilə Qafqaz canişininə müraciət etmişdilər [78].

---

[77] Yenə orada.

[78] Летифова Э. М. Северо-западный Азербайджан: Илисуйское султанство, Баку, 1999, 109 с.

Beləliklə, bölgədə əsrlər boyu yaşamış və hal-hazırda da yaşayan etnosların mənşəyinə, başlıca təşəkkül mərhələlərinə, maddi və mənəvi mədəniyyət dəyərlərinə qısaca baxış belə bir nəticə çıxarmağa imkan verir ki, buradakı tarixi abidələr qədim, vəhdət halına gəlmiş mədəni toplumun çoxəsrlik yaradıcılıq fəaliyyətinin nəticəsidir və bu fəaliyyətdə aparıcı rol əsrlər boyunca Azərbaycan türklərinə məxsus olmuşdur.

Son tədqiqatlar göstərdi ki, Azərbaycanın şimal-qərb bölgəsində yaşayan və Azərbaycan xalqının etnogenezində iştirak edən qədim Alban tayfalarından biri qədim gellərdir. Hansı ki son orta əsrlərdən başlayaraq elmi və tarixi ədəbiyyatlarda "ingiloylar" adlandırılır və ingiloyların bir qismi xristian (Qaxda yaşayanlar), bir qismi isə müsəlmandır (Zaqatala və Balakəndə yaşayanlar [79].

**İstifadə olunmuş ədəbiyyat:**


66. Əliyev Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar. Bakı: Təhsil, 2007, 280 s.
67. Rəhmanzadə Şamil. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri. Bakı: Aspoliqraf, 2008, 376 s.
68. Мусхелишвили Д.Л. Из исторической географии Восточной Грузии. Тбилиси: 1982.
69. Rəhmanzadə Ş. Göstərilən əsəri, s.377.
70. Əliyev Ş. Göstərilən əsəri.
71. Əliyev Ş. Göstərilən əsəri, s.56.
72. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Т.1. Баку: Элм, 1991, 552 с.
73. Əliyev Ş.Göstərilən əsəri, s.58.
74. Мусхелишвили Д.Л. Göstərilən əsəri.
75. AMEA Tarix İnistitutunun Elmi əsərləri. 20-ci cild. Bakı: Təhsil, 2007, 180 s.


---

[79] Məmmədli A. Balakən: uzaq və yaxın tarix, Bakı, 1995, s.12-15.

76. Əliyev Ş. Göstərilən əsəri, s.
77. Əliyev Ş. Göstərilən əsəri, s.
78. Летифова Э.М. Северо-западный Азербайджан: Илисуйское султанство. Баку: Алтай, 1999, 109 с.
79. Məmmədli A.Balakən: uzaq və yaxın tarix, Bakı, 1995, 40 s.

## V FƏSİL

# ŞİMAL-QƏRBİ AZƏRBAYCANDA (BALAKƏNDƏ) QƏDİM YAŞAYIŞ EVLƏRİ

Bir bölgənin tarixinin, etnoqrafiyasının öyrənilməsində yaşayış məskənlərinin, yaşayış yerlərinin, xüsusilə evlərin tədqiqi xüsusi yer tutur [80].

Balakən rayonu Qafqaz dağlarının cənub ətəyində dağlıq, dağətəyi və düzən ərazidə yerləşir. Təbii ki, ən qədim dövrlərdən bəri evlərin quruluşu, forması onun tikildiyi ərazinin relyefindən, təbii coğrafi şəraitdən asılı olmuşdur. (şəkil 34, 35, 36)

Arxeoloji tədqiqatlar göstərir ki, ən qədim evlər mağaralar olmuş, əkinçiliyin meydana gəlməsi ilə öncə çay kənarı ərazilərdə, tədricən düzən və dağətəyi ərazilərdə inşa edilmişdir.

2010-2012-ci illərdə arxeoloq Nəsib Muxtarovun rəhbərliyi ilə Balakən rayonunda, Uxax çay (Katex) sahilində aparılan arxeoloji qazıntı zamanı təxminən iki min beş yüz il əvvələ aid qədim qazma tipli evlər aşkarlanmışdı. Belə hesab etmək olar ki, Balakən-Zaqatala bölgəsində mağaralardan sonrakı qədim evlər, onların quruluşu və forması ilə bağlı ilk məlumatı məhz bu arxeoloji qazıntı zamanı əldə etmişik [81].

Ev, quruluşuna görə düzbucaq şəkilli, döşəməsi "tapdanmış" sarı torpaqla, tavanı isə torpağın üstünə qoyulmuş tir və onun da üzərinə qoyulmuş şax-şəvərin üzərinin torpaqla örtülməsi ilə tamamlanmışdı. Tədqiqatımız üçün maraqlı cəhətlərdən biri bu idi ki, evin döşəməsində uşaq məzarı müəyyən edilmişdi ki, bu başqa ərazilərdə rastlanılan fakt idi.

---

80 Osmanov F. Qafqaz Albaniyasının maddi mədəniyyəti, Bakı, 1982, s.157, 279 s.

81 Məmmədli A. Arxeoloqlar. Kurqan və nekropollarda tarixin xəzinələri, Bakı, 2010, s.27, 112 s.

Burada diqqəti cəlb edən daha maraqlı cəhətlərdən biri, evin döşəməsində burada yaşamış ailəyə məxsus digər ev heyvanlarının da: itin, pişiyin, xoruzun da dəfn edilməsi – basdırılması idi.

Arxeoloji qazıntı zamanı aşkar olunan bu "qazma tipli" ev bizə ev sakinlərinin məşğuliyyəti, təsərrüfatı, sənətkarlığının səviyyəsi, inancları barədə də məlumat verirdi.

Zaman keçdikcə, insanların dünyagörüşü inkişaf etdikcə, evlərin forma və quruluşu da təkmilləşmişdir. Daha sonrakı dövrlərdə "yarım qazma tipli" evlər tikilməyə başladı ki, torpaqdan yuxarıda olan hissə evin qismən işıqlanmasını təmin edirdi. Bu evlər 1,5-2 metr dərinlikdə qazılan çuxurda yan tərəflərə basdırılan dirəklərin üzərinə "atma tirlər" qoyularaq, onun da üzərinə ağac budaqları, şax-şəvər yığılaraq, üzəri torpaqla örtülərək inşa edilirdi. Bu cür evlər qışda isti, yayda isə sərin olurdu [82].

Bir sonrakı mərhələdə "kürsülü evlər", "çətəmə evlər" daha çox tikilməyə başlamışdı. Son orta əsrlər dövründə isə "aynabəndli evlər" ön plana keçmişdir. Bu tip evlər – aynabəndli evlər müasir dövrümüzədək mövcud olduğu üçün, biz "kürsülü evlərin" və "çətəmə evlərin" necə inşa edildiyindən bəhs edək:

Adından da göründüyü kimi, "kürsülü ev" bir oturacaq kürsü hündürlüyündə kötüklər üzərində inşa edilirdi ki, torpağın nəmindən, rütubətdən qoruna bilsin;

"Çətəmə evlər" isə torpağa dirəklər basdırılaraq, divarı çəpərlə hörülür, üzəri saman qarışdırılmış sarı torpaqla suvanır, evin üstü qamışla örtülürdü. Bu evlərin də qışda isti, yayda sərin olmaq kimi xüsusiyyəti var idi. Bu cür evlər əsasən mövsümü yaşayış üçün nəzərdə tutulurdu.

---

[82] Məmmədli A. Şimal-Qərbi Azərbaycanın arxeologiyası və etnoqrafiyası, Bakı, 2008, s.77, 135.

İmkanlı və köməyi olanların evi çiy kərpicdən, yaxud daşdan tikilir, "qaradam" (böyük ev), yaxud "çardaqlı ev" adlanır, üstü kirəmitlə örtülürdü [83].

Etnoqrafik tədqiqatlar, toplanan çöl materialları, informatorların verdiyi məlumatlar gösərir ki, ötən əsrin 70-80-ci illərinədək Balakən-Zaqatala bölgəsində evin bünövrəsindən dam örtüyünədək bütün işlər el köməyi – iməciliklə keçirilərdi. Balakənin bütün kəndlərində (eləcə də Zaqatala və Qaxın bir çox kəndlərində) evin bünövrəsi (gəcər də deyirlər) qoyularkən qohum, qonşu çağrılmasa da, köməyə gələrdi. Köməyə gələnlər də, adətə görə, əliboş gəlməz, hər kəs gücü çatan, imkanı yetən bir şey (bir heyvan – dana, qoyun, toyuq-cücə, ustaya köynək və s.) gətirərdi. Bu iməcidə qadınlar da iştirak edər, su daşıyar, çörək, yemək bişirərdilər. Kişilər isə evin tikintisində, daş, kirənc, ağac daşınmasında iştirak edərdi. Evin bünövrəsi qoyularkən usta hər küncdə "künc bərkimir" deyər, ev sahibi, yaxud onun yaxınlarından biri ustaya bəxşis verər və "künc bərkiyərdi".

Daha əvvəlki tədqiqatlar zamanı Qax və Zaqatalanın kəndlərində də informatorlar bu kimi məlumatlar vermişdilər. Məsələn, Qaxın Oncallı kəndində Vəliyev Vəli kişi "kənddə bir ev tikiləndə sonadək qonşular kömək edərdi" deyə bildirmişdi [informator 1].

Etnoqraf Q.Cavadov da öz tədqiqat əsərində bu məsələyə toxunmuşdur: "Ev tikilib qurtardıqdan sonra, axırda damdan düşən ustaya da xələt verilərdi. Çox hallarda ev sahibi bu mərasim üçün əvvəlcədən ehtiyat görər, yun corab, köynək, dəsmal və müxtəlif şirniyyatlardan ibarət xonça hazırlayardı [84].

Evlərin tikinti prosesində əvvəllər maraqlı adətlərdən biri "tir döşəmə" və "boy tiri qaldırma" prosesi idi ki, bu zaman ilk iməci günündəki kimi çoxluq – "şennik" olardı [informator 2]. Xüsusilə "boy tiri" qaldırılan gün hər kəs şən və şux olar, zara-

---

[83] Məmmədli A. Göstərilən əsari, s.78.

[84] Cavadov Q. Azərbaycanda el köməyi adətləri, Bakı, 1993, s. 63-64.

fat edər, deyə-gülə işi başa vurardılar. Bu mərhələ evin tikilməsində ən məsuliyyətli, həm də axıra yaxın mərhələ idi.

Sarıbulaq (əvvəlki Ağkilsə) kəndində "ev iməciləri"nin yekunu evin üstünün "yapılması" – kirəmitlə örtülməsi olardı... Bu zaman iməciyə gələnlər ustanın, yaxud "iməci ağsaqqalı"-nın göstərişi ilə cərgəyə düzülür və kirəmitləri əldən-ələ ötürərək yuxarıya – ustaya çatdırar, usta isə kirəmitlərin arasına nazik taxta parçası qoyaraq düzərdi [informator 3].

"Aynabəndli evlər" isə on doqquz-iyirminci yüzilliklərdə daha çox tikilmişdir. Bu dövrdə tikilən daş evlərin əksəriyyəti iki otaqlı və qarşısında kiçik eyvandan ibarət, adətən 7-8 pilləkənli, zirzəmili evlər idi.

Haqqında bəhs edilən evlərin döşəməsi sarı torpaqla doldurulur, üzərinə isə bir qat kirənc tökülərək, üzü sığallı daşla cilalanırdı.

Evin tavanında yan divar üzərinə qoyulmuş pərdilərin üstünə taxta döşənir və onun da üzərinə sarı torpaq, yaxud kirənc tökülürdü ki, bunun sayəsində həmin evlər qışda isti, yayda isə sərin olurdu.

Katex kəndində tədqiqata cəlb edilən evlərdən biri öz xarici və daxili quruluşuna görə xeyli fərqlidir. Belə ki, evin qərb və cənub istiqamətindən iki girişi və hər girişin sağ, üst tərəfində ərəb qrafikalı yazılı kitabə vardır.

Evin daxili quruluşu onun iki ailə üçün tikildiyini göstərir. Diqqəti cəlb edən məqamlardan biri də budur ki, hər iki tərəfdə divardakı buxaranın – ocaq yerinin üzərindəki mala üstündə çox nəfis işləmələr vardır.

Bu evdə rast olduğumuz digər bir maraqlı cəhət, evin şərq tərəfində az qala "adam boyu" girişi olan zirzəmidir. Buranın zirzəmidən daha çox, gözlənilməz basqın, düşmən hücumu zamanı istifadə edilən at tövləsi olması daha məntiqli görünür...

Maraqlı quruluşa və mürəkkəb memarlıq üslubuna malik evlərdən biri, Mahamalar kəndi ərazisində qeydə aldığımız ev

idi. Evin qərb tərəfi başdan-başa tağlı qalereya şəkilli olmaqla çox saylı sütunlarla əhatələnmişdir.

Bu, iki mərtəbəli, eyvanı qalereyalı ev 19-cu yüzilliyin ikinci yarısında çar ordusunun polkovniki Əhməd bəy Dibirova məxsus olmuşdur. 1944-cü ildə, 96 yaşında Bayıl həbsxanasında güllələnən Əhməd bəy 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin ordusunda zabit kimi fəaliyyət göstərmişdi [85].

Balakəndə ötən əsrdə inşa edilən evlər əsasən çay daşından kirənclə tikilmiş, küncləri və pəncərə yanları bişmiş qırmızı kərpiclə haşiyələnmişdi. Ötən əsrin 70-80-ci illərində Balakəndə evlərin xarici görünüşündə kəskin dəyişikliklər müşahidə olunurdu. Belə ki, evlərin fasadı tamamilə bişmiş qırmızı kərpiclə üzlənməyə başlamışdı. Əslində, evlərin və məbədlərin tikilməsində bişmiş kərpicdən istifadənin tarixi daha qədimdir. Belə ki, tikilməsi hələ erkən orta əsrlərə aid Tülü məbədinin həm döşəməsində, həm də divarında kərpicdən istifadə edilib. İnşası 5-9-cu yüzilliklərə aid edilən Darvaz və Arılıqbinə məbədləri tamamilə bişmiş qırmızı kərpicdən tikilmişdi [86].

Evlərin daxili quruluşu: Balakəndə ötən əsrin ortalarınadək evdə buxaranın olduğu “baş otaq” əsas idi. Bu otaqdakı ən baş yer, yəni buxaranın yanı (qışda) evin böyüyünün (baba, sonra ata) idi. Burada, bu otaqda divarın yuxarısında, divarın özündən, yaxud çıxıntı şəklində düzəldilmiş taxça-rəf olar və onun üzərinə az istifadə edilən (xüsusi bayram və çox hörmətli qonaqlar gələndə istifadə olunardı), görünüşü diqqəti cəlb edən saxsı və mis qablar düzülərdi. Bəzi evlərdə divarın içərisində taxta rəfləri olan, çox da böyük olmayan şkaf yerləşdirilər, bura kitablar yığılardı.

Digər bir otaq “orta otaq” (bəzən “öy” də deyilirdi), yaxud “tükən otağı” adlanar, içərisi ərzaqla dolu olan (yağ, bəkməz, qatıq, qaymaq, müxtəlif turşular) küpələr yığılan taxta

---

[85] Məmmədli A. Balakən: uzaq və yaxın tarix, Bakı, 1995, s. 31.

[86] Məmmədli A. Məbədlər diyarının tarix, Bakı, 1999, s.60, 98 s.

rəflər ("tükənlər") düzülərdi. Bu otağın döşəməsi mütləq kirənclə örtülər, birbaşa günəş düşməyən tərəfə, adətən eyvana baxan bir pəncərəsi olardı ki, otağı qismən işıqlandırsın. Bütün bunlar otağın sərin qalması və saxlanan ərzağın xarab olmaması üçün idi [87].

Adətən evin eyvanında divara keçirilmiş ağac asılqanlar (bəzən, ovçuluqla məşğul olan şəxslərin evində maral buynuzu da) olardı. Eyvanların önü isə əllə işlənmiş ağac sürahi ilə əhatələnirdi.

Balakəndə və ona yaxın bölgədə evlərin yönü zaman-zaman müəyyən qədər dəyişilmiş və dini inanclara, tapındıqları dinə uyğunlaşdırılmışdır. Evlərin çoxu qədim dövrlərdən bəri üzü gündoğana inşa edilmişdir. Bu, GÜNƏŞƏ, oda, işığa inamla bağlı idi. Bəzən evin daxili quruluşunda da bu amil nəzərə alınardı.

Qədim evlərimizdən bəhs edərkən, arxeoloji qazıntılar nəticəsində əldə olunan məlumatların da diqqətə alınması vacibdir. Belə ki, arxeoloq İ.Babayevin Azərbaycanın şimal-qərb bölgəsindəki yaşayış yerlərində apardığı qazıntılar maraqlı məqamlar üzə çıxarmışdır. "Dəmir dövrünün sonlarından etibarən yaşayış binaları əsasən dördkünc olub, bünövrəsi xırda çay daşları, divarı isə çiy kərpiclə hörülürdü" [88].

Arxeoloqun fikrinə görə, o zaman ictimai binalar da dördkünc inşa edilir, onların damının üstü kirəmitlə örtülürdü [89].

Evlərin tavan və çardağı da sakinlərin həyatında önəmli rol oynayırdı. Bölgəyə xas evlərdə yaxın onilliklərədək tavanda nəhrə asmaq, cirimlanarq duzlanmış əti asıb qurutmaq üçün xüsusi asılqanlar, yaxud pərdiyə vurulmuş iri mismarlar olurdu.

---

[87] Məmmədli A. Balakən-Zaqatala bölgəsi: tarixi, etnoqrafiyası, Bakı, 2001, s.55, 145 s.

[88] Osmanov F. Qafqaz Albaniyasının maddi mədəniyyəti, Bakı, 1982, s.43-44.

[89] Бабаев И. Античная черепица Кавказской Албании, «Советская археология» № 2, 1974, с.48-59.

Qeyd etmək yerinə düşərdi ki, əhalinin təsərrüfat ənənələri, mövcud inşaat materialı, iqtisadi güzəran və etnik xüsusiyyətlər yaşayış evlərinin forma və tip müxtəlifliyinə çox böyük təsir göstərən amillərdir [90].

Balakən yüksək rütubətli ərazi olduğu üçün evlərin döşəməsi bölgəyə xas tikinti materialı olan kirənclə örtülər və onun üzəri xüsusi sığallı daşla sığallanıb cilalanardı. Rütubətdən qorunmaq, evlərin bəzədilməsi və döşənməsi üçün ... keçədən istifadə edilmişdir [91].

Azərbaycanın ən qədim və gözəl guşələrindən olan Şəki-Balakən bölgəsi təkcə gözəl təbiəti ilə deyil, həm də məşhur qədim memarlıq və el sənəti nümunələri ilə də diqqəti cəlb edir [92].

Tədqiqatlar göstərir ki, tədqiqata cəlb edilən bölgədə yaşayış evlərinin quruluşu Azərbaycanın digər bölgələrindəkinə oxşardır. Bu da onun ümumazərbaycan xarakterli olmasından irəli gəlir. Təbii ki, bu evlərin digər bölgədəki yaşayış evlərindən fərqli cəhətəri də vardır. Dağlıq və dağətəyi ərazilərdə inşa edilən evlər aran ərazisindəki evlərdən fərqlənir. Balakən, Zaqatala və Qax rayonlarında evlərin xarici və daxili quruluşunda oxşarlıqlar daha çoxdur. Xüsusilə evlərin tikilməsi zamanı tətbiq olunan el köməyi – iməci adəti qarşılıqlı yardımlaşma baxımından çox faydalı olmuşdur.

XIX əsrin sonlarından etibarən bölgədə aynəbəndli evlərin tikilməsi çoxalmış, XX yüzilliyin ikinci yarısında isə geniş vüsət almışdır. Evlərin forma və quruluşu onun sakinlərinin və bölgənin sosial-iqtisadi vəziyyətinə uyğun olurdu. Başqa cür desək, evlərin öyrənilməsi həm də o dövrün sənətkarlığını, ticarət əlaqələrini, ictimai münasibətləri öyrənməyə də imkan verir. Belə ki, evlərin girəcəyində, yaxud digər görkəmli yerin-

---

[90] Məmmədov A. Arxeologiya və Etnoqrafiya, Bakı, 2008, s.197, 237 s.

[91] Azərbaycan etnoqrafiyası, birinci cild, Bakı, 2007, s. 468, 544 s.

[92] İradə Rövşən. Şəki yaşayış evlərinin interyeri (XVIII əsrin sonu-XX əsrin əvvəlləri), Bakı, 2008, s.17, 151 s.

də qoyulan kitabələr həmin dövrdə daşyonma, həkkaklıq, xəttatlıq sənətinin də öyrənilməsi üçün bir mənbədir.

Evlərin girəcəyində divara vurulmuş, divardan asılmış, bəzən kandara həkk edilmiş müxtəlif əşya və simvollar insanların qədim inanclarını da öyrənməyə imkan verir.

Tədqiqata cəlb edilən 30-dan çox evi belə təsnif etmək olardı:

- Qazma evlər,
- Yarımqazma evlər,
- Çətəmə evlər,
- Kürsülü evlər,
- Qaradam evlər.

Son olaraq belə nəticəyə gələ bilərik:

1. Evlərin inşası zamanı icra edilən mərasimlərin bir qismi günümüzədək davam etməkdədir (evin "bünövrə iməcisi" və s.).
2. 18-19-cu əsrlərdə Balakən kəndlərində evlərin inşasında istifadə edilən materiallar bölgə üçün xarakterik olsa da, varlı ailələrin evlərinin xarici görünüşündə fərqliliklər mövcuddur.
3. Evlərin interyerində fərqliliklərə rast gəlinir.

**İstifadə olunmuş ədəbiyyat:**

80. Osmanov F. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, 1982, "Elm", səh. 157, 279 s.
81. Məmmədli A. Arxeoloqlar. Kurqan və nekropollarda tarixin xəzinələri. "Adiloğlu", Bakı, 2010, s. 27, 112 s.
82. Məmmədli A. Şimal-Qərbi Azərbaycanın arxeologiyası və etnoqrafiyası, Bakı, 2008, s.77, 135-136, 160 s.
83. Yenə orada, s.78.
84. Cavadov Q. Göstərilən əsəri, s.63-64.

85. Məmmədli A. Balakən: uzaq və yaxın tarix, Bakı, 1995, s. 31, 40 s.
86. Məmmədli A. Məbədlər diyarının tarixi, Bakı, 1999, 98 s.
87. Məmmədli A. Balakən-Zaqatala bölgəsi: tarixi, etnoqrafiyası, Bakı, "Adiloğlu", 2001, s. 55, 145 s.
88. Бабаев И.А. Античная черепица Кавказской Албании — Советская археология, 1974, №2, стр. 48-59.
89. Məmmədov Arif. Arxeologiya və etnoqrafiya, Bakı, "Elm", 2008, 237 s.
90. Azərbaycan etnoqrafiyası, birinci cild, Bakı, "Şərq-Qərb", 2007, 544 s.
91. İradə Rövşən, Şəki yaşayış evlərinin interyeri (XVIII əsrin sonu – XX əsrin əvvəlləri). Bakı, "Elm", 2008, 151 s.
92. Cavadov Q. Azərbaycanda el köməyi adətləri, Bakı, 1993, 104 s.

**İnformatorlar:**

1. Vəliyev Vəli, 1946-cı il doğumlu, Qax rayonu, Oncallı kənd sakini;
2. Süleymanov Abdurrəhim, 1949-cu il doğumlu, Balakən rayonu, Sarıbulaq kənd sakini;
3. İbadov Zumrat Mürşüd oğlu, 1947-ci il doğumlu, Balakən şəhər sakini.

VI FƏSİL

# ŞİMAL QƏRBİ AZƏRBAYCANDA YENİ AŞKAR OLUNAN TARİXİ ABİDƏLƏR

## 6.1. Bölgənin qədim tarixi abidələri

Azərbaycan yerləşdiyi coğrafi, strateji mövqeyinə və təbii ehtiyatlarının zənginliyinə görə tarix boyu diqqət mərkəzində olmuşdur. Bu baxımdan Azərbaycanın şimal-qərb bölgəsi xüsusi əhəmiyyət kəsb etmiş, bu ərazidəki çoxsaylı qədim abidələr müəyyən mübahisələr obyektinə çevrilmişdir. Bu mübahisələrin başlıca səbəblərindən biri bölgədəki qədim tarixi abidələrin, xüsusilə də məbədlərin araşdırılmaması və elmi ədəbiyyatda öz əksini tapmamasıdır.

Azərbaycan tarixinin və mədəniyyətinin ən dəyərli yadigarları olan bu tarixi abidələr xalqın əsrlər boyu təşəkkül tapmış böyük sərvətinin bir qismidir. Məhz buna görə də ermənilər və onların havadarları ilk növbədə həmin abidələrin gerçək tarixini saxtalaşdırmağa, bu mümkün olmadıqda isə onları məhv etməyə çalışmışlar. Ona görə də bölgədəki tarixi abidələrin bir qismi tamamilə məhv edilmiş, salamat qalmış hissəsinin üzərindəki Alban elementləri aradan qaldırılmış, həmin ünsürlər yad elementlərlə əvəz olunmuşdur.

Tarixdə Dərbənd səddi, Bizans divarları qədər möhtəşəm bir müdafiə qurğusunun – Sovet dövrünə aid ədəbiyyatlarda "Zaqatala səddi" (əslində, Böyük Qafqaz səddi) adlandırılan və qalıqları Balakən rayonunun Katex kəndi ərazisində qalmaqda olan səddin VI yüzillikdə tikilməsi və 1847-ci ildə çox hissəsinin rus generalı Şvarts tərəfindən dağıdılması faktları bu günədək elmi, tarixi ədəbiyyatda öz əksini tapmamışdır. Bundan istifadə edən bəzi tarixçilər və publisistlər isə həmin "Böyük

sədd"i gürcü hökmdarı Tamarın adı ilə bağlamağa cəhd göstərmişlər [93].

Azərbaycan Respublikasının şimal-qərb bölgəsinin qədim tarixi abidələrinin bir qismi müxtəlif dövrlərdə ayrı-ayrı tədqiqatçılar tərəfindən müəyyən qədər araşdırılmışdır, lakin bu abidələr indiyədək kompleks şəkildə öyrənilməmişdir.

Azərbaycanın, eləcə də Qafqazın tarixində çox əhəmiyyətli rol oynamış bu tarixi abidələr astral inamlarla və xristianlıqla bağlı olan məbədlərdən, islam dövrü abidələrindən (məscid, minarə, pir və mədrəsələr) və müdafiə tikililərindən ibarətdir.

Qafqazda ilk xristian məbədi olan Kiş məbədi daha məşhurdur. Ona görə də həm Azərbaycan, həm də xarici mütəxəssislərin diqqətini cəlb etmiş, ətraflı surətdə araşdırılmışdır. Lakin Ləkit, Qum, Mamrux, Darvaz, Katex, Nur kilsə məbədləri və bizim yaxın vaxtlarda aşkara çıxardığımız xeyli tarixi abidəmiz hələlik geniş elmi ictimaiyyətə bəlli deyildir və elmi cəhətdən tədqiq olunmamışdır. (şəkil 27, 28, 31, 32)

Vətənin qədim və orta əsrlər dövrü tarixini dərindən və hərtərəfli araşdırmaq, həmin dövrün iqtisadi, ictimai-siyasi və sosial-siyasi münasibətlərini öyrənmək üçün tarixi abidələri tədqiq etmək, onların təyinatını müəyyənləşdirmək, təsnifatını vermək labüd və zəruridir.

Hər biri nadir memarlıq nümunəsi olan bu abidələr tikildiyi yerin quruluşuna, relyefinə elə uyğunlaşdırılmışdır ki, sanki onlar təbiətin üzvi bir parçasıdır. Yüzilliklər öncə insan zəkası və əməyi ilə yaradılan bu harmoniyanı (təbiətlə, təbii şəraitlə tarixi abidələrin harmoniyasını) tədqiq etmək, təbliğ etmək və onu qoruyaraq, gələcək nəsillərə çatdırmaq hər bir Azərbaycan vətəndaşının borcudur, Vətən tarixinin öyrənilməsi və təbliği işinə töfhədir. Çünki tarixi abidələr Azərbaycan xalqının şərəf və qürur mənbəyidir.

---

[93] Məmmədli A. Azərbaycanın Şimal-Qərb bölgəsinin tarixi abidələri, Bakı, 2013, s.6, 225 s.

Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də bölgədəki abidələrlə bağlı qonşu dövlətlərdə – Gürcüstanda, Ermənistanda və Dağıstanda həqiqətə uyğun olmayan çoxsaylı qeyri-obyektiv əsərlərin yazılması, Azərbaycan tarixinin saxtalaşdırılması cəhdləridir. Bölgənin Alban xristian abidələrinin tarixi və təyinatı daha çox saxtalaşdırılmaya məruz qalmaqdadır. Həmin abidələr haqqında yazılmış qərəzli əsərlər isə obyektiv tarixin, Azərbaycan tarixinin saxtalaşdırılmasına xidmət edir.

Azərbaycanın, o cümlədən tədqiqata cəld edilən bölgənin xristianlıq dövrü abidələrinin ermənilər tərəfindən mənimsənilməsi faktlarını vaxtilə gürcü mütəfəkkiri, yazıçısı, ictimai xadim İ.Q.Çavçavadze (1837-1907) "Erməni alimləri və fəryad edən daşlar" əsərində dolğun şəkildə əks etdirmişdir [94].

Tanınmış gürcü mütəfəkkiri bu əsərində yazmışdır: "... Ermənilər aborigen albanları süni şəkildə qriqoryanlaşdıraraq vaxtilə sığındıqları Azərbaycan torpaqlarını "Hay ölkəsi" – Şərqi Ermənistan adlandırırlar" [95].

### 6.2. Yeni aşkar olunan Zəmbi kilsə və kiçik məbəd (sövmə)

Bu adla tanınan məbəd Balakən rayonunun Mahamalar kəndində, dağın ətəyində yerləşir. Məbədin adı diqqəti xüsusilə cəlb edir. İlkin araşdırmaya görə, məbədin adı ilə bağlı 2 variant ortaya çıxmışdır:

1. Bu ad məbədin olduğu yerə yaxın ərazidə camaat arasında "Zənbilər" adlandırılan bir nəslin yaşaması ilə bağlıdır;
2. "Zənb" ərəbcə "günah" deməkdir və ehtimal etmək olar ki, bölgədə İslam dini yayıldıqdan sonra yerli müsəlman əhali əvvəlki dinə (xristianlığa) tapınanları

---

[94] Чавчавадзе И. Г. Армянские ученые и вопиющие камни, Баку, 1990, с.25-47, 123 с.

[95] Чавчавадзе И. Г. Göstərilən əsəri, s.25

"zənbilər", yəni "günahlılar", "günahkarlar" adlandırmışlar.

Məlumdur ki, Azərbaycanın şimal-qərb bölgəsində islam dini çox gec qəbul edilmiş, burada xristian icmaları uzun müddət fəaliyyət göstərmişdir. Bu, alban kilsəsi ilə gürcü kilsəsinin eyni cərəyana mənsub olması, bu kilsələrin əvvəl Sasanilər, sonra isə ərəblər tərəfindən sıxışdırılması və xristian icmalarının dağətəyi, dağlıq və meşəlik ərazilərə çəkilməsi ilə bağlı idi.

Görünür, burada ərəblərin Azərbaycan türkcəsində mənası "günah" olan "zənb" sözü ilə, türk dilindəki "-lar", "-lər" cəm şəkilçisinin birləşməsi nəticəsində yeni söz ("zanbilər") yaranmış, yerli əhali arasında "Zambilər" şəklində də tələffüz edilir. Məlumdur ki, bəzi toponimlər, adlar müxtəlif dildə olan söz və şəkilçilərin birləşməsindən yaranmışdır. Haqqında bəhs edilən məbəd Azərbaycanın şimal-qərb bölgəsinin xristian dövrü məbədlərinə aiddir. (şəkil 30, 31)

Yaşlı kənd sakinlərinin illər öncə verdiyi məlumata görə, Mahamalar kəndinin dağlıq hissəsində bir neşə belə məbəd vardır. Nəhayət, dumanlı təsəvvürləri aydınlığa qovuşdura, həmin abidələri görə bildik və ilkin tədqiqat apardıq.

Möhtəşəm Katex məbədi də unikal tarixi abidələrimizdən hesab oluna bilər. Son dərəcə zəngin təbiətin ağuşunda, məşhur Katex şəlaləsinin bir qolu olan Kilsə çayın sol sahilində, eyni adlı dağın – Kilsə dağın belində çox əlverişli strateji mövqeyi olan bu məbəd sanki Kiş məbədinin analoqudur. (şəkil 28)

Balakən rayonunun cənubunda, Gürcüstanla sərhədə yaxın ərazidə el arasında "Darvaz binə" adlanan çöl ərazidə bizim də elmi ədəbiyyata "Darvazbinə məbədi" adı ilə daxil etdiyimiz əzəmətli bir Alban məbədimizin qalıqları, xüsusilə mehrab hissəsi qalmaqdadır [96].

[96] Məmmədli A. Balakən-Zaqatala bölgəsinin tarixinə dair, Bakı, 2008, s.90, 144 s.

Bölgədə əvvəllər çox böyük strateji əhəmiyyəti olmuş, hazırda unudulmuş tarixi abidələrimizdən biri də Mollaçıbinə kəndində çayın üzərində inşa edilmiş qədim tağlı körpüdür. (şəkil 31)

Körpü XIX əsrdə bişmiş kərpiclə kirəncə yumurta sarısı qatılaraq inşa edilmişdir. Bu günədək öz möhkəmliyini saxlamaqdadır.

Haqqında bəhs edilən bölgədə yeni aşkar olunan, tarixi bir neçə min il öncəyə dayanan "**piktoqramlar**"dır. Katex kəndi ərazisində, el arasında "Baş axı" adlandırılan və qədim insan məskənlərindən biri olduğu ehtimal edilən əraziyə gedən yolda aşkarlanan, çay daşı üzərindəki bu qədim yazının və onun olduğu yerin tədqiqi tariximiz üçün maraqlı məqamlar üzə çıxara bilər [97].

Qeyd edək ki, təkcə Balakəndə hələ tədqiqata cəlb olunmamış onlarla tarixi abidəmiz bizim yolumuzu gözləyir...

Bir tədqiqatçı olaraq, bir daha vurğulamaq istərdik ki, çox həssas, iki xarici dövlətlə sərhəddə yerləşən Balakəndəki tarixi abidələrimizə xüsusi diqqət yetirilməlidir.

**İstifadə olunmuş ədəbiyyat:**

93. Məmmədli A. Azərbaycanın Şimal-Qərb bölgəsinin tarixi abidələri, Bakı, "Turxan", 2013, 225 s.
94. Чавчавадзе И.Г. Армянские ученые и вопиющие камни. Баку, Элм, 1990, 123 с.
95. Yenə orada, s.25.
96. Məmmədli A.Balakən-Zaqatala bölgəsinin tarixinə dair. Bakı, "Oka-Ofset", 2008, 144 s.
97. Məmmədli A. Şimal-Qərbi Azərbaycanın arxeologiyası və etnoqrafiyası. Bakı, 2009, 160 s.

[97] Məmmədli A. Şimal-Qərbi Azərbaycanın arxeologiyası və etnoqrafiyası, Bakı, 2009, s.32, 160 s.

VII FƏSİL

# QIPÇAQ VƏ ONCALLI KƏNDLƏRİNİN ETNOQRAFİYASI VƏ TARİXİ ABİDƏLƏRİ

Qax rayonunun cənubunda, Əyriçay vadisində münbit torpaqlı geniş düzən ərazidə yerləşən Qıpçaq kəndi öz adında qədim tariximizin bir çox məqamlarını yaşatmaqdadır. Burada toponimə çevrilən bu ad ən cəsur türk tayfalarından birinin adını daşımaqdadır. Görkəmli qazax mütəfəkkiri Oljas Süleymenov "Az i ya" kitabında və digər tədqiqatlarında "qıpçaq" sözünü – iki bıçaq (hər iki tərəfi, hər iki ağzı kəsən bıçaq) kimi izah etmişdir. Bu da onların (qıpçaqların) çox cəsur, vahimə saçan, qılıncından xilas olmaq mümkün olmayan anlamında başa düşülür. Qıpçaq toponiminin araşdırılması göstərir ki, bu ad etnonimdən, yəni tayfa adından yaranmışdır[98].

Lakin tədqiqata cəlb edilən bu ərazidə apardığımız ilkin araşdırmalar, bu yerlərin bizə tarixdən məlum olan qıpçaqların tarix səhnəsinə çıxmasından çox-çox əvvəllərə aid olduğunu göstərir. Hələ 19-cu əsrin ortalarında Azərbaycan tarixini ilk dəfə sistemli, elmi şəkildə öyrənməyə çalışmış A.A.Bakıxanov da özünün "Gülüstani-İrəm" əsərində qeyd edirdi ki, yer adları adətən, minillər boyu orada yaşamış tayfanın, xalqın adından götürülür [99].

N.M.Karamzinin "Tarix xalqların müqəddəs kitabı olmalıdır, onların məişətinin, fəaliyyətinin güzgüsü, əcdadlarının sonrakı nəsillərə vəsiyyəti olmalıdır" fikrini haqlı hesab edən Murad Adcı öz əsərlərində qıpçaqların tarixinin araşdırılmasına xüsusi diqqət yetirirdi [100].

---

[98] Yusifov Y.B, Kərimov Ş.K. Toponimikanın əsasları, Bakı, 1987.
[99] Bakıxanıv A.A. Gülüstani İrəm, Bakı, 1991, 287 s.
[100] Murad Adcı. Türk və Dünya: Munis tariximiz, Bakı, 2006, s.223, 255 s.

Görkəmli Türkiyəli tədqiqatçı Murad Uraz özünün “Türk mifolojisi” adlı əsərində göstərirdi ki, ən qədim dövrlərdən bəri türklər dağlara, təpələrə tapınırdılar [101].

Burada, Qax rayonunun Qıpçaq kəndində el arasında “Qıpçaq təpələri” adlanan ərazilər bu kəndin sakinləri üçün az qala müqəddəs yer hesab edilir.

İlkin araşdırmalar göstərir ki, Qıpçaq kəndinin cənub hissəsində, Əyriçayın vadisində, el arasında Qıpçaq təpələri adlanan və ərazisində qədim dövrə – orta əsrlər və antik dövrə aid saxsı qırıqlarının çox zəngin olduğu ərazi qədim şəhər tipli yaşayış yeri olmuşdur. Buranın fundamental tədqiqə ehtiyacı var və bu tədqiqat tariximiz üçün çox maraqlı məqamları üzə çıxardı. Yuxarıda da qeyd etdiyimiz kimi, hər hansı bir yerin adı (toponimi) yüzilliklər, minilliklər boyu burada yaşamış və hal-hazırda da burada yaşayan etnoslar tərəfindən yaradılmışdır. Toponimlər xalqın tarixinin öyrənilməsi, bəzi qaranlıq məqamların aydınlaşdırılması üçün danılmaz sübutlar, dəyərli məlumatlar mənbəyidir. Toponimik materiallar tarixi araşdıran təqiqatçılar üçün xalqın tarixinin, dilinin, etnogenezinin (xalqın formalaşdırılmasının), tarixi coğrafiyasının öyrənilməsi zamanı tutarlı dəlil, inandırıcı fakt rolunu oynayır [102].

Qıpçaq təpələri adlandırılan Əyriçay vadisindəki təpəliklər bu baxımdan, xüsusilə arxeoloji baxımdan daha zəngindir. Belə ki, ekspedisiyamıza bələdçilik edən kənd ziyalılarından Nadir Ziyadlı və Nəriman kəndin daha öncəki məskunlaşma yerində “Sarı pir” və “Almalıx” adlanan qədim ziyarət yerləri və məzarlıq barədə verdiyi məlumatlar baxış zamanı öz təsdiqini tapdı.

Əyriçayın vadisindəki “Qıpçaq təpələri” isə el arasında deyildiyi kimi, həqiqətən qədim yaşayış yeri idi. Əraziyə baxış zamanı hər yerdə saxsı qırıntılarına rastlanırdı. Elə ilkin təd-

---

[101] Murad Uraz, Türk mifolojisi, İstanbul, 1967, 160 s.

[102] Məmmədli A. Azərbaycanın Şimal-Qərb bölgəsinin tarixi abidələri, Bakı, 2013, s.28, 228 s.

qiqat zamanı müxtəlif dövrlərə: orta əsrlər, antik və tunc dövrlərinə aid olan saxsı materialları tapıldı. Nəzərə alaq ki, hətta müxtəlif mikrolitlərə (kiçik ölçülü və vulkanik şüşədən – obsidiandan hazırlanan əmək alətləri) də rastlanır. Bildiyimiz kimi, mikrolitlər orta daş dövründən (Mezolit) etibarən qədim insanların istifadə etdiyi və vulkanik şüşədən hazırlanan kiçik ölçülü kəsici alətlərdir. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları Taleh Məmmədov və Elşən Abdurrəhmanovun iştirakı ilə bir neçə il əvvəl bu ərazidə aparılan ilkin arxeoloji tədqiqatlar və qoyulan şurflar da, bu ərazinin qədim şəhər tipli yaşayış yeri olduğunu təsdiq edirdi. Ərazidən tapılan saxsı materialları erkən orta əsr və antik dövrə, hətta daha qədim dövrə aiddir. Son dərəcə əhəmiyyətli strateji mövqedə yerləşən Qıpçak təpələri şərq və cənub-şərqdən təbii yarğan (Əyriçayın yatağı...) vasitəsilə qorunur. Zəngin bitki örtüyü və heyvanat aləmi (bu ərazi indi də kənd əhalisinin ov yeridir) hələ ən qədim dövrlərdən etibarən burada ibtidai insanların yaşaması üçün daha əlverişli şərait olmuşdur. Orta tunc dövründən etibarən şəhər tipli yaşayış yerləri inkişaf edərək daha da böyümüş, Qanıx çayının sahili boyunca şəhərlər meydana gəlmiş, bu şəhərlər arasında ticarət yolları çəkilmiş və sonralar transqafqaz ticarət yoluna çevrilmişdir. Antik dövr müəlliflərinin verdiyi məlumatlar da, bizim ilkin tədqiqat zamanı əldə etdiyimiz saxsılar və topladığımız çöl materialları da bunu təsdiq edir. Qıpçak və Oncallı kənd sakinlərinin bildirdiyinə görə, bu ərazilərdə əkin zamanı müxtəlif bəzək əşyaları və metal pullar da tapılır. İnformatorlardan Vəliyev Vəli Qədim oğlunun təsadüfən tapdığı metal pullardan biri VI əsrə aid Sasani pullarının Xosrov Ənuşirəvana aid olduğu müəyyən edildi. Maraqlı cəhət budur ki, Qanıx boyu qərbə doğru irəlilədikcə daha öncə elmi məqalədə işıqlandırdığımız orta əsr şəhərimiz olmuş Zəyəm şəhərinin xarabalıqları üzərinə çıxırıq.

Bölgədə geniş miqyaslı tədqiqat işlərinin aparılması erkən orta əsr Alban şəhər mədəniyyətini daha əhatəli öyrənməyə

imkan verərdi. El arasında “Almalıx” və “Sarı pir” ziyarətgahı kimi tanınan orta əsr məzarlıqlarının ətrafında çox iri məzarlara rastlanır. Bu gün də kənd sakinləri niyyət edərək bura gəlir, qurban kəsir, ehsan verirlər. Yaşlı sakinlər arasında bu ziyarətgahlar və daha öncəki qıpçak yurd yerləri haqqında çoxsaylı əfsanə və rəvayətlər mövcuddur. Bu rəvayət və folklor nümunələrini toplamaq, ayin və mərasimlərini izləməklə, daha maraqlı bilgi və məlumatlar əldə etmək olar. Antik dövr yunan coğrafiyaçısı Strabonun və digər antik müəlliflərin verdiyi məlumatlardakı kimi, insanlar indi də dağdağan və saqqız ağacı müəyyən qədər müqəddəsləşdirilir. Bu ağacı qırmaq, kəsmək günah hesab edilir.

Təəssüf ki, kəndin tarixi ilə bağlı nə tarixi etnoqrafik, nə də arxeoloji araşdırma aparılmayıb. İnsanların bu kənd haqqında bildiyi böyük sufi şairi Yunis İmrə və ustadı (mürşidi) Hacı Tapdıq Əmrənin məzarının burada olmasıdır. Bir neçə il öncə Türkiyə Prezidenti Abdulla Gülün bu məzara baş çəkməsi də insanların diqqətini bura yönəltmişdir. Qeyd edilməlidir ki, bu bir maraqdan irəli getmədi, tədqiqata çevrilmədi... Oncallı kənd sakinlərindən Vəliyev Vəli Qədim oğlu (1953-cü ildə anadan olub) kəndin tarixi, adət-ənənələri haqqında çox maraqlı bilgi verdi. Xeyir-şər adətlərində kənd sakinlərinin göstərdiyi birgəlik çox vacib elementləri özündə birləşdirir. Bu ailə, nəsil və kənd daxilində birliyi qorumaq üçün çox vacib bir xüsusiyyətdir. Hüzr düşən evə bütün kənd dəstək olur. Ən azı 10-dək qonşu öz evində plov bişirərək hüzr evinə yası olan ailəyə gətirir və qonşuların gətirdiyi yeməklər yüzədək insana yetərli olur. Bu proses yas düşən ailənin toxtamasına, bir az özünə gəlməsinədək davam edir. Kənddə ev tikiləndə kimsə çağırılmaz, ancaq kəndin yaşlıları gimgədə (kişilərin toplaşıb söhbət etdiyi yer – döngə) məsləhətləşərək hər gün 2-3 nəfəri tikilən evə köməyə göndərirlər. Evin damının yapıldığı gün isə 30 nəfərədək kənd sakini köməyə gəlir. Bu adət yüzillər, minillər öncə də var idi.

İnformator V.Vəliyevin verdiyi məlumata görə, qədim dövrlərdən bəri kənddə bu məhlə və obalar, çöl və talaların adı mövcud olmuşdur: (informator 1)

- Səngər məhlə, Bucaq məhlə, Təpələr məhlə və s.
- Nohur tala, Uzun tala, Sarı torpaq, Uzun çöl.

Kəndin ən adlı-sanlı yeməkləri: çığırtmalı xəngəl, qozlu-lobyalı döşəməli aş.

Evlərin və həyətlərin quruluşu da ənənəvi qədim Azərbaycan evlərinə uyğun olub. Təbii ki, orjinal xüsusiyyətləri ilə evlər çiy kərpicdən olurdu ki, bu, yayda evin sərin, qışda isə isti olmasını təmin edirdi. Evin divarında qat-qat rəflər, kəllədə (baş hissədə) isə buxarı olur, ev sahibləri varını buxarıda saxlayardı. "Yük yeri" – yorğan-döşəyin yığıldığı yer hər evdə olurdu.

Həyətlərin quruluşu da maraqlı idi: həyətin bir tərəfində qazmada tövlə olurdu. Belə tövlə heyvanları yayda istidən, qışda isə soyuqdan qoruyurdu. Üstü isə, qamışın bir növü olan çəyənlə örtülür. Çəyən çalıb evə də döşəyirdilər.

Kəndin ortasındakı "gimgə" ən vacib xəbərlərin müzakirə edildiyi, vacib qərarların verildiyi (kəndlə bağlı) söhbət və zarafat meydanı idi.

**İstifadə edilmiş ədəbiyyat:**

98. Yusifov Y.B., Kərimov Ş.K. Toponimikanın əsasları, Bakı.
99. Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı: Elm, 1991, 287 s.
100. Murad Adcı. Türk və Dünya: Munis tariximiz. Bakı Slavyan Universiteti, 2006, s. 223, 255 s.
101. Murad Uraz, Türk mifologisi. İstanbul, 1967, 160 s.
102. Məmmədli A. Azərbaycanın Şimal-Qərb bölməsinin tarixi abidələri. Bakı, AMEA Tarix İnstitutu, 2013, 228 s.

İnformator: Vəliyev Vəli Qədim oğlu, Qax r.-nu, Oncallı kənd sakini, 1953-cü ildə anadan olmuşdur.

VIII FƏSİL

# ŞİMAL-QƏRBİ AZƏRBAYCANIN TARİXİNƏ VƏ TARİXİ ABİDƏLƏRİNƏ YENİ BAXIŞ

Başdan-başa Azərbaycan Albaniyasının antik dövrünə aid maddi mədəniyyət nümunələri ilə zəngin olan Şimal-Qərbi Azərbaycan arxeoloji cəhətdən az öyrənilib. Doğrudur, son dövrlərdə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun səyi nəticəsində bölgənin tarixi ilə bağlı bir neçə elmi əsər, dissertasiya və monoqrafiyalar çap olunub. Buna Z.Cavadovanın[103], E.Lətifovanın[104], Ş.Əliyevin[105], A.Məmmədovanın[106], Ə.Məmmədovun[107], İ.Əliyevanın[108] və A.Məmmədlinin[109] dissertasiya və kitablarını misal göstərə bilərik.

---

[103] Cavadova Z.Ə. Şimal-Qərbi Azərbaycanın əhali tarixi və tarixi demoqrafiyası, Bakı, 2002, 191 s.

[104] Летифова Э.М. Северо-Западный Азербайджан: Илисуйское султанство, Баку, 1999, 109 с.

[105] Əliyev Ş.H. Şimal-Qərbi Azərbaycan: İngiloylar. Bakı: Təhsil, 2007, 280 s.

[106] Məmmədova A.Ə. Car-Balakən Camaatlığı, Bakı, 2007, 256 s.

[107] Məmmədov Ə.F. Şimal-qərbi Azərbaycan-Zaqatala dairəsi, Bakı, 2001, 116 s.

[108] Əliyeva İ.H. İngiloylar: zorakı xristianlaşdırmaya və gürcüləşdirməyə qarşı mübarizə tarixi, Bakı, 2020, 366 s.

[109] Məmmədli A.Ə. Azərbaycanın Şimal-Qərb bölgəsinin tarixi abidələri, Bakı, 2013, 228 s.

Məsələ burasındadır ki, qərb və şimal qonşularımız olan Gürcüstan və Dağıstanda yazılan əsərlərdə bölgəmizlə bağlı əsassız iddialar səsləndirilir və bu əsərlər daha çox antik və orta əsrlər dövrünü əhatə edir. Buna misal olaraq, İlya Adamia və Q. Qamxaraşvilinin[110], D.Musxelişvilinin[111], B.Arveladzenin[112], T.Aytberovun[113], X.Qeniçutlinskinin[114] əsərlərini göstərə bilərik. Zənnimcə, Azərbaycan tarixçiləri, xüsusilə arxeoloqları qarşısında duran əsas vəzifələrdən biri də Azərbaycanın şimal-qərb bölgəsinin qədim dövr və erkən orta əsrlər tarixini və bu dövrün tarixi abidələrini araşdıraraq elmi əsərlər yazmaq və bu əsərlərin köməyi ilə əhali arasında maarifləndirmə işi aparmaqdır. Təbii ki, bu əsərlərin rus və ingilis dillərinə də tərcümə edilərək çap edilməsi də çox vacib və təxirəsalınmaz işlərdəndir.

---

[110] Адамия И. (eyni adlı əsər Q.Qamxaraşviliyə də məxsusdur) Гамхарашвили Г. Саингило, Тбилиси, 1960.

[111] Мусхелишвили Д.Л. Из исторической географии Восточной Грузии, Тбилиси, 1982.

[112] Арвеладзе Б. «Армянские» или грузинские церкви в Грузии?! Тбилиси, 1996, 104 с.

[113] Айтберов Т. Закавказские аварцы, Махачкала, 2000, 196 с.

[114] Геничутлинский Х. Историко-библиографические и исторические очерки, Махачкала, 1992, 176 с.

Nəzərə alaq ki, qonşu dövlətlərdə, xüsusilə bölgəmizlə bağlı ərazi iddiasında olan dövlətlərdə bizim yazdığımızdan bir neçə dəfə çox əsərlər, kitablar yazılmışdır. Bu nöqteyi-nəzərdən, bizim hələ görəcəyimiz çox iş, araşdıracağımız çox mövzu var. Bir gerçəkliyi nəzərə almalıyıq: indiki Gürcüstanın şərq bölgəsində gürcü millətçi tarixçilərindən İ.Adamianın, D.Musxelişvilinin, B.Arveladzenin bölgənin tarixinə, arxeologiyasına və etnoqrafiyasına aid əsərləri əhalinin əksəriyyəti tərəfindən tanınır və hər kəsə təbliğ edilir. Son dövrlərdə AMEA-nın yuxarıda adları qeyd edilən müəlliflər tərəfindən yazılan və nəşr edilən elmi əsər və kitabları təqdirəlayiqdir. Lakin ötən əsrin 80-90-cı illərində bu bölgə ilə bağlı arxeoloq A.Qarahmədovanın əsəri var idi ki, o da yalnız elmi dairələrə məlum idi. Bu əsər yalnız ötən il gənc tədqiqatçılardan A.Adıgözəlovanın xüsusi fədakarlığı nəticəsində yenidən nəşr olundu. Təəssüf ki, tirajı yetərsiz idi. Lakin bizə qarşı yersiz ərazi iddiasında olanlar öz əsərlərini çox böyük tirajda nəşr etdirərək, əhali arasında yayırlar. Öz doğma diyarı ilə bağlı mövcud elmi araşdırmaların və siyasi durumun hansı vəziyyətdə olmasını, kimin nə yazdığını bilmək belə həssas bölgədə yaşayan insanların doğal haqqıdır. Çünki burada yaşayan insanlardır bölgə ilə bağlı hər cür yükü öz çiyinlərində çəkən.

Polietnik tərkibə malik olan Şimal-Qərbi Azərbaycan tarixi abidələri, adət-ənənələri, mətbəxi, inancları, dini etiqadları və bütövlükdə mədəniyyəti ilə çox zəngin bir bölgədir. Bu, yalnız bölgə insanlarının deyil, bütün Azərbaycanın, Qafqazın və dünyamızın sərvətidir.

Nəzərə alaq ki, fərqli dinlərə və fərqli mədəniyyətlərə sahib etnoslar hərəsi öz mədəniyyəti ilə bərabər, onlara xas olan ümumi cəhətləri də yaşatmaqdadır. Məsələn: Albaniyanın (Azərbaycanın) əski inanclarını – astral inanclarını: dağa-daşa tapınmanın ən əski yerlərindən biri olan Kürmükdəki (Qax rayonu ərazisində) qədim məbəd yerimiz bölgədə yaşayan bütün etnosların yenə də ziyarət yeridir.

Təəssüf ki, bizim diqqətsizliyimiz üzündən qədim Alban məbədinin yerində 1892-1894-cü illərdə zorakı xristianlaşdırma siyasəti aparıldığı zaman burada – Kürmükdə tikilmiş pravoslav kilsəsi 1989 və 2004-cü illərdə qərb qonşularımız olan gürcülər tərəfindən özününküləşdirməyə məruz qalıb, məbədin tavanı və üzərindəki xaçı dəyişdirilib[115].

Təəssüf ki, biz Alban kilsəmizin Həvari (Apostol) kilsəsi olduğunu, əcdadımız albanların isə xristianlığı erməni və gürcülərdən 270 il (mərhum akademik Z.Bünyadov öz tədqiqatları ilə bunu sübut edib) əvvəl qəbul etməsi faktını gərəyincə təbliğ edə bilməmişik. Məhz bu səbəbdəndir ki, qərb və şimal qonşularımız zaman-zaman gərəksiz iddialar səsləndirirlər: Balakən, Zaqatala və Qax rayonları ərazisindəki qədim Alban məbədlərinin mənsubiyyətini dəyişməyə, bunun ardınca da guya "həmin məbələrə istinad edərək" bizə qarşı ərazi iddiaları səsləndirirlər. Əgər biz öz Alban məbədlərimizə gərəyincə sahib çıxsaq, həm bu əsassız iddialara yer qalmaz, həm də çox böyük və zəngin mədəniyyətə sahib Alban tariximizi və mədəniyyətimizi dünyaya tanıtmış olarıq.

Digər tərəfdən, Alban mədəniyyətimizin, dövlətçiliyimizin yadigarı olan bu məbədlər vasitəsiylə çoxsaylı avropalı turistləri bölgəyə (Azərbaycana) cəlb edər, onların da vasitəsiylə tariximizi, mədəniyyətimizi təbliğ edər, ölkəyə – dövlət büdcəsinə əlavə gəlir gətirə, bölgədə yeni iş yerlərinin açılmasına, əhalinin güzəranının yaxşılaşmasına da şərait yarada bilər. İstərdim ki, bölgədəki, xüsusilə sərhəddə yerləşən Balakəndəki bəzi Alban məbədləri haqqında da bilgi verək.

Balakən rayonunun Tülü kəndində, rayon mərkəzinə çox yaxın bir ərazidə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqu N.Alışov tərəfindən qazıntısı aparılan qədim Alban məbədi bölgədə arxeoturizmin yaranmasına və genişlənməsinə yaxşı şərait yarda bilər.

---

[115] Mahir Əfəndi, Mehman İsmayılov. Kürmük Alban məbədi Azərbaycan mədəniyyətinin incisi, Bakı, 2017, 60 s.

Talalar kəndindəki “Nur kilsə” məbədi nəhəng zəng qülləsi ilə möhtəşəm bir Alban məbədidir. Təəssüf ki, bu əzəmətli qüllə uçub dağılmaq ərəfəsindədir. AMEA-nın Əlyazmalar İnstitutunun çox dəyərli, vətənpərvər alimlərindən S.Kərimov da bizimlə birlikdə bu məbədin son durumunun şahidi olmuşdu. Daha öncə isə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun rəhbərliyi böyük bir heyətlə bölgədə olmuş və akademik Y.Mahmudovun təşəbbüsü ilə bölgədəki tarixi abidələrlə tanış olmuşdular.

Qeyd etmək yerinə düşərdi ki, alimlərimizin bu cür səfərləri bölgə insanlarında da bu qiymətli tarixi dəyərlərimizə – abidələrimizə olan münasibəti xeyli dəyişdirmiş, diqqət və marağı artırmış, bizə əcdadlarımızdan miras qalan tarixi abidələrimizə sahib çıxma istəyini artırmışdı.

Rayonun Poştbinə kəndi ərazisindəki qədim Alban məbədi, Arılıqbinə məbəd kompleksinin qalıqları rayon mərkəzindən keçən beynəlxalq avtomobil yolunun yaxınlığında yerləşir və bu abidələrin tanıdılması, turistlərin cəlb edilməsi üçün daha əlverişlidir. Abidələrin arxeoloji cəhətdən öyrənilməsi bu imkanı daha da artırardı.

Yaxın günlərdə jurnalistlərlə birlikdə Poştbinə məbədində olarkən kənd sakinləri ilə apardığımız maarifləndirici söhbət çox böyük əks-səda doğurmuşdu. Məhz bu söhbətdən sonra kənd sakinləri meşə və dağlıq ərazidə daha bir neşə qədim Alban məbədinin, yaxud məbəd qalıqlarının yeri barədə məlumat verdilər. Bircə səfər, bir az diqqət görün neçə abidədən, neçə mətləbdən xəbər verdi...

Araşdırdıqca, öyrəndikcə antik dövr Yunan coğrafiyaçısı Strabonun Albaniyanın – Azərbaycanın bu bölgəsi haqqında dediyi fikrin nə qədər doğru olduğuna, yəni Azərbaycanın şimal-qərb bölgəsinin gerçəkdən "Məbədlər diyarı" (mənbədə – "çoxlu məbədi olan torpaq" adlandırır) olması faktına heyrətlənir insan. Təkcə Balakən rayonu ərazisində yüzdən çox qədim məbədin olduğu tərəfimizdən müəyyən edilmişdir. İndi görüləcək ən vacib işlərdən biri – əhalini maarifləndirmək üçün bu abidələrə gedən yollara abidə barədə məlumat lövhələrinin vurulması, bu abidələrdən bəzilərinin bərpa, heç olmazsa konservasiya edilməsi, abidələrlə bağlı böyük tirajlı buklet və məlumat kitabçalarının çap edilib yayılmasıdır.

Arılıqbinə məbədi Balakən rayonunda, beynəlxalq magistral yolun yaxınlığında, dağın ətəyində, çox mənzərəli bir yerdə yerləşir. Bu abidə beynəlxalq turizm marşrutuna daxil edilərsə (biz bu təklifi Turizm Agentliyinə vermişik), çox sayda turist cəlb etmək və onlarla iş yeri açmaq olardı. Bu məbəd, Qanıx çayı sahilindəki məşhur Darvaz məbədi ilə bəzi cəhətlərinə – tikinti materialı və memarlıq üslubuna – görə oxşarlıq təşkil edir və Alban məbəd memarlığının nadir nümunələrindəndir deyə bilərik.

Cicixana məbədi – Balakən rayonunun Katex kəndi ərazisində, dağın ətəyində, çox əlverişli təbii-coğrafi mövqedə yerləşir. Abidə öz quruluşuna, tikinti üslubuna görə daha qədimdir. Burada arxeoloji qazıntı aparılarsa, daha çox məlumat əldə etmək, əhalini daha çox maarifləndirmək olar. Təəssüf ki, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun işi burada sadəcə kəşfiyyat aparmaqla dayandı.

Azərbaycanın şimal-qərb bölgəsi həm siyasi, həm iqtisadi, həm də dini-ideoloji cəhətdən çox maraqlı və təkrarsız bir mədəni irsə sahibdir. Biz buradakı tarixi abidələri, xüsusilə məbədləri öyrənməklə, həm bu mədəni irsin gerçək sahibi olduğumuzu bir daha təsdiq etmiş olar, müasir mədəni dünya qarşısında Albaniyanın – Azərbaycanımızın xristian dövrü mədəniyyətini nümayiş etdirər, bölgədə turizmin inkişafına böyük təkan verə bilərik.

Digər tərəfdən, bölgədəki tarixi abidələrin öyrənilməsi, əhali arasında bununla bağlı maarifləndirmə işinin aparılması sərhədyanı bölgə olan bu yerlərdə əhali arasında vətənpərvərlik hissini artırar, həm də bu bölgə ilə bağlı əsassız iddialar səsləndirən bədxahlara tutarlı cavab vermiş olarıq.

Hər bir tarixi abidə bizə ulu əcdadlarımızın mirasıdır. Bu mirasa sahib çıxmaqla, onların bəzilərini bərpa etməklə, bu gözəl və zəngin diyarı "açıq tarix muzeyinə" çevirə bilərik.

**İstifadə olunmuş ədəbiyyat:**


103 . Cavadzadə Z.Ə. Şimal-Qərbi Azərbaycanın əhali tarixi və tarixi demoqrafiyası. Bakı: Altay, 2002, 191 s.
104. Летифова Э.М. Северо-западный Азербайджан: Илисуйское Султанство. Баку: Алтай, 1999, 109 с.
105. Əliyev Ş.H. Şimal-Qərbi Azərbaycan: İngiloylar. Bakı: Təhsil, 2007, 280 s.
106. Məmmədova A.Ə. Car-Balakən camaatlığı: Bakı, 2007.
107. Məmmədov Ə. Şimal-Qərbi Azərbaycan – Zaqatala dairəsi. Bakı: Adiloğlu, 2001, 116 s.
108. Əliyeva İ.H. Çar Rusiyasının Şimal-Qərbi Azərbaycanda dini siyasəti və ingiloylar (XIX əsr).
109. Məmmədli A.Ə. Azərbaycanın şimal-qərb bölgəsinin tarixi abidələri. Bakı: 2013, 228 s.
110. Адамия И., (eyni adlı əsər Q.Qamxaraşviliyə də məxsusdur) Гамхарашили Г. Саингило. Тбилиси: 1960.

111. Мусхелишвили Д.Л. Из исторической географии Восточной Грузии. Тбилиси: 1982.
112. Арвеладзе Б. «Армянские» или грузинские церкви в Грузии?! Тбилиси: 1996, 104 с.
113. Айтберов Т. Закавказские аварцы. Махачкала: 2000, 196 с.
114. Геничутлинский Х. Историко-библиографические и исторические очерки. Махачкала: 1992, 176 с.
115. Mahir Əfəndi, Mehman İsmayılov. Kürmük Alban məbədi Azərbaycan mədəniyyətinin incisi. "Saral" poliqrafiya, 2017, 60 s.

IX FƏSİL

# BÖLGƏDƏ "ƏL-ÜRVƏTÜL-VÜSQA" TƏŞKİLATI VƏ ONUN FƏALİYYƏTİ

Bolşeviklərin Azərbaycan Xalq Cümhuriyyəti hökumətini devirdikdən, hakimiyyəti ələ aldıqdan sonra Bakıda və bölgələrdə minlərlə günahsız insanı güllələdiyini və on minlərlə insanı Sibirə katorqaya və Qazaxıstanın susuz çöllərinə sürgün etdiyini bilirik.

Azərbaycanın Şimal-Qərb bölgəsində, Şəki yaxınlığında Qanlı qobuda öz azadlığını, öz milli dəyərlərini qorumaq istəyən yüzlərlə insanın qanı axıdılmış, həyatlarına son qoyulmuşdu.

İlk qırğınlar səngiməmiş, bölgədə öz milli dövlətçilik ənənələrini yenidən bərpa etmək istəyən vətənpərvər insanlar açıq fəaliyyət göstərməyin mümkün olmadığını görərək gizli fəaliyyətə (o zaman yeraltı fəaliyyət də deyirdilər - M.A.) keçməyə məcbur olmuşdular. Cümhuriyyətin qurucusu M.Ə.Rəsulzadə mühacirətə getmişdi və milli yönümlü qüvvələrə Mirzə Bala Məmmədzadə rəhbərlik edirdi.

Cümhuriyyətçilərlə əlaqədar fəaliyyətinə görə Şimal Buzlu Okeandakı katorqaya 20 il müddətinə sürgün edilmiş Katex kənd sakini, 1912-ci ildə anadan olmuş Əşrəfəddin İbrahim oğlu Dibirov bildirirdi: 1924-cü ilin yazında Zaqatalanın "Balakən qapı" adlanan yerində, Qızıldiş Heydər adlı şəxsin evində Nuru Paşanın da iştirakı ilə gizli iclas keçirilmiş, bolşeviklərin qurduğu "Allahsız Sovet hökuməti"ni devirərək, Xalq Cümhuriyyəti hökumətini yenidən bərpa etmək üçün "Əl-Ürvətül-vüsqa" adlı təşkilat, daha doğrusu, "Müsavat"ın yerli təşkilatı yaradılmışdı[116].

---

[116] İnformator: Dibirov Əşrəfəddin İbrahim oğlu, 1912-ci il doğumlu (2004-cü ildə vəfat etmişdir).

Onun sözlərinə görə, bu ad müqəddəs kitabımız olan "Quran"dan götürülmüşdü və mənası "möhkəm kök, sarsılmaz birlik" idi. İnformator, özü də "Əl-Ürvətül-vüsqa" üzvü olan Ə.Dibirov gizli fəaliyyətə keçmiş "Müsavat" rəhbəri M.B.Məmmədzadə ilə əlaqə saxlayan "Əl-Ürvətül-vüsqa"nın rəhbəri Məhəmməd Tahir bəy və Blüşov İbrahim bəy olduğunu bildirirdi. Təşkilatın fəallarından biri, Peterburq Universitetinin İqtisadiyyat fakültəsini bitirmiş Bəşir Qalacov idi. Bu şəxs, AXC dövründə (1918-1920-ci illərdə) M.Ə.Rəsulzadənin təklifi ilə Milli Ordunun Artilleriya Korpusunun yaradılmasında çox böyük köməyi olmuş və 1920-ci ildə Gəncədə sonadək erməni-bolşevik birlikləri ilə vuruşaraq şəhid olmuş miralay Daniyal Qalacovun qardaşı idi[117]. ( şəkil 26)

Müsavatın yerli təşkilatı olan "Əl-Ürvətül-vüsqa"nın fəallarından Car və Taladan Hacı Abdulla, Baqqa Abdulməcid, Blüşov İbrahim, Katexdən İbrahim və Abdulsalam Dibirovlar, Hənifədən (Balakən) Molla Şərif Qazıyev və digərləri olmuşlar.

Hakimiyyəti ələ aldıqları ilk andan bolşeviklər terroru (özləri "qırmızı terror" deyirdilər və bəzi mənbələrdə də belə adlandırılır) o qədər kütləviləşdirmişdilər ki, "Əl-Ürvətül-vüsqa" rəhbərləri də buna qarşılıq vermək, bolşevikləri qorxudaraq, onların törətdiyi qırğınları azaltmaq üçün daha bir gizli təşkilatı – "kommunistlərin terror qrupu"nu yaratmış və son dərəcə cəsur, qorxunun nə olduğunu bilməyən Blüşov İbrahim onun rəhbəri təyin olunmuşdu. (şəkil 54)

"Əl-Ürvətül-vüsqa" rəhbəri Məhəmməd Tahir bəy ( şəkil 53) İbrahim bəylə birlikdə vaxtaşırı Bağçasaraya (Krıma) gedir, oradan şap edilmiş gizli vərəqələr, M.B.Məmmədzadənin təlimatlarını, "Əl-Ürvətül-vüsqa"nın ("Müsavat"ın yerli təşkilatı) üzvlük vəsiqələrini gətirərdilər. Təşkilatın üzvlük vəsiqəsi "Quran"a and içdikdən sonra verilir və ailə üzvlərindən də gizli saxlanılırdı.

[117] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, Bakı, 1990.

1994-cü ildə Əşrəfəddin İbrahim oğlu ilə görüş zamanı atası İbrahim bəyin balakənli Molla Şərifə ərəbcə yazdığı məktubu bizə təqdim etmişdi. Molla Şərifin oğlu, 1919-cu il doğumlu Qazıyev Hacı müəllimlə müsahibə zamanı ailənin bunlardan qəti xəbərsiz olduğunu bildirirdi. Molla Şərifin digər oğlu, 1923-cü il doğumlu İsmayıl Qazıyevin sürgündə olduqları illərə həsr etdiyi "Sürgün həyatımız" adlı qeydləri ilə tanış olduğumuz zaman bir daha buna əmin olduq. Qeyd etmək yerinə düşər ki, Balakəndə və ətrafda dürüst, halal və ədalətli, son dərəcə savadlı bir riyaziyyatçı olmuş İsmayıl Molla Şərif oğlu Qazıyevin "Sürgün kitabı" adlandıra biləcəyimiz iri həcmli dəftərlərini oxuduqca bolşeviklərin qəddarlığını, qan donduran vəhşiliklərini daha aydın görə bilirik...

1927-ci ildə Molla Şərifin evinə gələn bölgənin NKVD rəhbərləri olan Ü.Şabanbəyov, Z. Balaxinski və bir də Bakıdan gələn daha böyük rütbəli hökumət adamı camaatı toplayaraq, səksən nəfərin adını oxuyaraq, onların "kulak" (qolçomaq) olduğu üçün sürgün ediləcəyini bildirmişdi. Molla Şərif isə deyir: "qolçomaq o adama deyilir ki, başqasının əməyini mənimsəsin. Burada isə beləsi yoxdur. Çünki hər kəs özü əkib-becərir, öz əlinin zəhməti ilə dolanır" [118].

Müasirlərinin, o cümlədən Hacı və İsmayıl Qazıyevlərin dediyinə görə, o gündən sonra gizli casuslar onu izləmiş və bir xainin əli ilə Paşanda vurmuşdular. Vəziyyətin çıxılmaz olduğunu görən Molla Şərifin qardaşı Qurban isə gizli yollarla Türkiyəyə gedir və 1976-cı ilədək İqdırda Qarakosada yaşamışdır[119].

Molla Şərifin vurulmasından sonra, onun ailəsi Qazaxıstana sürgün edilmiş və İsmayıl Molla Şərif oğlu Qazıyevin

---

[118] Məmmədli A. Tarixin yaddaşı: "Qırmızı bataqlıqda" yaşıl ruhlar, Bakı, 1994, s.28, 46 s.

[119] İnformator: Qazıyev Kamil İsmayıl oğlu, 1965-ci ildə anadan olmuşdur.

"Sürgün həyatımız" adlı dəftərlərində bundan geniş bəhs edilmişdir [120].

Zorakı kollektivləşdirmə dövründə (1927-1930-cu illər) Şəki-Balakən bölgəsində əhalinin böyük əksəriyyəti əkinçiliklə məşğul olurdu və bu insanların mal-qarası, torpağı əlindən alındıqca etirazlar artır, üsyan havası duyulurdu. Gərginliyi hiss edən hökumət dairələri də tədbir görməyə çalışır, əhali arasında nüfuzu olan, sözü eşidilən hər kəsi həbs edirdi. 1912-ci il doğumlu Əşrəfəddin Dibirov, atası İbrahim və böyük qardaşı Absaləddin də həbs edilərək, o zaman DPZ adı ilə tanınan (dom politiçeskix zaklyuçonnıx) siyasi məhbuslar saxlanan həbsxanaya salınırlar.

"Əl-Ürvətül-vüsqa" təşkilatının fəallarından olan İbrahim Dibirova 25 il iş verildi və elə həbsxanada vəfat etdi. Əşrəfəddin bəy isə 3 il sonra həbsdən qayıtdı. Lakin 1937-ci il avqustun 18-də yenidən həbs edilərək, Şimal Buzlu Okeanda "Medvejiye qorı" adlanan və siyasi məhbuslar saxlanan həbs düşərgəsinə (konslagerə - M.A.) göndərilir. Ona həmin vaxt dəbdə olan "pantürkist, panislamist, musavatist" damğası vuraraq, 20 illik sürgün etmişdilər... ( şəkil 23)

Cümhuriyyət dövründə Milli Ordunun Gəncədəki Artilleriya Korpusunun rəhbərliyində olmuş və M.Ə.Rəsulzadənin 1923-cü ildə Türkiyədə nəşr etdirdiyi "Azərbaycan Cümhuriyyəti: keyfiyyəti, təşəkkülü və şimdiki vəziyyəti" adlı əsərinin "Azərbaycan qurbanlarından bir listə" bölümündə adını hörmətlə xatırladığı Daniyal Qalacovun qohumlarından Mais Qallacov (şəkil 26) 30-cu illərin qırğınlarını atası Hacı kişinin sözləri ilə belə xatırlayırdı: Evimiz milisin yaxınlığında idi və hər gecə oradan güllə səsləri gəlirdi. Bilirdik ki, neçə dənə güllə atılsa, demək o sayda adam öldürülürdü. Ən dəhşətlisi bu idi ki, gecə güllələnəcək adamlara gündüz milisin həyətində öz əli ilə quyu qazdırır və gecə vurub ora salırdılar [121].

---

[120] Qazıyev İsmayıl Molla Şərif oğlu. "Sürgün həyatımız" dəftəri.
[121] Məmmədli A. Göstərilən əsəri, s.36-37.

Cümhuriyyət dövrünü xatırlayan 1900-cü il doğumlu Məmmədova Həlimət Mollaəli qızı 1930-cu ildə bölgədə baş vermiş antisovet üsyanını yatırmağa gələn rus əsgərlərinin amansızlığını belə ifadə etmişdi: "Vastaniyaya (üsyana) qalxan adamları zirehli maşınla gələn ruslar ot kimi biçirdilər. Bayrambinədə qorxusundan qoyun küzlərində gizlənən sadə adamları, hətta oğul-uşağı da güllələdilər"[122].

Həlimət nənə Cümhuriyyət dövrünü (1918-1920) belə xatırlayırdı: "Dinsiz Sovet hökuməti gələndən sonra, hamı əvvəlki dövrü (Cümhuriyyət dövrünü) istəyirdi. Çox gözəl idi o vaxt... Hər şey bol idi. Adamlar firavan yaşayırdılar. Əkib-becərdiyimizdən hökumətə lap az "naloq" verirdik. Gözəl hökumət idi o hökumət". Bu, M.Ə.Rəsulzadənin rəhbərliyi ilə qurulan Milli Hökumətə – Cümhuriyyətə olan sevginin, güvənin ifadəsi idi...

Başqa bir şahid belə anladır: "Rusların qabağını kəsmək üçün Mehdi körpüyə gedən çinar boylu qardaşım vuruldu. Onu gətirən kəl arabasından ayaqları sallanıb yerə dəyirdi. Qardaşım təşkilat üzvü idi" (burada "Əl-Ürvətül-vüsqa" nəzərdə tutulur - M.A.) [123].

Ötən əsrin 30-cu ilində bölgədə baş verən antisovet üsyan insanların həyatında dərin iz qoymuşdu. Ən dəhşətlisi bu idi ki, üsyanda iştirak edənləri ailəsinin, uşaqlarının gözü qarşısında güllələyirdilər ki, hamı qorxsun, uşaqlar bu qorxu travması ilə böyüsün və kimsə bir daha Sovet hökumətinə qarşı çıxmağa cəsarət eləməsin. Güllələnmə başa çatandan sonra, güllələnənlərin bütün ailəsi elə oradanca arabalara mindirilərək Zaqatala qalasına aparılır və bir müddət sonra Yevlağa və oradan "tovarnı" vaqonda Bakıya, daha sonra gəmi ilə Qazaxıstana, Türkmənistana, Sibirə (o zaman "gedər-gəlməzə" deyirdilər) aparırdılar. "Əl-Ürvətül-vüsqa" üzvlərindən biri də Gözəlov Hacı

---

[122] İnformator: Məmmədova Həlimət Mollaəli qızı, 1900-1998-ci illərdə yaşamışdır.
[123] Məmmədova Məryəm Mustafa qızı, 1890-1986-cı illərdə yaşamışdır.

Baxış olmuşdu. O, 1930-cu il fevralın 4-də güllələnmiş, ailəsi isə Qazaxıstana sürgün edilmişdi[124].

**İnformator və ədəbiyyat:**


116. Dibirov Əşrəfəddin İbrahim oğlu, 1912-2004.
117. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, Bakı, "Elm", 1990, s. 98.
118. Məmmədli A. Tarixin yaddaşı: Qırmızı bataqlıqda yaşıl ruhlar, Bakı, "Sabah", 1994.
119. Qazıyev Kamil İsmayıl oğlu 1961, Qazıyev Nazim İsmayıl oğlu 1965.
120. İsmayıl Molla Şərif oğlu, "Sürgün həyatımız" dəftərləri.
121. Məmmədli A. Göstərilən əsəri, s. 36-37.
122. Məmmədova Həlimət Mollaəli qızı, 1900-1998.
123. Məmmədova Məryəm Mustafa qızı, 1890-1980.
124. Gözəlova Taman Baxış qızının dedikləri nəvəsi Taralov Eyvaz Səfər oğlunun dilindən qeydə alınıb.


[124] İnformator Taralov Eyvaz Səfər oğlu məlumatı nənəsi Gözəlova Taman Baxış qızından (1919-2016) almışdır.

X FƏSİL

# TARİXİ VƏ ƏDƏBİ QAYNAQLARDA TƏNBUR

*Tənbur türk musiqisində istifadə olunan simli alətdir. Tarixi boyu müxtəlif forma və ölçülərdə istifadə edilən tənbur XVII əsrin sonlarında Osmanlı dövründə tarixin inkişafını sürətləndirmiş, XVIII əsrdə isə yeni forma və ifa imkanları ilə şöhrət qazanmışdır. Türk xalq musiqi aləti tənburun mənşəyi haqqında çoxlu əfsanələr, eləcə də onun necə yaranması haqqında çoxlu rəvayətlər mövcuddur. Tənbur türk sözü olub, "uzun boyunlu, yay və ya tütəklə çalınan simli alət və türk klassik musiqisinin əsas alətlərindən biri" mənasını verir. Tənbur orta əsrlərdə Azərbaycanda geniş yayılmış və "Şirvan tənburu" adı ilə məşhurlaşmışdır. Şirvan tənburu armud formasına malikdir və saz tipli alətlər qrupuna aiddir. Çox sadə quruluşlu iki, bəzən üç simdən ibarət musiqi aləti hazırda Yaxın Şərq və xüsusilə Orta Asiya xalqları arasında geniş yayılmışdır. Mənbələrdə göstərilir ki, tənbur Uzaq Şərqdən Qərbədək böyük bir coğrafi ərazidə müxtəlif forma və adlarla yayılıb. Bu musiqi alətindən Orta Asiya türk xalqları geniş istifadə etmişdir. Qazaxlarda "dombra", qırğızlarda "dombura", özbəklərdə "dombrak", türkmənlərdə "danbura", Türkiyədə isə "tanbura" kimi tanınmışdır. Hətta bir çox Qərb xalqları arasında "dombra", Azərbaycanda isə əsrlər boyu tənbur adı ilə məşhur olmuşdur. Təbrizlilər bu alətə xüsusi rəğbət bəslədikləri üçün onu "Şirvan-Təbriz tənburu" da adlandırırdılar. Azərbaycanda tənbur ifaçılığı XIX əsrin ikinci yarısından etibarən tənəzzülə uğramış və onu saz aləti əvəz etmişdir.*

## Giriş

Tarixi və ədəbi qaynaqlarda tənbur musiqi alətinə dair kifayət qədər maraqlı məlumatlar öz əksini tapmışdır. Tədqiqata cəlb etdiyimiz istər tarixi mənbələrdə, istərsə də bədii əsərlərdə sadəcə bu musiqi aləti barədə deyil, onda ifa edən şəxslər barədə də məlumatlar vardır. Xüsusilə də Səfəvilər dövrü ilə bağlı zəngin mənbələrdən biri olan, İsgəndər bəy

Münşinin müəllifi olduğu "Tarixi aləmarayi Abbasi", yəni "Dünyanı bəzəyən Abbasın tarixi" əsərini qeyd edə bilərik. İki kitabda tərcümə edilərək çap olunan bu əsər həm şair, həm də tarixçi alim olan Şahin Fazil tərəfindən Azərbaycan oxucusuna təqdim edilmişdir. Bu mənbə ilə yanaşı "Dastani Əhməd Harami" əsərindəki tənbura dair məlumatları da qeyd etmək lazımdır. XIII əsr Azərbaycan poeziyasının ən gözəl nümunələrindən biri olan "Dastani-Əhməd Harami" doğma dilimizdə qələmə alınmış ilk məsnəvi kimi qiymətlidir. Müəllifi bəlli olmayan bu əsər əruz vəznində, sadə və aydın dildə yazılmışdır [2]. Tənbur Azərbaycanın məşhur şairləri – İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Nizami Gəncəvinin əsərlərində tez-tez xatırlanan musiqi alətlərimizdəndir. Azərbaycan xalqının ən qədim yazılı abidəsi olan Kitabi-Dədə Qorqud dastanında da yeri gəldikcə tənburun adına təsadüf edirik. Bütövlükdə xalqımızın milli-mədəni sərvəti olan bu musiqi alətinin müxtəlif növ mənbələr əsasında tədqiqi onun Azərbaycan xalqının soykökü ilə nə qədər sıx bağlı olmasını sübut etməyə imkan verəcəkdir.

## Tənbur nədir?

Tənburla bağlı daha təfsilatlı məlumatı Abbasqulu Nəcəfzadənin tərtib etdiyi lüğətdə öz əksini tapan "Bağdad tənburu" [9, s. 32], "Şirvan tənburu" [9, s. 175], "Dütar" [9, s. 81], "Setar" [9, s. 160], "Çahartar" [9, s. 56], "Pənctar" [9, s. 149], Şeştar" [9, s. 171], "Sənc" [9, s. 163], "Tənbur" [9, s. 181], "Tənburi-türki" [9, s. 182] başlıqlı yazılardan əldə edirik. Bu yazılardan bəlli olur ki, Şərqdə ən geniş yayılan simli, mizrabla çalınan alətlərdən biri olan tənburun bütün növləri Azərbaycanda yayılmışdır. Qeyd edək ki, tənburun ən qədim növü bir simli olmuş, daha sonra iki simli növü (dütar) yaradılmışdır. Daha sonra 3 simli (setar), 4 simli (çahartar), 5 simli (pənctar), 6 simli (şeştar) növləri də meydana çıxmışdır. Bəzən isə alət hansı coğrafi ərazidə inkişaf edibsə, o yerin adı ilə də tanın-

mışdır. Məsələn, Şirvan tənburu, Xorasan tənburu, Bağdad tənburu, tənburi-türki və sair [9, s. 32]. Bağdad tənburu haqqında alim, musiqişünas Əbu-Nəsr Məhəmməd ibn Uzluq ibn Tərxan əl-Fərabi (865-950) məşhur "Kitab-ül-musiqi-ye kəbir", yəni "Böyük musiqi kitabı" əsərində ətraflı məlumat vermişdir. Ə.Fərabidən sonra azərbaycanlı musiqişünas Səfiəddin Əbdülmömin ibn Yusif ibn Faxir Urməvi (1230-1294) də "Kitab əl-ədvar", yəni "Mahnılar kitabı" adlı əsərinin 7-ci fəslində Bağdad tənburunun çalğı qaydaları və üsulları barədə məlumat vermişdir [9, s. 32-33]. Tənburun Çahartar növü barədə İran musiqşünaslı Ruhulla Xaliqinin verdiyi məlumatlara əsaslanan A.Nəcəfzadə yazır ki, çahartar Şah İsmayıl Xətainin atası Şeyx Heydər tərəfindən icad edilmişdir. Osmanlı səyyahı Övliya Çələbi isə "Səyahətnamə"sində XVII əsrin ən məşhur çahartar ifaçısı Muradağa Naxçıvanlının adını qeyd etmişdir. O, həm də bu musiqiçinin Osmanlı sultanı IV Murad tərəfindən İstanbula köçürülməsi barədə məlumat vermişdir. Uzun qola və armudabənzər çanağa malik çahartar 4 simdən ibarətdir. Simlərin ikisində əsas melodiya ifa olunur, digər 2 simdən isə ahəngdar musiqi fonu yaratmaq üçün istifadə edilir. Son illərdə Azərbaycanda çahartardan musiqiçi Sidqi Mustafayev istifadə edirdi [9, s. 56-57]. Çahartar Çartar kimi də tanınırdı [9, s. 58]. Tənburun bir digər növü olan dütar iki simli olub Ə.Xaqani, N.Gəncəvi, M.Füzuli, Həbibi və başqa şairlərimizin şeirlərində vəsf olunmuşdur. Tənburun 3, 4, 5 və 6 simli növlərinin məhz dütar əsasında formalaşdığı bildirilir [9, s. 81-82]. Şirvan tənburu da dütardır. Şirvan tənburunu "Azərbaycan dütarı" da adlandırırlar. Alətin diapazonu kiçik olduğundan tez sıradan çıxmışdır [9, s. 175]. Tənburun sənc adlanan növü isə yeddi simlidir. Tənburun bu növü dövrümüzə qədər gəlib çatmamış və unudulmuşdur [9, s. 163]. Tənburun 3 simli növü olan setar da mənbələrdə də tez-tez xatırlanır. Hətta XVII əsrdə Azərbaycanda səfərdə olmuş Engelbet Kempfer, Övliya Çələbi səyahətnamələrində ölkəmizdə bir sıra musiqi alətləri ilə yanaşı bu

musiqi alətinin də adını xatırlayırlar. Aləti ifaçı sinədə tutaraq dırnaqla səsləndirir [9, s. 160].

Çalğı alətlərimizin tədqiqatçısı Aslan Məmmədov Cənubi Azərbaycanın Cığamış şəhərində tapılmış saxsı qaba istinadən e.ə. VI minillikdə Urmiya bölgəsində tənburabənzər alətlərdən istifadə edildiyini bildirir [7, s. 22]. "Böyük türk musiqisi ensiklopediyası"na istinadən A.Nəcəfzadə yazır ki, tənbur 5 min il əvvəl şumer türkləri tərəfindən pantur adı ilə istifadə olunmuş və pantur tənburun atası hesab edilmişdir [9, s. 181].

## Mənbələrdə tənbur

Azərbaycan Səfəvilər dövlətinin mövcud olduğu dövrdə Səfəvi şahlarının və bəylərbəyilərin sarayında musiqiçilərdən ibarət qruplar var idi. Həmin dövrdə kamança, ud, cəng, tənbur və çahartar səslənir, musiqiçilər və xanəndələr azad çalıb – oxuya bilirdilər. Bu dövrdə cəmiyyətdə kübar, əsilzadə hesab edilmək üçün şeir, sənət və musiqidən hali olmaq gərək idi. I Şah Abbasın özünün bəstələdiyi təsnif və melodiyalar olmuş, o özü musiqi alətlərində ifa etmişdir. Hətta bu barədə İsgəndər bəy Münşi "Dünyanı bəzəyən Abbasın tarixi" əsərində belə yazırdı: *"O, (Şah Abbas) aləmin məlum və qeyri-məlum (motəaref və ğeyre-motearef) bir çox dillərini bilir və hər tayfa ilə onun öz dilində danışır. Fars şeirini yaxşı bilən şah şeiri yaxşı da başa düşür, ondan bəhrələnir, hətta bəzən özü də şeir yazır. Musiqidə, elmi-ədvarda söz verməkdə və ona əməl etməkdə dövrün ən qabaqcıl adamıdır. O həzrətin bəstələdiyi bəzi ahəng və havalar musiqiçilər (əhle-saz) yanında məşhurdur, çalğıçıların dillərinin əzbəridir"* [8, s. 639].

Səfəvi sarayında təşkil olunan musiqi məclislərini əks etdirən miniatürlərdə təsvir olunan musiqi alətləri özü bir tədqiqat mövzusudur. Tarixi mənbələrdə Azərbaycanın qədim musiqi alətlərindən biri olan tənbur və həmin alətdə ifa edənlər haqqında məlumatlar vardır.

Altaylardan Macarıstana, Qafqazdan Anadolu və Təbrizədək bir arenada yayılan bu qədim simli alət – təmbur, tənbur, dambur, dombra kimi qismən dəyişən formada səslənsə də, "Əhməd Harami" dastanında tənbur kimi qeyd edilir:

"Çalınırdı neyü dəmbürü tənbur
İçilir idi dolu abi-əngur." [2, s.85].

Yaxud da əsərin bir başqa yerində belə qeyd olunur:

"Şu kimsələr çalardı udi, tənbur
Gözəl məhbubələr hər birisi hur [2, s.88]".

Ümumiyyətlə, Əhməd Harami dastanında "tənbur, ud, dünbür, nağara, davul, ney, şeştə (şeştar), saz qopuz və s. musiqi alətlərindən geniş bəhs edilir [2, s.15].

M.Füzulinin əsərlərində ellərimizin zərb məsəllərində adı çəkilən alət ən qədim simli musiqi alətlərindən olan tənburdan bəhs edilir. Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin əsərlərində də tənburdan bəhs edilir:

*"Xoşdur, əgərçi cümləsi bir yerdə cəm ola,*
*Avazi-cəngü nəğməvü tənbur ilən rübab"* [12, s. 25].

Yaxud da bir başqa qəzəlində Nəsimi belə yazırdı:

*"Dəfü çəngü ciğanə, nayü tənbur*
*Düzülsün daima zilü bəm olsun."* [12, s. 172].

Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, Qətran Təbrizinin və bir çox orta əsr klassiklərimizin əsərlərində tənbur haqqında maraqlı məlumatlar var. Orta əsr miniatür sənəti əsərlərində bir sıra musiqi alətləri ilə yanaşı tənburun da geniş təsviri verilmişdir. 1530-cu ildə ustad Soltan Məhəmmədin çəkdiyi "Zöhhakın edamı" rəsmində yerdə oturub iki telli, qısa qollu Şirvan tənburu çalan musiqiçinin təsviri verilmişdir.

İsgəndər bəy Münşi öz əsərində tənbur ifa edən Şahsuvar, Ustad Sultan Mahmud Tənbureyi, Mirzə Hüseyn Tənbureyi barədə qısaca məlumat vermişdir: *"Şahsuvar: Dörd simli tənbur (tənbure-çəhartar) çalırdı. Ustadlıqda vahid olduğunu deyərdi, amma çalğısının bir o qədər də məzəsi və yapışıqlığı yox idi...; Ustad Sultan Mahmud Tənbureyi: Bu peşədə misilsiz və*

*bənzərsiz idi. O, Məşhəddə Sultan İbrahim Mirzənin xidmətində idi və oradan heç yana getmədi; Mirzə Hüseyn Tənbureyi: O, bu peşədə bərk inkişaf etdi. İraqda ən yaxşı tənburnəvaz idi, amma cavan yaşında bəqa aləminə yollandı* [8, s. 340]".

"Dədə Qorqud dastanı"nda tənbur oğuz elinin həm dərdli, həm də sevincli günlərinin yaraşığı hesab edilirdi.

Azərbaycanın şimal-qərb bölgəsində, Balakən – Zaqatala bölgəsində bu gün də tənbur musiqi alətindən geniş şəkildə istifadə olunur. Tənburla oxunan ağız ədəbiyyatını – haylanı və "hayla məclisləri"ninin (Balakən – Zaqatala bölgəsində hayla gecələri deyilir - A.M.) quruluşunu, xüsusilə bu musiqi məclisinin – hayla gecələrinin başlanğıc haylasını araşdıranda məlum olur ki, buradakı "Çay daşı, çaylaq daşı" ifadəsi bəşər övladının ilk rabitəli nitq yaratmağa başladığı daş dövrünün məhsuludur. Çünki o zaman insanın ilk silahı, ilk əmək aləti daşdan (çay daşından, çaylaq daşından) hazırlanmış və hətta "daş kultu", daşa sitayiş yaranmışdı.

Balakəndə tənburla (bölgədə dambur deyilir - A.M.) oxunan və bədahətən oxunan ağız ədəbiyyatına, folklor janrına "hayla" deyilir ki, bu da dara düşən, köməyə ehtiyacı olan, həyəcanlanan (kədərdən, yaxud sevincdən) insanın fikrini ifadə tərzi olmuşdur.

Tənbur 2 simli (bəzən 3 simli də olur), 5 ladlı çox qədim musiqi alətidir və bu günədək öz arxaik formasını saxlamaqdadır. Bölgədə yaşayan bütün etnoslar bu musiqi alətindən istifadə edir. Başqa cür desək, tənbur adlı musiqi aləti bölgədəki etnosları, onların mədəniyyətini bir-birinə bağlayan vasitəyə çevrilib.

Maraqlıdır ki, İsgəndər bəy Münşi öz əsərində tənbur ifa edənlər haqqında yazarkən bu musiqi alətinin 4 simli olması haqqında da məlumat vermişdir [8, s. 340].

Sənətşünas alim Abbasqulu Nəcəfzadə öz tədqiqatlarında [9-11] tənburla bağlı araşdırmalar aparmış və bu musiqi aləti

barədə XIII yüzilliyə aid "Əhməd Hərami" dastanında da bəhs edildiyini göstərmişdir.

Məhəmməd Füzulinin "Səhhət və Mərəz" əsərini tədqiq edərkən aydın olur ki, şair də bu musiqi alətindən bəhs etmiş, insan orqanizmindəki prosesləri (maddələr mübadiləsini) tənbura tay tutmuş və cismimizdəki proseslərin qorunmasını "tənbur kimi" saxlamağa bənzətmişdir. Məsələn, o, 3 telli tənburun adını xatırlayır [3, s.70], daha sonra tənburun dili ilə belə qeyd edir:

*"Bu dəm dilə gəldi o xəbər sahibi, Tənbur,*
*Üz tutdu əzəl, sonra mənə söylədi: "Bir dur!*
*Gəl olma, – dedi, – gizli qalan pərdəni yırtan,*
*Vurma üzümə, olsa da eybim, sən, ey İnsan* [3, s.149]*".*

Yaxud da əsərinin bir başqa yerində şair yazırdı:

*"Rəğbət elə Tənbura, Müğənni, gəl ürəkdən,*
*Rəğbət açarilə ona da bir qapı aç sən."*

XVI yüzillikdə haqqında bəhs etdiyimiz musiqi aləti – tənbur çox böyük arenada yayımışdı və dövrün ən böyük söz ustadı Füzuli də öz əsərində insan orqnizminin tarazlığını ifadə etmək üçün bu aləti (tənburu) örnək göstərmişdir.

## Balakən – Zaqatala bölgə folklorunda tənbur aləti

Qədim tənbur alətinin müşayiəti ilə oxunan bayatı tipli şeirlərə Balakən – Zaqatala bölgəsində "hayla" deyilir. Bu da "haylamaq", "çağırmaq" sözündən götürülmüşdür.

Folklorşünas Ə.Cəfərzadə "Cəlaliyyə" əsərində tənburun qədim türklərə, xüsusilə hunlara məxsus musiqi aləti, haylanın da onlara məxsus söz sənəti olduğunu yazırdı [1, s. 13].

Qeyd edildiyi kimi, tənburla müşayiət olunan və haylalar oxunan mərasimlər el arasında "hayla gecələri" adlanırdı. Tənbur çalıb "hayla" oxuyana "haylaçı" deyilirdi. Bu gün də Balakəndə haylaçı Bilal, haylaçı Sənəm, haylaçı Nizam, haylaçı Əfqan deyilir. Bu sənətin üstünlüyü budur ki, bu gün də hayla

məclisində bədahətən deyişmə olur və hazırda onun ən istedadlı nümayəndəsi haylaçı Əfqan Rəhmanovdur. Bildiyimiz kimi, aşıq sənətində əsrlər boyu mövcud olmuş "deyişmə" artıq tarixə qovuşub. Ancaq Balakəndə hayla sənətində Əfqanın simasında çox orjinal olmaqla yüksək bir səviyyədədir.

XX yüzilliyin ortalarınadək bu sahədə ən məşhur sima haylaçı Sənəm olmuşdu. O, 1928-ci ildə I Aşıqlar qurultayında iştirak etmiş və şirvanlı Aşıq Bilalla deyişməsi çox məşhur olmuşdu.

Tənbur ilk yaranışında 5 bənd (lad) olmuşdur ki, biz bunu qədim bir folklorda da görürük:

*"Bazardan aldım qəndi,*
*Damburumun beş bəndi* [5, s. 55]".

Zaman keçdikcə tənbur 7 bəndli və 3 simli olmuşdur.

Bu misralardan görünür ki, hələ XIV yüzillikdə tənbur el-obamızın kədərli və sevincli günlərində tək halda insanların hər halının ortağı olursa, böyük musiqi məclislərində birlikdə xoş avaz yaradan musiqi alətlərindən biri kimi istifadə olunur.

Balakən – Zaqatala bölgəsində ərəbdilli epiqrafik abidələri və mənbələri araşdıran M.Şabanoğlu öz əsərində [14] tənbur sözünün Müqəddəs kitabımızda, hədislərdə işlədildiyini bildirir. Onun fikrinə görə, "tembr" (səs tonu) sözünün yaranması da "tənbur"la bağlı ola bilər.

Məhz böyük sufi şairi Yunis İmrənin, Nəsiminin və Məhəmməd Füzulinin öz əsərlərində "tənbur" ifadəsini işlətməsi təsadüfi deyildi [13, s. 93].

Bəzi məlumatların yazılı mənbələrlə tutuşdurulması bizə ölkəmizin ərazisinin əzəldən ən qədim Türk yurdu olduğunu, prototürklərin bu ərazidə zəngin maddi və mənəvi mədəniyyət nümunələri yaratdığını söyləməyə əsas verir [4, s. 660].

Son illərdə tənburla bağlı tədqiqatlar artmaqdadır. Unudulmaqda olan bu mədəni irsimizə yenidən nəfəs verilməyə çalışılır. Məsələn, müəllifi olduğum "Haylada unudulan tariximiz və təmbur" [5], "Haylalarda yaşayan tariximiz" əsərlərində [6],

son illərdə çapdan çıxan Ləman Vaqifqızının (Süleymanova) "Dambur ifaçılığı və hayla yaradıcılığı" mövzusunda monoqrafiyasında [15], Abbasqulu Nəcəfzadənin müəllifi olduğu "30-cu illərdə tar alətinə qarşı olan hücumlar, xalq qəhrəmanları – Babək tənbur, Koroğlu saz çalmaqla dövrlərinin gözəl ifaçıları olublar" adlı məqaləsi və başqa bu kimi əsərlər məhz bu artan marağın bariz nümunəsidir [11, s. 14].

Ümumiyyətlə, ən qədim dövrlərdən bəri insanların həyatını danışdığı, dərdini söyləyib, sevincini bölüşdüyü ilk simli musiqi aləti tənbur Azərbaycan incəsənət nümunələri içərisində özünəməxsus yer tutur. Tənburla oxunan ən qədim ağız ədəbiyyatı "hayla" adlanır və bu, rabitəli nitqin yarandığı ilk dövrün məhsuludur. Çünki hayla məclisində ilk oxunan başlanğıc hayla "Çay daşı, çaylaq daşı" adlanırdı. Bu, insanın təbiətdə ilk əmək aləti, ilk silah düzəltdiyi xammal idi. Ən vacibi isə, bu alət qədimliyinə, son dövrün yüksək texniki inkişafına rəğmən öz arxaik formasını saxlamışdır. Digər tərəfdən, hələ də haylaçılar arasında deyişmələr vardır. Odur ki, bu alətin mənsubiyyətini, tarixiliyini qorumaq, onu bəşəriyyətin qədim və çox qiymətli mirası kimi qorumalıyıq. Bu bizim mədəniyyət tariximizə və mədəni mirasımıza sahib çıxmamızın bir nümunəsi olardı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Cəfərzadə, Ə. Cəlaliyyə. – Bakı: Gənclik, 1983. 464 s.
2. Dastani-Əhməd Hərami. Tərtib edən, ön sözün müəllifi və lüğətin müəllifi Əlyar Səfərli. Bakı: Şərq-Qərb, 2004, 120 s.
3. Füzuli, M. Əsərləri: [6 cilddə] Bakı: Şərq-Qərb, c. 5. 2005. 224 s.
4. Memmedli, A. Azerbaycan özelinde türk folkloru // Uluslararası Türk Sanatları, Tarihi ve Folkloru Konqresi Sanat Etkinlikleri, Konya: 14 mayıs – 16 mayıs, 2016, s. 659-663.

5. Məmmədli A. Haylada unudulan tariximiz və təmbur. Bakı: Bakı Kitab Klubu, 2013. 120 s.
6. Məmmədli A. Haylalarda yaşayan tariximiz. Bakı: Turxan NPB, 2013. 106 s.
7. Məmmədov A. Simli musiqi alətlərimiz. Bakı: Nafta-Press, 2001. 72 s.
8. Münşi İ. Dünyanı bəzəyən Abbasın tarixi: Tarixe-aləmara-ye-Abbasi: [2 kitabda] /İsgəndər bəy Münşi Türkman; fars dilindən çevirən Ş. Fərzəliyev; layihənin rəhb., red. və ön sözün müəl. Y. M. Mahmudov; üz qabığının dizaynı N. Əliyeva; AMEA, A. A. Bakıxanov ad. Tarix İn-tu. Bakı: Təhsil, k.1. 2010. 1109 s.
9. Nəcəfzadə A.İ. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti. Bakı: Min bir mahnı MMC, 2004, 224 s.
10. Nəcəfzadə A.İ. Tənbur "ailəsi"nin bir üzvü – Balakən damburu. Bakı: Konservatoriya, 2015. №4 (30), s.108-117.
11. Nəcəfzadə. A. 30-cu illərdə tar alətinə qarşı olan hücumlar Xalq qəhrəmanları – Babək tənbur, Koroğlu saz çalmaqla dövrlərinin gözəl ifaçıları olublar. Xalq cəbhəsi. 2015, 13 iyun. s. 14.
12. Nəsimi İ. Seçilmiş əsərləri: [2 clddə] Bakı: Lider nəşriyyat, c. 1. 2004, 336 s.
13. Orucov Z. Əbru sənəti və sirləri. Bakı: Mənəvi dəyərlərin təbliği fondu, 2019. 112 s.
14. Şabanoğlu M. Talanın yastı yolu. Bakı: Azərbaycan Milli Ensiklopediyası, k. 1. 2001. 140 s.
15. Vaqifqızı L. Dambur ifaçılığı və hayla yaradıcılığı. Bakı: Elm və təhsil, 2020. 263 s.

ABSTRACT

**TANBUR IN HISTORICAL AND LITERARY SOURCES**

Tanbur is a plucked stringed instrument used in Turk music. The tanbur, which has been used in various forms and sizes throughout its history, accelerated the development of history at the end of the 17th century in the Ottoman period, and it gained fame in the 18th century with its new form and performance ability. There are many legends about the origins of the Turkish folk musical instrument tanbur, as well as many stories about how it was created. The tanbur musical instrument is thought to have originated during the Sumerian period and was later used by many other peoples. Tanbur are those who play the instrument. Tanbur is a Turk word that means "a long-necked, stringed instrument played with a bow or a plute, and one of the main instruments of Turkish classical music." The drum was widespread in Azerbaijan in the Middle Ages and became famous under the name "Shirvan Tanbur". Shirvan tanbur is of pear shape, and belongs to the family of saz-type instruments. A musical instrument with very simple structure with two, sometimes consisting of three strings now widely spread among the peoples of the Middle East and Central Asia in particular. Sources show that tanbur was distributed over a large geographical area from the Far East to the West under various forms and names. This musical instrument was widely used by the Turkic peoples of Central Asia. It is known as "dombra" among the Kazakhs, "dombura" among the Kyrgyz, "dombrak" among the Uzbeks, "danbura" among the Turkmens and "tanbura" in Turkiye. Even among many Western peoples it has been known as "dombra", and in Azerbaijan it has been known as tanbur for centuries. It was also known as the "Shirvan-Tabriz Tanbur" because the people of Tabriz adored it. Tanbur performance in Azerbaijan declined

beginning in the second half of the nineteenth century, and was replaced by the saz instrument.

**Keywords:** tanbur, hayla, folk music, war ritual.

РЕЗЮМЕ

# ТАНБУР В ИСТОРИКО-ЛИТЕРАТУРНЫХ ИСТОЧНИКАХ

Танбур – щипковый струнный инструмент, используемый в тюркской музыке. Танбур, который использовался в различных формах и размерах на протяжении всей своей истории, ускорил развитие истории в конце 17 века в османский период, а в 18 веке он получил известность благодаря своей новой форме и исполнительским возможностям. Существует множество легенд о происхождении турецкого народного музыкального инструмента танбур, а также множество историй о том, как он был создан. Считается, что музыкальный инструмент танбур возник в шумерский период и позже использовался многими другими народами. Танбури – это те, кто играет на инструменте. Танбур – это тюркское слово, которое означает «струнный инструмент с длинной шеей, на котором играют смычком или флейтой, и один из основных инструментов турецкой классической музыки». Барабан был широко распространен в Азербайджане в средние века и прославился под названием «Ширванский танбур». Ширванский танбур имеет грушевидную форму и относится к группе инструментов сазового типа. Музыкальный инструмент очень простого строения с двумя, иногда состоящими из трех струн, ныне широко распространенный у народов Ближнего Востока и особенно Средней Азии. Источники показывают, что танбур был распространен на большом географическом пространстве от Дальнего Востока до Запада под разными формами и названиями. Этот музыкальный инструмент широко использовался тюркскими народами Средней Азии. Он известен как «домбра» у казахов, «домбура» у кыргызов, «домбрак» у узбеков, «данбура» у туркмен и «танбура» в Турции. Даже у многих западных народов она была из-

вестна как «домбра», а в Азербайджане он известен как танбур на протяжении веков. Он был также известен как «Ширвано-Тебризский Танбур», потому что жители Теб-риза обожали его. Игра на танбур в Азербайджане пришла в упадок, начиная со второй половины девятнадцатого века, и была заменена инструментом саз.

**Ключевые слова:** хайла, народная музыка, военный ритуал.

# NƏTİCƏ

Beləliklə, oxuculara təqdim olunan bu monoqrafiyada son dərəcə zəngin təbiətə və tarixə malik, lakin hələ də tarixinin az araşdırıldığı bir bölgənin – Azərbaycanın şimal-qərb bölgəsinin tarixinin bəzi məqamlarına işıq tutmağa çalışdıq.

Bu müqəddəs torpaqlarımızın tarixini araşdırdıqca, dövlətçilik ənənələrinin nə qədər qədim olduğuna, ən qədim dövrlərdən bəri mövcud olmuş adət-ənənələri, milli-mənəvi dəyərləri özündə yaşatdığına dair bilgilərlə tanış olduqca, qürur duymamaq mümkün deyil.

Bölgədə qədim şəkli yazı növü olan piktoqramların aşkar olunması, buranın ən qədim dövrlərdən bəri məskunlaşma yeri olduğunu, burada qədim sivilizasiyaların da mövcud olduğunu üzə çıxardı.

Balakən rayonunun Katex kəndi ərazisində, "Baş axı" və "Sarı qaya" ərazisində aparılan arxeoloji kəşfiyyat zamanı burada ibtidai icma dövrünə aid qədim insan məskəni olduğu müəyyən edilmişdi. Ehtimal etmək olar ki, bu ibtidai insan məskənində çay daşı üzərində "döymə üsulu" ilə yazılmış piktoqramlar sonralar Godobqara obasında inşa edilən məscid binasının divarına "künc daşı" kimi qoyulmuşdu.

Tədqiqata cəlb edilən bölgənin tarixi abidələrinin araşdırılması nəticəsində ən əski inanclarla bağlı tapınaqlardan xristian məbədlərinədək, xristian məbədlərindən nadir memarlıq inciləri olan minarəli məscidlərədək bütün məbədlərdə bölgəyə xas memarlıq ənənələrinin olduğu müəyyən edildi.

Belə bir nəticəyə gəlmək olar ki, Albaniyada Şərq xristianlığına məxsus olmuş memarlığın bütün növləri inkişaf etmişdir. Alban xristianlığının ilk dövrü üçün səciyyəvi olan kilsə tikililəri uzunsov ibadət zalı olan birnefli məbədlərdən ibarət olmuşdur və bu tarixi gerçəklik Şəkidən Balakənədək bütün bölgədə izlənilir.

Bu cür məbədlərin üstü iki qatlı sadə daşla örtülürdü. Albaniyada xristian memarlığı üslubunda "dairəvi məbədlər" adlandırılan xüsusi memarlıq da yayılmışdı və bu üslub yalnız albanlara aiddir. Bu halın da öz səbəbi var idi. Belə ki, Albaniyada dairəvi məbədlərin tikilməsi xristianlıq dövrünə aiddir və tədqiqatçıların fikrincə, bu məbədlər Günəşə, Aya ibadət etmiş albanlar tərəfindən, yəni hələ xristianlığın tam mənimsənilmədiyi, səma cisimlərinə ibadətlə qarışdırıldığı dövrlərdə tikilmişdir. Bu cəhət erkən xristianlıq dövrünün alban xaçlarında da özünü büruzə verir.

Albaniyada xristian memarlığının ən kütləvi forması sövmələr olmuşdur. Sövmələr karvan yolları kənarlarında kiçik ibadətgah rolu oynasalar da, onlar əslində memorial (xatirə) tikililəri olmuşdur. Alban memarlığında həm mehrablı, həm də mehrabsız sövmələrə təsadüf olunur. Sövmələr bir qayda olaraq dairəvi, zərif naxışlara malik olan nişandaşlarla bəzədilirdi.

Alban dövrünün ən mürəkkəb tikililəri isə bazilikalar və monastırlar hesab olunur. Ermənilər tərəfindən ən çox mənimsənilməyə məruz qalmış abidələrin bir qismi də onların "monastır" adlandırdıqları alban bazilikalarıdır. Azərbaycanda geniş sahəli, mürəkkəb formaya malik olan müasir dövrümüzə qədər yaxşı formada gəlib çıxmış bazilikaların tikilməsi VI-VIII yüzilliklərə təsadüf edir. Adətən belə bazilikaların şərqində ovalvari mehrab olur, qərb tərəfində isə xüsusi sütunlar üzərində zəng qülləsi qurulurdu. Balakəndəki Arılıqbinə məbəd kompleksi bu cür alban abidələrinə misaldır.

Qafqazda köklü tarixləri olmayan ermənilər burada süni şəkildə öz "tarixi izlərini" yaratmaq məqsədilə alban abidələrini mənimsəmək, onların etnik mənsubiyyətini dəyişmək yolunu tutmuşlar. Ən çox mənilsənilməyə məruz qalan abidələr isə məhz xristianlıq dövrü abidələridir.

Lakin tədqiqatçılar göstərir ki, Albaniyanın hətta xristianlıq dövrü abidələri də nə qriqoryanlığa, nə də "erməni mədəniyyətinə" və mənşəyinə uyğun gəlmir.

Xristianlıq dövrünün alban abidələrinin ermənilər tərəfindən mənilsənilməsinin bir səbəbi də onların himayədarı olan Rusiyanın vasitəsi ilə 1836-cı ildə Alban apostol kilsəsinin ləğv edilərək qriqoryan kilsəsinə tabe edilməsidir. Bu zaman Alban apostol kilsəsində yazılmış və saxlanan bir çox salnamələr və tarixi qeydlər qriqoryan kilsəsinə aparıldı, mənimsənildi, saxtalaşdırılması mümkün olmayan dəyərlər isə məhv edildi. Təbiidir ki, oraya aparılmış çoxsaylı tarixi qeydlər və s. erməni dilinə tərcümə edildi, orijinalları isə məhv edildi.

Şimali Azərbaycanın şimal-qərb bölgəsindəki tarixi abidələr xalqımızın zəngin irsidir. Onların tədqiqi, təbliği və qorunması isə Vətən qarşısında borcumuzdur.

Bölgənin tarixinə ümumi nəzər, buradakı toponimlərə azacıq diqqət yetərlidir ki, bölgənin tarix boyu Azərbaycanın ayrılmaz parçası olduğuna əminlik yaransın.

Bölgənin tarixi abidələri içərisində islam dövrünün abidələri xüsusi yer tutur. Birincisi, ona görə ki, hal-hazırda da bu bölgədə ən kiçik kənddə də inşa tarixi ən azı bir əsrdən çox olan məscidə təsadüf edirik. Bu abidələr bölgənin müsəlman əhalisi üçün sadəcə bir ibadət yeri deyildir. Həmin abidələr həm elm, mədəniyyət məktəbi, həm də mübarizə meydanı olmuşdur.

İslam dövrünün abidələri polietnik tərkibi olan bölgə əhalisi üçün ortaq inanc və etiqad, ortaq din və ortaq mədəniyyət nümunələridir. Məhz islam dini ilə bağlılıq yüzilliklər boyu yadellilərə qarşı mübarizəsində bu bölgədəki insanlarının sarsılmaz birliyinin yaranmasında əsas rol oynamışdır.

Bu birlik sadəcə dini vəhdət deyildir. O, ictimai-siyasi və hərbi birliyə çevrilmiş və bütün Qafqazda baş vermiş hadisələrə təsir edəcək, onu dəyişdirəcək gücə sahib olmuşdur. Məlumdur ki, 1695-ci ildə Qoloda kəndində gürcülər və müsəlman əhali arasında baş vermiş döyüş Car-Balakən camaatlığının yaranmasında həlledici hadisə olmuş, gürcü yürüşlərinə qarşı mübarizədə üstünlük Car-Balakən camaatlığının əlinə keçmiş-

di. Tezliklə gürcü knyazları da bu faktla barışmaq məcburiyyətində qalmış və Car-Balakən camaatlığına xərac ödəmişlər.

Bölgə əhalisinin etnik tərkibi müxtəlif olsa da, islam dininə etiqad etmələri onların arasında çox güclü birliyin yaranmasına səbəb olmuşdur.

Təsadüfi deyildir ki, islam dininə bağlılıq bölgədə zaman-zaman dini rəhbərlərin, şeyxlərin yetişməsinə, xanəgahların, sonralar isə ziyarətgahların yaranmasına səbəb olmuşdur.

Sufilik, nəqşbəndilik kimi dərin dini-fəlsəfi cərəyanların bölgədə yayılması burada həmin ideyaların ardıcıllarını da meydana çıxarmışdı. Bu isə öz növbəsində bölgədə özünəməxsus islam memarlığının yaranmasına təkan vermişdi.

Şimali Azərbaycanın şimal-qərb bölgəsindəki məscidlərin və minarələrin tikilməsində istifadə edilmiş memarlıq üslubu, onların quruluşu burada mükəmməl bir islam arxitektura məktəbinin təşəkkül tapdığını göstərir. Balakən rayonunun mərkəzindəki, Mosul və Əliabad kəndlərindəki minarəli məscidlər kamil sənət nümunələridir. Burada müxtəlif həndəsi və nəbati ünsürlərlə yanaşı, ən qədim dövrlərdən bəri müxtəlif türk xalqlarında, o cümlədən Səlcuq dönəmində və islamda cənnətin səkkiz qapısına işarə olan səkkiz guşədən geniş istifadə edilmişdir.

Bu məscidlərdəki minbərlərin şəbəkələri, ibadət zalındakı sütunları da səkkizguşəlidir. Hətta Katex kəndinin yuxarısındakı bölgədə ən qədim məscidin (üzərindəki lövhəyə görə bu məscid XIV yüzillikdə tikilmişdir - M.A) içərisində şabalıd tirindən hazırlanmış ağac sütunlar da səkkiztillidir.

XIX yüzilliyin əvvəllərindən başlanmış rus işğalı bölgədə inkişaf etməkdə olan islam memarlığına ciddi zərbə vurdu. Bu abidələrin çoxu vəhşicəsinə dağıdıldı.

Məlumdur ki, rus işğalına qarşı mübarizədə islam dini ideoloji silah, dini rəhbərlər və təriqət başçıları isə bu mübarizədə öncüllər olmuşlar. Odur ki, belə şəxslərlə bağlı olan evlər, digər binalar və xanəgahlar dağıdılmış, məscidlər viran

edilmişdir. Çünki bu yerlər azadlıqsevər bölgə insanlarının inandığı və tapındığı, ibadət etdiyi və düşmənə qarşı mübarizə üçün toplaşıb səfərbər olduğu ocaqlar idi.

Bölgədə islam dini yerli əhali tərəfindən qəbul edildikdən sonra burada yayılan dini fəlsəfi cərəyanlar və təlimlər üçün intizam, dini rəhbərə hörmət, Allaha qovuşmaq üçün zikr etmək ən vacib şərtlərdən hesab edilirdi. Bu cür inamı və etiqadı olan insanları isə dəyişmək, sındırmaq mümkün deyildi. Buna görə də rus işğalçıları, bu işğal prosesinə rəhbərlik etmiş hərbçilər ilk növbədə belə əqidəli insanların toplaşdığı yerləri dağıdır, qorxu və zorakılıq yolu ilə insanları itaətə gətirməyə çalışırdılar. İşğalçıların qəzəbinə gələn yalnız Vətənini, doğma yurdunu sevən, elinə-obasına və dininə bağlı olan insanlar deyildi. Bu insanların qurub-yaratdığı, ibadət üçün toplaşdığı və tapındığı təkrarsız islam memarlıq abidələri də hücum obyektinə çevrilmişdi.

Təbii və antropogen dağıntılara baxmayaraq, bu gün bölgədə islam dövrünə aid onlarla, hətta yüzlərlə qədim tarixi abidə qalmaqdadır.

Tarixi abidələr ulu babalarımızın bizə qoyub getdiyi əmanətlərdir. Bu əmanətlər, tarixi abidələr isə Azərbaycan xalqının əsrlər boyu təşəkkül tapmış simasıdır.

Bu abidələr qorunmalı, Azərbaycanın gələcək övladlarına təhvil verilməlidir.

Rusiyanın bölgəni işğalı buranın tarixində yeni bir mərhələni başlatdı, işğala qarşı azadlıq mübarizəsini, üsyanları alovlandırdı. Bu üsyanlar içərisində, Rusiyanın bölgədə apardığı zorakı xristianlaşdırmaya qarşı Hacı Murtuzun başçılığı ilə başlayan və bu amansız mübarizədə bura sürgün edilmiş polyakların da car-balakənlilərlə bərabər sonadək vuruşduğu, tarixə "Zaqatala üsyanı" adı ilə daxil olmuş üsyan çox böyük tarixi əhəmiyyətə malikdir. Polşada baş verən üsyandan sonra bura sürgün edilən üç yüzədək polşalının yaratdığı polyak kil-

səsinin – Kostelin keşişi, din xadimləri və xidmətçiləri öz kilsələrinin qapılarını üsyançılara açmışdılar.

Nüfuzlu din xadimlərinin, təriqət liderlərinin (xüsusilə, Nəqşbəndi təriqətinin) bütün üsyanlarda yaxından iştirakı, Rusiyanın bölgədə apardığı sosial-iqtisadi siyasətə, milli-dini zülmə qarşı mübarizədə bölgənin bütün xalqlarının birgə iştirakını təmin etmişdir.

Tədqiqat zamanı əldə etdiyimiz maraqlı və qürurlandırıcı məlumatlardan biri, bölgəyə göndərilmiş Fon Plottonun "Zaqatala dairəsinin təbiəti və əhalisi" adlı əsərində rastlandı. O yazırdı ki, bölgənin müsəlman kəndlərinin əhalisi Kaxetiyanın (Gürcüstanın - M.A.) xristian kəndlərinin əhalisindən daha savadlı və daha əxlaqlı idi.

Car-Tala camaatlığının tədqiqinə həsr edilmiş bölümdə, Camaatlığın 1752-ci ildə Ağdamçöl yığıncağında qəbul edilmiş "Qanunnamə"si ilk dəfə elmi ictimaiyyətə təqdim olunub.

Bölgənin qədim etnoslarından olan gellərin etnik-siyasi tarixinə, mədəniyyətinə həsr olunmuş fəsildə, gellərin (ingiloyların - M.A.) qədim Alban tayfalarından biri olduğu öz təsdiqini tapmışdır.

Qədim Alban tayfalarından olan gellərin (ingiloyların - M.A.) təsərrüfatının, məişətinin, adət-ənənəsinin və mətbəxinin araşdırılması göstərir ki, onlar müəyyən dövrlərdə gürcüləşdirilməyə məruz qalsalar da, öz qədim alban kökünü itirməmiş və bölgədə yaşayan digər xalqlar kimi daha çox ümumazərbaycan xarakterinə sahibdirlər. Bayramları, xeyir-şər adətləri, bir çox mərasimləri Azərbaycanda yaşayan digər xalqlarla demək olar ki, eynidir (xristian ingiloylarda xristianlıqla bağlı bəzi məqamları çıxmaq şərtilə... - M.A.).

Azərbaycanda yaşayan xalqlar Azərbaycanın ən qiymətli sərvətidir. Azərbaycanı burada yaşayan xalqları ilə bir gül çələnginə bənzətmək olar. Hər bir xalq öz mədəniyyəti, öz adət-ənənəsi ilə bu ümumi Azərbaycan mədəniyyətini zənginləşdirir.

Azərbaycanın şimal-qərb bölgəsinin qədim yaşayış evlərinin araşdırılmasına həsr olunmuş bölümdə, ən qədim dövrlərdən XX əsrədək bölgədə inşa edilmiş evlərin quruluşu araşdırılmış, evlərin təsnifatı verilmişdir. Evlərin daxili və xarici quruluşundakı dəyişikliklər, insanların məişətindəki, həyat tərzindəki dəyişikliyi, başqa cür desək, inkişafı izləməyə imkan verir.

"Qıpçaq və Oncallı kəndlərinin etnoqrafiyası və tarixi abidələri" fəslində el arasında "Qıpçaq təpələri" adlanan ərazidə apardığımız ilkin tədqiqatın nəticəsi olaraq, burada tunc, antik və erkən orta əsrlər dövrünə aid yaşayış yerinin olduğu, antik dövrə aid "şəhər tipli" yaşayış yerinin olduğu müəyyən edilmişdir. Əyri çayın vadisində, son dərəcə əlverişli təbii-coğrafi şəraiti, yarğanlar vasitəsilə ola biləcək qəfil hücumlardan qorunma imkanı buranı yüzilliklər, hətta, minilliklər boyu ulu babalarımızın yaşayış yerinə çevirmişdir. Təəssüf ki, son onilliklərdə, son əsrdə bu qədim yaşayış yeri tərk edilmişdir.

"Tarixi və ədəbi qaynaqlarda tənbur" fəslində, bölgədəki ən qədim simli musiqi aləti olan tənburdan və şifahi xalq ədəbiyyatının "Hayla" adlanan janrından bəhs edilmişdir. Bölgədə bu gün də el şənliklərinin bəzəyi olan tənbur aləti öz arxaik görkəmini saxlamışdır. Qədimdə iki simli, beş ladlı olan tənbur aləti qismən dəyişikliyə uğrayaraq, yeddi ladlı, iki simli, bəzən üç simli olmuşdur. Sənətşünaslar tərəfindən qismən araşdırılsa da, Azərbaycanın başqa bölgələrində az tanınan bu alət, Dədə Qorqudun, hətta daha qədim dövrün yadigarıdır.

Bölgədə tənburun müşayiəti ilə oxunan ağız ədəbiyyatının nümunəsi "hayla" adlanır ki, o, dərindən araşdırılarsa, bəlkə də bəşər övladının ən qədim folklor janrı olduğu ortaya çıxar.

Monoqrafiyanın sonuncu fəslində, bölgədə ötən əsrin 20-30-cu illərində baş vermiş antisovet üsyanı tədqiqata cəlb edilmişdir. Araşdırma nəticəsində xilaskar Qafqaz İslam Ordu-

sunun komandanı Nuru paşanın bölgədə olduğu, hətta üsyançılarla bir araya gələrək, məşvərətdən sonra birlikdə ibadət etdiyi kimi maraqlı fakt öz əksini tapmışdır. Bu görüş zamanı bölgənin milli ruhlu ziyalılarını, din xadimlərini, vətənpərvər insanları öz ətrafında birləşdirən təşkilat yaranmışdı.

Bildiyimiz kimi, Sovet hakimiyyəti qurulduqdan sonra ən böyük antisovet üsyanlarından biri burada baş vermişdi. Azərbaycanın hər yerində olduğu kimi, burada da bolşevik repressiya maşını çox amansızlıqla minlərlə insanı qətl etmiş, ailələri Sibirə sürgünə göndərmişdi.

Beləliklə, tarixşünaslığımıza töhfə hesab edilə biləcək, Azərbaycanın şimal-qərb bölgəsinin tarixinə aid xeyli yenilikləri özündə ehtiva edən daha bir elmi monoqrafiya elmi ictimaiyyətə təqdim olunur.

## YER VƏ ŞƏXS ADLARINA DAİR İZAHLAR

1. **Xəncəritən Qobu** – Balakən rayonunun Kortala kəndində köhnə çay yataq yeridir. 2010 və 2012-ci illərdə arxeoloq Nəsib Muxtarovun rəhbərliyi ilə burada arxeoloji qazıntılar aparılmış, e.ə. V-IV əsrlərə aid bir neçə nekropol tədqiq edilmişdir. Ötən əsrin ortalarında burada tunc dövrünə aid xəncər tapılmış və el arasında "Xəncəritən Qobu" adlanmışdır.
2. **Baş Axı** – Balakən rayonunun Katex kəndində, dağın ətəyində əkin yeri. 2010-cu ildə N.Muxtarovla arxeoloji qazıntı aparılmış, antik və daha qədim dövrə aid saxsı qablar və küp qəbir aşkar edilmişdir.
3. **Sarı Qaya** – Katexdə, Dəli çayın sağ sahilində qədim yaşayış yeri və mağara olan yer. Bura yaxın ərazidə qayalar üzərində piktoqramlar olmuş, sontadan məhv edilmişdir.
4. **Kostel** – XIX əsrdə Polşadan Zaqatalaya sürgün edilmiş polyaklar tərəfindən yaradılan kilsə. Bu kostel Za Zodor İbrahim qatala qalasının cənub-şərqindədir.
5. **Karla Serena** – XIX əsrin 2-ci yarısında Zaqatalada olmuş fransız qadın səyyah.
6. **Zodor İbrahim, Tintin Mahama (Məhəmməd)** – 1863-cü il üsyanının fəallarındandırlar. Balakən rayonunun Katex kəndində yaşamışlar.
7. **Zikrçilik, yaxud "cazbə"** – XIX əsrin 60-cı illərinin əvvəlində bölgədə formalaşan təriqət. Bu təriqətin rəhbərləri Hacı Murtuz və Carlı Zəngi Əfəndi olmuşlar. Onlar evdə, yaxud təbiət qoynunda toplaşır və Allahı zikr etməyə başlayırlar və getdikcə sürətlə zikr edirlər (cəzb olunana qədər).
8. **Knyaz Tarxanov** – 1850-60-cı illərdə Zaqatala hərbi dairəsinin rəisi olmuşdur.
9. **Lüdviq Mlokoseviç** – 1830-cu ildə Polşada baş verən üsyandan sonra bölgəyə sürgün edilmiş botanik, təbiətşünas. O, bölgənin flora və faunasını öyrənmiş, 1863-cü il üsyanında üs-

yançılara yaxından köməklik etmişdir. 1928-ci ildə Zaqatala təbiət qoruğu onun oğlu tərəfindən yaradılmışdır.

10. **Şeyx Almalı Mahmud Əfəndi** – XIX əsrin ortalarında Qaxın (o zamankı İlisu sultanlığının ərazisi) Almalı kəndində yaşamış və Nəqşbəndi təriqətinin ən böyük lideri olmuşdur. Bu təriqət onun dövründə özünün yüksəliş dövrünü keçirmişdir. Həştərxana sürgün edilmiş və orada vəfat etmişdir, məzarı Həştərxandadır və bu gün də təriqət tərəfdarları tərəfindən ziyarət edilir.

11. **Şeyx Talalı Əhməd Əfəndi** – Nəqşbəndi təriqətinin Mahmud Əfəndidən sonrakı lideri. Məzarı Zaqatalada, qədim Tala qəbristanlığındadır. Cənubi Qafqazın ən böyük məscidi olmuş Tala məscidinin tikilməsi onun adı ilə bağlıdır.

12. **Molla Bayram əl-Balakəni** – XIX əsrin ortalatında Balakənin Talalar kəndində yaşamış ilahiyyatçı alim.

13. **Molla Abdulla əl-Balakəni ət Talalı** – Molla Bayramın oğludur və o da dövrünün böyük İslam alimlərindən olub. AMEA Əlyazmalar İnstitutunda və bizim muzeyimizdə onun qələmindən çıxmış əsərlər, müxtəlif əlyazmalar vardır.

14. **Molla Məhəmməd əl-Balakəni** – Molla Abdulla əl-Balakəninin oğludur. 1947-67-ci illərdə Balakəndə dini başçı – İmam olmuşdur. 1930-cu ildə Qaltan məsciddə mədrəsə açmış və bir müddət sonra Sibirə sürgün edilmişdir. Sürgündən qayıtdıqdan sonra, yenidən təsərrüfatla və dinlə məşğul olmuş, xalq arasında çox böyük nüfuz qazanmışdı.

15. **Ağdamçöl** – Zaqatalanın Tala kəndi ərazisində, dağın ətəyində çöldür.

16. **Ağkilsə** – Balakən rayonunun Sarıbulaq kəndində yer adıdır. Yaşlıların dediyinə görə, burada ağ daşla (ehtimal ki, şirindaşla) tikilmiş əzəmətli bir Alban kilsəsi olmuş və Sovet dövründə dağıdılmışdır.

17. **Qıpçaq təpələri** – Qax rayonunun Qıpçaq kəndi ərazisində yerdir. Eneolit, tunc, antik və erkən orta əsrlərə aid saxsı qırıq-

ları, küplər tapılır. Ətrafda qədim ziyarət yerləri, saqqız ağacları vardır.
18. **Almalıx** – Qıpçaq kənd sakinlərinin əvvəl yaşadığı, indi tərk edilmiş ərazidə olan çox böyük məzarlıq və ziyarət yeridir.
19. **Sarı Pir** – Qıpçaq kənd sakinlərinin tərk etdiyi yaşayış yeri və eyni adlı ziyarət yeri.
20. **Balakən Qapı** – Zaqatalanın tarixi yeri, Balakənə çıxan qapının olduğu yer.
21. **Qızıldiş Heydər** – Zaqatalanın Balakən Qapı ərazisindəki ikimərtəbəli qədim evlərdən birinin sahibi olmuş, 1924-cü ildə Nuru Paşanın da iştirakı ilə milli qüvvələri öz ətrafında birləşdirən "Ürvətül Vüsqa" ("Müsavat"ın yerli gizli təşkilatı) adlı təşkilat burada yaradılmışdır.
22. **Əşrəfəddin Dibirov** – "Ürvətül Vüsqa" təşkilatının üzvü olmuş, 1930-cu ildə həbs edilib. 1937-ci ildə yenidən həbs edilərək 20 il katorqaya sürgün edilmiş vətənpərvər insan. Atası İbrahim və böyük qardaşı da həbs edilmişlər.
23. **Bluş İbrahim, Baqa Abdulməcid** – 1930-cu ildə baş verən anti-sovet üsyanının fəal iştirakçıları. Zaqatalanın Masex kəndi.
24. **Hacı Baxış Gözəlov** – XX əsrin 20-30-cu illərində Balakəndə ticarətlə, alqı-satqı ilə məşğul olan, 1930-cu ildə bölgədə baş verən üsyana rəğbət bəsləyən xeyirxah insan olmuşdur. 1930-cu ildə güllələnmişdir.
25. **Molla Şərif Qazıyev** – XX əsrin 20-30-cu illərində bölgədə nüfuzlu şəxs olub. Sovet hakimiyyətinin zorakılıqlarına, xüsusilə zorakı kollektivləşməyə qarşı olduğu üşün izlənilmiş və Paşan adlı yerdə casus tərəfindən vurulmuşdur.
26. **İsmayıl Molla Şərif oğlu Qazıyev** – Molla Şərifin kiçik oğludur. Atası öldürüldükdən sonra ailə sürgün edilmiş və İsmayıl sürgün həyatı ilə bağlı xatirələrini yazmış, acı sürgün həyatını anlatmışdır. O, sürgündən sonra təhsil almış və bölgədəki ən nüfuzlu ziyalılardan, ən yaxşı riyaziyyatçılardan biri olmuşdur.

27. **Hunbol şay** – Balakəndə dağlardan gələn, Gərəkli və Qullar (hər ikisi etnonimdən – tayfa adından yaranan toponimdir) kəndləri ərazisindən keçən çay. Qədim hun tayfalarından yadigardır, etnonimdən yaranan hidronimdir (hidronim – çay adı).
28**. Qaracıllı** – Katex və Kortala kəndlərində oba adıdır. Kortaladakı Qaracıllı obası, Katexdən köçüb gələnlər tərəfindən salınıb.
29. **Godobqara** – Balakənin Katex kəndində oba adıdır.
30**. Dəliçay** – Katex kəndində dərələrdən yığılan suyun yaratdığı çaydır, yağışlı günlərdə çox daşır, əkin-biçinə ziyan vurur. Bu səbəbdən də el arasında "Dəliçay" adlandırılır.
31. **Gəcər** – Balakən-Zaqatala bölgəsində bünövrəyə deyilir.
32. **Gəcər iməcisi** – bölgədə bir ev, bir dam tikilməyə başlananda, qədimdən bəri "iməci" adlanan el köməyi ilə qohum, qonşu yığışar, təməl qoyarlar. Bu adət bu gün də qismən yaşamaqdadır.
33. **Darvazbinə məbədi** – Darvazbinə adlı qədim yaşayış yerindəki Alban məbədi. Məbəd bişmiş qırmızı kərpiclə inşa edilmişdi.
34. **Tülü məbədi** – Balakənin eyni adlı kəndindədir. Buradakı məbədin altında daha qədim, düzbucaq şəkilli, təknefli Alban məbədi vardır. 2017-2021-ci illərdə arxeoloq Natiq Alışovun rəhbərliyi və antropoloq Vüsal Həsənovun iştirakı ilə arxeoloji qazıntılar aparılmışdır. Qazıntı zamanı məbədin şimal giriş qapısının önündə 3 ədəd sənduqə qəbir aşkar edilmişdir. Görünür, xüsusi mərasimlərdə burada dəfn edilmiş nüfuzlu şəxslərin nəşi üzərindən keçməklə günahlardan təmizlənirmişlər. Məbədin cənub-şərqində, ibadət zalından kənarda kişik kamera olmuşdur ki, məbədin kahin və xidmətçilərinin nəşi (meyiti) yüzillər boyu burada üst-üstə yığılmışdı. Bu Alban xristian məbədi, bölgənin ərəb işğalından sonra Bizans kilsəsi ilə yaxınlaşmağa məcbur olmuş və məbədin quruluşunda dəyişiklik edilmiş, yeni təriqətə uyğunlaşdırılmışdır – məbədin mehrab hissəsi içəridən və dışarıdan yarımdairəvi qövsvari şəkildə rekonstruksiya edil-

mişdir. Məbədin böyüklüyü və ətrafda şurf qoyulan yerlərdə tikinti qalıqlarının, saxsı və kərpic qırıqlarının tapılması bu məbədin bölgədəki əsas (mərkəz) məbədlərdən biri olduğunu deməyə əsas verir.

35. **Katex məbədi** – Balakən rayonunun Katex kəndinin dağlıq hissəsində, Kilsə çayın sol sahilində, Kilsə dağın nisbətən düzən hissəsində yerləşir. Tək nefli, xaçvarı formalı əzəmətli bir məbəddir. Məbədə Zaqatalanın Qəbizdərə kəndindən də gedilə bilir və bəzən Qəbizdərə məbədi də deyilir.

36. **Arılıqbinə məbədi** – Balakən rayonu ərazisində, eyni adlı dağətəyi ərazidə yerləşir. Məbədin ətrafında 4 hektar ərazini əhatə edən qoruma divarının qalıqları qalmaqdadır. Ərazidə başqa tikililərin qalıqları da vardır. Bu məbədin qərb tərəfində zəng qülləsinin olduğu, yerdəki sütun yerindən və qüllənin dağıntılarından görünür.

# XÜLASƏ

Azərbaycan yerləşdiyi coğrafi, strateji mövqeyinə və təbii ehtiyatlarının zənginliyinə görə tarix boyu böyük dövlətlərin, güclü imperiyaların diqqət mərkəzində olmuş, bu baxımdan Azərbaycanın şimal-qərb bölgəsi isə xüsusi əhəmiyyət kəsb etmişdir. Bölgədəki çoxsaylı qədim abidələrin bir qismi müəyyən mübahisələr obyektinə çevrilmişdir. Bu mübahisələrin başlıca səbəblərindən biri, bölgədəki qədim tarixi abidələrin, xüsusilə də xristian dövr məbədlərinin tarixşünaslığımızda lazımınca araşdırılmaması və elmi ədəbiyyatda gərəyincə öz əksini tapmamasıdır.

Təqdim olunan monoqrafiyanın "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın elmi əhəmiyyətindən bəhs edilmişdir.

Monoqrafiyanın I fəslində bölgədə aşkar edilmiş qədim şəkli yazıdan – piktoqramlardan bəhs edilmiş və onların öyrənilməsinin önəmi göstərilmişdir.

II fəsildə, XIX əsrdə bölgədə Rusiyanın yeritdiyi müstəmləkəçi siyasətə, xüsusilə də zorakı xristianlaşdırma siyasətinə qarşı baş verən üsyanlardan bəhs edilmişdir. Bölgəyə sürgün edilmiş polşalıların buradakı milli-azadlıq hərəkatında yaxından iştirakı, hətta, Zaqataladakı polyak kilsəsinin – kostelin 1863-cü il üsyanı zamanı üsyançıların əsas sığınacaqlarından, döyüş mövqelərindən birinə çevrildiyi faktı müəyyən edilmişdir.

Zorakı xristianlaşdırmaya qarşı mübarizədə üsyaşçıları səfərbər edən ideoloji təmayüllərdən biri, balakənli Hacı Murtuzun və carlı Zəngi Əfəndinin rəhbərlik etdiyi İslamda bölgəyə xas olan "Zikrçilik" hərəkatı olmuşdu. Mərasimdə getdikcə sürətlənən zikr zamanı "cəzb" halına çatır və inandıqları ideya, el-oba və Vətən üçün tərəddüd etmədən ölümə belə hazır olurdular.

III fəsildə, bölgənin və bütövlükdə Qafqazın tarixində önəmli rol oynamış Car-Balakən camaatlığının yaranması və fəaliyyətindən bəhs edilmiş, Camaatlığın 1752-ci ildə Ağdamçöl yığıncağında qəbul edilmiş “Qanunnamə” ilk dəfə elmi ictimaiyyətə təqdim olunmuşdur.

İngiloylarla bağlı IV fəsildə, bölgənin qədim tayfalarından olan qədim “gellər”dən, onların maddi və mənəvi mədəniyyətindən, adət-ənənəsindən bəhs edilmişdir.

Monoqrafiyanın V fəslində bölgədəki qədim evlərdən, yeni aşkar olunan qədim tarixi abidələrdən bəhs edilmişdir.

VI fəsildə bölgədə yeni aşkar olunmuş tarixi abidələrdən bəhs edilmişdir. Zəmbi kilsə, Darvaz məbədi, qədim Katex məbədi, Tağlı körpü elmi ictimaiyyətə ilk dəfə təqdim olunur.

Tədqiqat prosesində, VII fəsildə bölgədəki qədim yaşayış yerlərimizdən olan “Qıpçaq təpələri”ndə tapılan saxsı nümunələrinın buradakı şəhər tipli yaşayış yeri haqqında məlumat verən mənbə olduğu bildirilir.

Əsərin VIII fəsli, “Şimal-Qərbi Azərbaycanın tarixinə və tarixi abidələrinə yeni baxış” adlanır və burada həssas bölgə olan bu ərazinin tarixinin və tarixi abidələrinin öyrənilməsinin, bununla bağlı əhali arasında maarifləndirmə işinin aparılmasının vacibliyindən bəhs edilir.

Monoqrafiyanın IX fəslində Sovet hakimiyyətinin amansız repressiya maşınının bölgədə törətdiyi qətllərdən bəhs edilir. Burada 1930-cu ildə baş vermiş anti-sovet üsyanından ətraflı bəhs edilmişdir. Hətta, Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın bölgəyə gələrək, milli ruhlu vətənpərvər ziyalılar və fadailərlə görüşdüyü faktı öz əksini tapmışdır.

Təqdim olunan monoqrafiya Azərbaycan tarixşünaslığında yeni bir səhifə, Azərbaycanın, onun şimal-qərb bölgəsinin tarixini araşdıran tədqiqatçılar və maraqlanan şəxslər üçün solüstü kitabdır.

Monoqrafiyanın Sovet hakimiyyətinin amansız repressiya maşınının bölgədə törətdiyi qətllərdən bəhs edilən IX bölümün-

də 1930-cu ildə baş vermiş anti-sovet üsyanından da ətraflı yazılmışdır. Hətta Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanın bölgəyə gələrək, milli ruhlu vətənpərvər ziyalılar və fadailərlə görüşməsi faktı da öz əksini tapmışdır.

Təqdim olunan monoqrafiya Azərbaycan tarixşünaslığında yeni bir səhifə, Azərbaycanın, onun şimal-qərb bölgəsinin tarixini araşdıran tədqiqatçılar və maraqlanan şəxslər üçün stolüstü kitabdır.

# РЕЗЮМЕ

В силу своего географического, стратегического расположения и из-за богатых природных ресурсов Азербайджан исторически был в центре внимания. В связи с этим северо-западная зона Азербайджана имеет особенное значение из-за расположенных здесь многочисленных древних и средневековых памятников. Описание десятков исторических памятников этого региона впервые представлено научной общественности.

Во введении представлены актуальность темы, цель и задачи исследования, практическое и научное значение данной работы, источниковая база исследования и структура монографии.

I глава монографии рассказывает о недавно выявленных пиктограммах.

II глава монографии называется «Джаро-Белоканское Джамаатство». Здесь рассказывается о происхождении, деятельности и законах джамаатства.

В III главе рассказывается о борьбе против насильственной христианизации, а также о совместной борьбе местного населения и сосланных сюда поляков против Российской империи.

IV глава «Ингилойцы». Здесь рассказывается о древнем Албанском племени геллы (ингилойцы).

В V главе рассказывается о строении и структуре древних домов, расположенных в этой части Азербайджана.

В VI главе рассказывается о древних исторических памятниках, которые исследователь обнаружил недавно: церковь Замби, церковь Нур, храм Катех, храм Дарваз, мост Таглы и другие.

В VII главе рассказывается об истории, исторических памятниках и этнографии деревень Кыпчак и Онджаллы.

VIII глава называется «Новый взгляд на историю Северо-Западного Азербайджана и его исторических памятников». Разговор связанный об истории, историчесеских памятников и научных произведений был проведен с соседними государствами. Правильное исследование истории-это правидьно все передать населению, считается важным фактором.

В IX главе рассказывается о борьбе местного населения против Советской власти в 20-30-ые годы прошлого столетия.

Надеюсь, эта монография будет полезным источником для научных сотрудников, учителей и студентов, которые хотят изучать историю и исторические памятники этого региона.

## SUMMARY

Owinq to its geographical and strategic location and the rich natural resources Azerbaijan has historically been in the center of attention. In this regard, the North-West area of Azerbaijan is of particular importance, and numerous ancient and medieval monuments located here were the object disputes.

The "Introduction" presents the urgency of the theme, goals and objectives, the source base, practical and scientific value of the research, the aprobasion and structure of the monoqraph.

The first chapter of the book is on the pictograms found in the region.

Chapter 2 of the monographion is about the popular uprisings in the region against the christianization policy of the Russion Empire in the second half of the 19$^{th}$ century.

The establishment and activity of the Jar-Tala (Car-Tala) community is highlighted in the next chapter.

The history and culture of the Gells, one of the ancient Albanian tribes, is discussed in the chapter "Ingiloys".

Chapter 5 is on the houses in the region, their structure and architectural methods.

The 6$^{th}$ chapter of the monograph is on the newly discovered ancient historical monuments in the region. If we don`t study these historical monuments, if we don`t teach them to the students, the neighboring countries will claim them for themselves.

Zambi church, Darvaz church, Nur church, Katekh church, Tagli Bridge are newly discovered temples. This chapter provides information about them.

The history, historical monuments and ethnography of ancient Kipchak and Onjalli villages are discussed in the 7$^{th}$ chapter.

Chapter 8 is called “A new view at the historical monuments and history of the North-Western region of Azerbaijan”.

A brief summary of history and historical works related to the historical monuments of the region is discussed in this chapter.

The great significance of the study of the monuments has been shown here.

Chapter 9 is about the repressions caused by Soviet State in the 20s and 30s of the 20$^{th}$ century and popular upraisings against them.

This scientific monograph will be a valuable resource and innovation for historians, history teachers, students and everyone who is interested in the north-western region of Azerbaijan.

# 16 səhifə - FOTOBLOK